# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 223 (8539) ÇƏRŞƏNBƏ, 28 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az








## Azərbaycan döyüş meydanında Ermənistanı diz çökdürür

### Sülhə nail olmaq istəyənlər İlham Əliyevin şərtlərini mütləq nəzərə almalıdırlar

Vətən müharibəsinin bir ayı tamam oldu. Ermənistanın sentyabrın 27-də törətdiyi növbəti hərbi təxribata cavab olaraq Azərbaycan Ordusunun başlatdığı əks-hücum əməliyyatlarının nəticəsində 30 gün ərzində işğal altındakı torpaqlarımızın bir qismi azad edildi. Ermənistanın 30 ilə yaxındır ki, işğal altında saxladığı torpaqlarımızın əhəmiyyətli bir hissəsində cəmi 30 gün ərzində işğala son qoyulması Azərbaycan Ordusunun qüdrətini və rəşadətini bütün dünyaya nümayiş etdirdi.

#### Hər gün cəbhədən yaxşı xəbərlər gəlir

Oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin rəhbər heyəti və cəbhə bölgəsində yerləşən birlik komandirlərinin iştirakı ilə keçirdiyi operativ müşavirədə ötən müddətdə ordumuzun keçirdiyi hərbi əməliyyatlarla bağlı vəziyyəti ətraflı təhlil etdi. Dövlət başçısı işğal olunmuş torpaqlarımızın bir hissəsinin bu müddət ərzində işğalçılardan azad olunduğunu bəyan edərək dedi: *"Bir aya yaxındır ki, müharibə gedir. Bu müddət ərzində ölkəmiz döyüş meydanında böyük uğurlar əldə edib. Hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Gün ərzində müntəzəm olaraq mənə döyüş bölgələrində aparılan əməliyyatlar haqqında məlumat verilir və mənim tərəfimdən müvafiq göstərişlər verilir. Demək olar ki, hər saat müxtəlif bölgələrdə baş verən hadisələrlə bağlı məlumat daxil olur, həm Müdafiə Nazirliyi və digər qurumlar məni məlumatlandırırlar. Hər gün operativ müşavirələr keçirilir. Bir sözlə, vəziyyət tam nəzarət altındadır. İşğal olunmuş torpaqlarımızın bir hissəsi bu müddət ərzində işğalçılardan azad edilibdir, 100-dən çox yaşayış məntəqəsi - şəhərlər, kəndlər işğalçılardan azad edilibdir. Azad edilmiş şəhər və kəndlərimizdə artıq Azərbaycan bayrağı ucaldılıbdır".*

Beləliklə, qısa müddətdə Azərbaycan işğal olunmuş ərazilərinin bir hissəsində öz hüquqlarını və BMT-nin 1993-cü ildə qəbul olunmuş 4 qətnaməsinin tələblərini təmin etdi. Həmin qətnamələrdə Ermənistandan işğal olunmuş Azərbaycan ərazilərini dərhal boşaltması tələb olunsa da, işğalçı dövlət 30 ilə yaxın müddətdə onu yerinə yetirməyib.


Ardı 3-cü səh.


## "Ermənistan rəhbərliyi işğalçı siyasətdən imtina etməlidir"

### Prezident İlham Əliyev İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

*- Hər vaxtınız xeyir, cənab Prezident. Xahiş edirəm deyin, yeni sülh barışığı, bu yeni atəşkəs qüvvədə olacaqmı? Səhv etmirəmsə, bu, artıq üçüncü atəşkəsdir.*

- Hər şey Ermənistanın özünü necə aparacağından asılı olacaq. Ona görə ki, ilk iki atəşkəs məhz Ermənistan tərəfindən pozulub. Humanitar mülahizələrə əsaslanan birinci atəşkəsdən sonra 24 saat ərzində Ermənistan atəşkəsi pozdu. Özü də vəhşicəsinə, gecə vaxtı Gəncə şəhərinə ballistik raket atmaqla. Birinci atəşlər nəticəsində 10 nəfər həlak oldu, xeyli insan yaralandı. Sonra onlar daha bir dəfə, yenə gecə vaxtı Gəncəyə zərbə endirdilər. Bu dəfə qurbanların sayı daha çox oldu. Ona görə də biz cavab verməyə məcbur idik.

İkinci atəşkəsə gəldikdə isə bizdə atəşkəsin Ermənistan tərəfindən pozulmasının xronologiyası var. Onlar təyin edilmiş atəşkəs saatından düz 2 dəqiqə sonra atəşkəsi pozdular. Bu gün saat 08.00-dan yeni atəşkəs qüvvəyə minib. İndi Bakıda səhər saat 10.00-dır. Saat 8-dən təxminən 3-4 dəqiqə sonra Tərtər şəhərinə yenidən bir neçə mərmi atılıb. Biz buna cavab vermirik. Ümid edirik ki, bu, təsadüfən olub. Lakin əgər bu, davam etsə, təbii ki, biz adekvat cavab verməyə məcbur olacağıq.


Ardı 2-ci səh.


## Ermənistan yeni humanitar atəşkəsi elə ilk dəqiqələrindən pozdu

### Bu, işğalçı ölkənin beynəlxalq vasitəçilərin səylərinə saymazlığının göstəricisidir

İkinci Qarabağ müharibəsinin başlanmasından bir ay ötür. Azərbaycan Ordusunun haqq savaşı davam edir, torpaqlarımız erməni işğalçılarından təmizlənir. Ordumuz yalnız Dağlıq Qarabağdakı hərbi obyektlərə zərbə endirdiyi halda Ermənistanın kriminal xunta rejimi öz çirkin əməlindən əl çəkməyərək yenə də dinc əhalini hədəf alır.

#### Erməni xisləti

Azərbaycanın döyüş meydanında əldə etdiyi qələbələr nəticəsində çıxılmaz vəziyyətə düşən Ermənistan hər gün həmsədr dövlətlərə yalvararaq atəşkəsə nail olmaq istəyir. İlk olaraq oktyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə Moskvada Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşündə humanitar atəşkəsə razılıq verdiyi halda düşmən riyakarlığını nümayiş etdirərək ilk andan bu razılaşmanı kobud şəkildə pozdu.

Belə ki, oktyabrın 11-də atəşkəs razılaşmasının hələ mürəkkəbi qurumamış döyüş əməliyyatları zonasından aralıda yerləşən şəhər və rayonlarımıza ballistik raketlər ataraq vəziyyəti daha da gərginləşdirən Ermənistan gücünü mülki əhaliyə göstərməyə başladı.


Ardı 5-ci səh.


## Ermənistanın uşaqlara qarşı müharibəsi davam edir



Fransız səyyahı qraf De Şole yazırdı: "Ermənilərin yoxsulluğunun və əzab-əziyyət çəkməsinin məndə onlara qarşı böyük rəhm yaratmasına baxmayaraq, onların haramzadəliyi, kələkbazlığı o dərəcədə iyrənc, alçaqlıqları o dərəcədə biabırçı, o qədər hiddətləndirici idi ki, mən heç vaxt onlara bağlana bilmədim".

Mübaliğəsiz demək olar ki, tarix boyu ermənilərlə qarşılaşan, onları tanıyan yazıçıların, səyyahların, tarixçilərin, ümumiyyətlə, hər bir şəxsin bu millətlə bağlı fikir və düşüncələri belə olub. Bəli, namərdlik, hiyləgərlik, acgözlük, fitnəkarlıq, qorxaqlıq, məkrlilik kimi bir çox yaramaz xüsusiyyətlər erməni genetikasının əsas kodudur.


Ardı 7-ci səh.


## Karantin qaydalarına əməl etmək vətəndaşlıq borcudur

Koronavirus hələ də dünyanın bir nömrəli problemi olaraq qalmaqdadır. Bu ilin onuncu ayı COVID-19 pandemiyası ilə qlobal səviyyədə mübarizə aparmaqla başa çatır. Lakin hələ də infeksiyanın sürətlə yayılmasının qarşısını tam almaq mümkün olmayıb. Əksinə, virus daha da aqressiv şəkildə dünyanı ağuşuna almağa davam edir.

Yoluxma sayı ilə bağlı ümumi statistika hər ötən gün artaraq 45 milyona yaxınlaşır. Son beş gündə isə planetdə koronavirusa yoluxanların sayı gündəlik 400 mindən çox artır. Bu, pandemiyanın başlamasından bəri yoluxmanın ən uzunmüddətli intensiv artımıdır. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bildirir ki, son sutka ərzində virusa yoluxanların sayı 435 min 528 nəfər olub. 22 oktyabrda 442 min 890, 23 oktyabrda 460 min 538, 24 oktyabrda 478 min 700, 25 oktyabrda isə 441 min 268 nəfər koronavirusa yoluxub.

#### Hökumət tərəfindən hər cür imkanlar səfərbər edilib

Dünyanın əksər ölkələri virusu lokallaşdırmaq üçün karantin rejimləri tətbiq edir. Tibb mütəxəssisləri də COVID-19 peyvəndinin tapılıb kütləvi istehsalına başlanmasına qədər virusa qarşı ən effektiv mübarizə üsulunu karantin rejiminin tətbiqində, fiziki məsafə saxlamaqda, maska taxmaq və gigiyenik qaydalara ciddi riayət etməkdə görürlər.


Ardı 11-ci səh.


## Pandemiya və müharibə Ermənistanın iflasını sürətləndirir

### Azərbaycanın qələbəsi işğalçı ölkədə bütün istiqamətlərdə tənəzzülü dərinləşdirib

Ermənistanda müharibə məğlubiyyəti və pandemiya fonunda baş verən son hadisələr bu ölkənin sosial-iqtisadi həyatında olduğu kimi, siyasi fonda da problemlərini dərinləşdirib. Xüsusən Paşinyan hakimiyyəti ilə keçmiş iqtidarların təmsilçiləri arasında kəskinləşən qarşıdurma yeni siyasi xaosun formalaşmasına səbəb olub, proseslər daha gərgin mərhələyə qədəm qoyub.

Məğlubiyyətlərə görə sosial narazılıqlardan istifadə edən Sarkisyan-Koçaryan koalisiyasının revanşı isə vəziyyəti gündən-günə ağırlaşdırır. Ermənistanın "İravnuk" qəzeti yazır ki, müharibədə ərazilər itirilir, ölkənin daxili siyasi həyatında qarşıdurma dərinləşir və vətəndaşlar məyus vəziyyətdədirlər.

Etibarlı mənbələrə istinad edən qəzet bildirib ki, hazırda ölkənin əsas müxalif cəbhəsinin N.Paşinyana qarşı hələ tam olaraq ciddi işə keçməməsinin səbəbi davam edən müharibədə hökumətin daha çox səhvlər buraxmasını gözləmək və baş nazirə ilin sonunda sarsıdıcı sürpriz hazırlamaları ilə əlaqədardır.


Ardı 7-ci səh.


**Düşmənin 306 tankı - 253-ü məhv edilib, 53-ü qənimət kimi götürülüb; 79 ədəd piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb; 283 ədəd müxtəlif çaplı toplar - 251-i məhv edilib, 24-ü qənimət kimi götürülüb; 106 ədəd minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb; 53 ədəd tank əleyhinə vasitə; 83 "Qrad" qurğusu; 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi; 1 "Tos"; zenit-raket kompleksləri - 4 "Tor", 41 "Osa", 4 "Kub", 1 "Kruq", 2 "S-125" qurğusu; 6 "S-300" atıcı qurğusu; 1 aşkaretmə stansiyası; 1 lokator; əməliyyat taktiki raket kompleksləri - 2 ədəd Elbrus; 1 ədəd "Toçka-U" məhv edilib; 410 yük avtomobili - 231-i, onlardan 20-si sursatı ilə birgə məhv edilib, 173 yük avtomobili hərbi qənimət kimi götürülüb.**

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# "Ermənistan rəhbərliyi işğalçı siyasətdən imtina etməlidir"

## Prezident İlham Əliyev İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verib

Əvvəli 1-ci səh.



*- Cənab Prezident, sentyabrın axırlarında Sizin hərbi əməliyyatlara başlamağınıza, əslində, nə səbəb olmuşdu? Nə üçün belə oldu?*

- Bu, siyasi və hərbi xarakterli hadisələrin gedişi ilə bağlıdır. Əsas səbəb ondan ibarətdir ki, Ermənistan danışıqlar prosesini hər vasitə ilə pozmaq istəyirdi. Ermənistanın yeni hökuməti dəfələrlə bəyan etmişdi ki, baza prinsipləri ondan ötrü qəbuledilməzdir, o, işğal edilmiş ərazilərin bircə qarışını belə qaytarmağa hazırlaşmır. Bu isə baza prinsiplərinə ziddir. Baş nazir bəyan edirdi ki, Azərbaycan danışıqları Ermənistan ilə deyil, qondarma "Dağlıq Qarabağın" rəhbərləri ilə aparmalıdır. Bu həm bizim üçün, həm də ATƏT-in Minsk qrupu üçün qəbuledilməz idi. Baş nazir həmçinin bəyan edirdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Bununla da o, danışıqlar prosesini tamamilə pozmuş oldu. Son bir ildə praktiki olaraq, danışıqlar aparılmayıb və Ermənistan bunun təqsirini bizim üzərimizə yıxmaq üçün üç dəfə təxribat cəhdi göstərdi - iyul ayında sərhəddə, avqust ayında təxribat qrupu göndərildi və sentyabr ayında bizim dinc şəhərlər atəşə tutuldu. Onlar yəqin düşünürdülər ki, biz bu dəfə də təmkin göstərəcəyik, lakin belə olmadı. Biz onlara elə cavab verdik ki, indi onlar təəssüflənirlər.

*- Elə isə Siz öz hərbi əməliyyatlarınızı hansı şərtlər daxilində dayandırmağa razı olacaqsınız? Siz dəfələrlə demisiniz ki, Ermənistan tərəfindən konstruktiv yanaşma zəruridir. Konstruktiv yanaşma necə olmalıdır?*

- Konstruktiv yanaşma ondan ibarət olmalıdır ki, onlar baş nazirin şəxsində açıq bəyan etməlidirlər ki, baza prinsiplərini qəbul edirlər. Baza prinsipləri isə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ətrafında yerləşən yeddi rayonun Azərbaycana qaytarılmasını və azərbaycanlı məcburi köçkünlərin Dağlıq Qarabağ ərazisinə, o cümlədən Azərbaycanın qədim Şuşa şəhərinə qayıtmalarını nəzərdə tutur. Prinsip etibarilə bu yanaşmalar BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əsaslanır, həmin qətnamələr də praktiki olaraq, bunu tələb edir. Lakin Ermənistanın baş naziri deyəndə ki, onlar bircə qarış belə torpağı bizə verməyəcəklər, Ermənistanın müdafiə naziri bəyan edəndə ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə başlayacaq və bizə qarşı təcavüz həyata keçiriləndə, bu, əlbəttə, konstruktiv yanaşma deyil. O deməlidir ki, bəli, işğal edilmiş ərazilər Azərbaycana qaytarılacaq, bəli, azərbaycanlılar Dağlıq Qarabağa, o cümlədən Şuşaya qayıdacaqlar, bax, onda biz çox tezliklə razılığa gələrik.

*- Cənab Prezident, bir məsələ çox mübahisəlidir. Bəzi ölkələr, təkcə Ermənistan deyil, o cümlədən Fransa da Sizi və Türkiyəni Suriyadan minlərlə muzdlunun Türkiyədən keçməklə Qarabağa göndərilməsində ittiham edirlər. Siz bu cür ittihamlara necə cavab verərsiniz, Azərbaycan ərazisində türkiyəli döyüşçülərin və Türkiyəyə məxsus hərbi təyyarələrin olması barədə ittihamlara Siz necə cavab verərsiniz?*

- Mən bu suala bir neçə dəfə cavab vermişəm, bir də cavab verərəm. Əvvələn, bizə bu cür əsassız ittihamları cəmi iki ölkə təqdim edib - Fransa və Rusiya. Fransa Prezidentin şəxsində, Rusiya isə Xarici Kəşfiyyat İdarəsinin rəhbərinin şəxsində. Hərbi əməliyyatlar başlanandan dərhal sonra bizə bu cür ittihamlar təqdim edilib. Lakin artıq bir aya yaxın vaxt keçib, bizə heç bir dəlil, heç bir sübut təqdim edilməyib. Üstəlik, ilk dəfədir deyirəm, mən Fransa tərəfə müraciət etmişəm ki, müvafiq xidmətlərin müvafiq rəhbərləri görüşsünlər, söhbət etsinlər və bizə sübutlar təqdim etsinlər. Bizə heç nə təqdim edilməyib. Ona görə bütün bunlar insunasiyadır. Bütün bunlar Azərbaycana qara yaxmaq cəhdidir. Mən təəssüflənirəm ki, bu cür əsassız ittihamlar həmsədr ölkələrdən daxil olur. Onlar obyektiv olmalıdırlar. Axı biz Rusiyadan Ermənistana nə qədər silah göndərilməsi barədə hər gün danışmırıq. Axı biz demirik ki, bu gün kənardan kömək olmasa, Ermənistan işğal edilmiş ərazilərdə bircə gün də dayana bilməzdi. Həm siyasi dəstək, həm hərbi, həm də mənəvi dəstək, özü də bunlar bitərəfliyə riayət etməli olan ölkələr tərəfindən gəlir. Buna görə biz bu insunasiyaları qətiyyətlə rədd edirik, buna ehtiyac yoxdur. Bizim nizami ordunun 100 min döyüşçüsü var. Zərurət yaranarsa, biz ümumi səfərbərlik elan edərik. Yeri gəlmişkən, Ermənistandan fərqli olaraq, biz bunu elan etməmişik. Ona görə bütün bunlar yalan və böhtandır. Əməliyyatlarda Türkiyə qoşunlarının iştirakına gəldikdə isə bu da yalandır. Heç bir sübut yoxdur. Türkiyənin F-16 təyyarəsinin Azərbaycan ərazisində olması onun nəticəsi olub ki, münaqişə ərəfəsində bizdə birgə hərbi təlimlər keçirilib. Axı biz demirik ki, Ermənistan ərazisində Rusiyanın neçə MiQ-29, Su-30 təyyarəsi var. Axı biz demirik ki, Ermənistanda, Gümrüdəki bazada Rusiyanın 5 minlik qoşunu var və bizdə olan məlumata görə oradan vaxtaşırı olaraq Ermənistan silahlı qüvvələrinə təchizat göndərilir və bizim barəmizdə deyilənlərdən fərqli olaraq, bunlar faktdır. Ona görə də bizi ittiham etmək istəyənlərə təklif edirəm ki, yalan informasiyaya əsaslanan bu cür tez-tələsik nəticələr çıxarmazdan əvvəl özlərinə baxsınlar.

*- Cənab Prezident, sonuncu sual bu və ya digər dərəcədə bizim ölkəyə - İtaliyaya da aiddir. Siz yəqin bilirsiniz ki, Avropada ərazi mübahisələrinin və ya regional separatizmin dinc yolla nizamlanmasına dair çoxlu uğurlu nümunələr var. Belə nümunələrdən biri bizdə - İtaliyadadır. Bu, Alto-Adice (Zyudtirol) regionudur. Sizə elə gəlmirmi ki, İtaliya Qarabağın statusunun həll edilməsi üçün öz təcrübəsi ilə konkret kömək edə bilərdi. Xüsusən ona görə ki, İtaliya həm Sizinlə, həm də Ermənistanla çox səmimi, sıx, güclü siyasi, mədəni əlaqələrə malikdir.*

- Bəli, mən hesab edirəm ki, İtaliya münaqişənin nizamlanması işində çox mühüm rol oynaya bilər. Qeyd etməliyəm ki, Minsk qrupu yaradılan vaxt, çoxdan, təqribən 30 il bundan əvvəl bu Minsk qrupunun rəhbəri məhz İtaliya nümayəndəsi, italiyalı diplomat idi. Bu, həmsədrlər təsisatı yaradılandan əvvəl idi. Həmsədrlər təsisatı yaradılandan sonra Minsk qrupu, əslində, ölkələr qrupu kimi heç bir fəaliyyət göstərməyib, çünki həmsədrlər bu fəaliyyəti özlərinin inhisarına götürüblər. Bunun nəyə gətirib çıxardığını görürük. 28 il ərzində heç bir irəliləyiş olmayıb, heç bir nəticə yoxdur, yalnız vədlər, yalnız bürokratik prosedurlar var və bu gün bizə belə gəlir ki, əslində, həmsədrlərin fəaliyyəti münaqişənin həllinə deyil, onun dondurulmasına yönəlmişdi. İtaliyada mövcud olan modelə gəldikdə isə biz onu öyrənmişik. Biz Aland adaları modelini, muxtar qurumların digər uğurlu təcrübələrini də öyrənmişik. Ermənistandan fərqli olaraq, Azərbaycan çoxmillətli dövlətdir. Yəqin siz bilirsiniz, Ermənistanda əhalinin 99 faizi ermənilərdir. Buna görə çox müsbət olan bu özünüidarə təcrübəsi bizim halda da tətbiq edilə bilərdi. Yeri gəlmişkən, mənim bildiyimə görə 1990-cı illərin ortalarında bu cür təkliflər olub. Hətta qeyri-hökumət təşkilatlarının nümayəndələrindən, politoloqlardan ibarət qruplar sizin ölkəyə də, haqqında danışdığınız regiona da, Aland adalarına da səfər edirdilər. Lakin Ermənistan bunu həmişə qəti surətdə rədd edirdi. Onlar hesab edirdilər ki, dünyanın aparıcı ölkələrinin hərbi, siyasi, iqtisadi dəstəyinə güvənərək bizim əraziləri əbədi işğal edə biləcəklər, lakin onlar kobud səhv edirdilər. Bu gün biz özümüzün haqlı olmağımızı döyüş meydanında sübut edirik. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini həyata keçiririk və beynəlxalq hüququ bərpa edirik.

*- Cənab Prezident, ən sonuncu sual: bir ildən sonra biz bu münaqişədə hansı səviyyədə olacağıq? Münaqişənin həlli olacaqmı? Yoxsa bu, münaqişənin həlli olacaq?*

- Bilirsiniz, bu bir ay ərzində mən, demək olar ki, hər gün xarici kütləvi informasiya vasitələrinin nümayəndələri ilə ünsiyyətdə oluram və Azərbaycan xalqına öz müraciətlərimdə bizim mövqeyimizi həmişə dəqiq şərh edirəm. Biz Qarabağ regionunun, - təkcə Dağlıq Qarabağın deyil, həm də Aran Qarabağın, çünki Qarabağ Azərbaycanın böyük bir hissəsidir, - gələcəyini həm oraya qayıtmalı olan azərbaycanlıların, həm də hazırda orada yaşayan ermənilərin dinc yanaşı yaşayacaqları firavanlaşan, dinc bir ərazi kimi görürük. Bizim mövqeyimiz bundan ibarətdir. Hesab edirəm ki, tərəflərin qarşılıqlı xoş məramı olsa buna nail olmaq mümkündür. Ona görə ki, axı bu gün Bakıda və Azərbaycanın digər şəhərlərində minlərlə erməni yaşayır. Həm Rusiyada, həm də Gürcüstanda azərbaycanlılar və ermənilər biznesə malikdirlər, qarışıq ailələr var. Buna görə də düşünürəm ki, barışıq mümkündür, sadəcə Ermənistan rəhbərliyi işğalçı siyasətdən imtina etməlidir. Əgər belə olsa biz öz investisiyalarımızla və ölkənin yenidən qurulması üzrə təcrübəmizlə bu regionu dünyanın ən firavan regionlarından birinə çevirə bilərik. Lakin bundan ötrü müharibənin nəticələri aradan qaldırılmalıdır. İşğal aradan qaldırılmalıdır, azərbaycanlılar əsrlərboyu yaşadıqları torpaqlara qayıtmalı və erməni əhali ilə qonşuluqda, razılıq şəraitində yaşamalıdırlar. Bu, asan olmayacaq, buna vaxt lazım gələcək. Lakin Avropa ölkələrinin vuruşduğu İkinci Dünya müharibəsindən sonra ölkələrin necə barışdığını bilirik - bugünkü qonşular o vaxt çox insanı qətlə yetiriblər. Lakin bu, daim yaddaşda yer tutmamalı, nifrət doğurmamalıdır. Erməni ideoloqları bu gün bununla məşğuldurlar. Xoş məram göstərilməlidir. Əgər belə olsa, mənim dediyim olacaq. Əgər olmasa, biz hər bir halda bu torpaqları qaytaracağıq. Döyüş meydanında bugünkü vəziyyət də bunu göstərdi. Biz onları nəyin bahasına olsa, qaytaracağıq. Ya dinc yolla, ya da müharibə yolu ilə, lakin qaytaracağıq. Buna görə düşünürəm ki, Ermənistan rəhbərliyi bu barədə ciddi düşünməli və düzgün addım atmalıdır.

*- Cənab Prezident, çox sağ olun və italyanlar demişkən, bono fortuno.*

- Siz də sağ olun. Təşəkkür edirəm.

*- Xudahafiz.*

- Xudahafiz.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Biz, Gürcüstanda yaşayan bir qrup azərbaycanlı din xadimləri Azərbaycanın ərazi bütövlüyünün bərpası və işğal olunmuş ərazilərinin erməni silahlı birləşmələrindən təmizlənməsi uğrunda sentyabrın 27-dən başlayan Vətən müharibəsini çox diqqət və həyəcanla izləyirik. Uzun illərdən bəri daim atəşkəsi pozan və sülh danışıqlarına əməl etməyən düşmənlə başqa dildə danışmağın mümkün olmadığını iyul ayında Tovuz rayonuna namərdcəsinə edilən hücumdan sonra bizlər də gördük.

Gürcüstanda yaşayan soydaşlarımızın qəlbi bu gün Azərbaycanla, Azərbaycan əsgəri ilə birgə döyünür. Biz başqa ölkənin vətəndaşı olsaq da, milliliyimiz və milli dövlətimiz üçün Sizin hər bir çağırışınıza hazırıq. 30 illik həsrətin bitəcəyinə inanırıq. Gürcüstandakı soydaşlarımız Sizinlə həmrəydirlər, hər zaman ana Vətənimizə dəstək verməyə, Sizinlə bir səngərdə olmağa hazırdırlar. İnşallah, tezliklə Azərbaycan xalqı Qarabağda qələbə çalacaq, sülh və ədalət bərqərar olacaqdır.

Möhtərəm cənab Prezident, Sizin daim təmkinlə söylədiyiniz "Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu var" ifadəsi bu gün hər bir azərbaycanlı üçün qürur mənbəyinə çevrilib. Vətən müharibəsinin getdiyi bu dönəmdə bir daha əmin olduq ki, belə bir güclü ordu Sizin kimi qətiyyətli Müzəffər Ali Baş Komandanın dəqiqliklə yürütdüyü hərbi quruculuq siyasəti sayəsində ərsəyə gəlib.

İnanırıq ki, Sizin qətiyyətli siyasətiniz uğurla nəticələnəcək, tezliklə torpaqlarımız azad ediləcək. Bu gün Azərbaycanın ərazi bütövlüyünün təmin olunması bizim qürurumuz və müqəddəs borcumuzdur.

Dualarımız Sizinlədir, müzəffər Ordumuzladır. Qarabağda dalğalanacaq Azərbaycan bayrağı naminə canından keçən hər bir şəhidimizə Allahdan rəhmət diləyirik! Allah yaralılarımıza tezliklə şəfa versin.

Şanlı Azərbaycan Ordusuna eşq olsun! Allah Sizi daim müzəffər eləsin!

*Hörmətlə,*

***Hacı Əli Əliyev, Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstan üzrə səlahiyyətli nümayəndəsi***
***Hacı Eldəniz Sadıqov, Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstan nümayəndəliyinin əməkdaşı***
***Əxmədov İfrət, Bolnisi rayonunun baş axundu***
***Əhmədov Elsevər, Bolnisi rayonu Dəllər kəndinin axundu***
***Şərifov Sabin, Faxralı kənd məscidinin axundu***
***Əliyev Çingiz, Ağamməդli kənd məscidinin axundu***
***Mamedov Mir Əli, Xancıxazdlı kənd məscidinin axundu***
***Quliyev Mahir, Goraxı kənd məscidinin axundu***
***Sadiqov Mübariz, Bəylər kənd məscidinin axundu***
***Hacıyev Fəxrəddin, Marneuli rayonu Təkəli kənd məscidinin axundu***
***Şəmşiyev Tofik, Beytarafçı kəndinin imamı***
***Məmmədov Azər, Qrıxlı kənd məscidinin axundu.***

*Gürcüstan, Bolnisi və Marneuli rayonları.*

## Prezidentə yazırlar

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə vətəndaşlarımızdan, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyə və digər ölkələrin vətəndaşlarından məktublar ünvanlanmaqda davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.

Türkiyənin Sakarya vilayətindən **Sarıgül Səvzəliyeva** yazır: "Çox dəyərli Prezident, hörmətli cənab Ali Baş Komandan, mən əslən türkəm, həyat yoldaşım isə Azərbaycandandır. Tarixi çox sevirəm, tarix müəllimiyəm. Universitetdə tarix dərsləri keçərkən Qarabağda yaşanan qətliamları, Xocalı qırğınını göz yaşları ilə oxuyardım. Bu gün isə rəhbərliyinizlə qəhrəman Azərbaycan Ordusunun tarixə yazdıqlarını sevinc göz yaşları ilə izləyirəm. Azərbaycan tarixində dönüş yaradacaq fəaliyyətinizi yeni nəsillərə ləyaqətlə öyrədəcəyimdən zərrə qədər şübhəniz olmasın. Qarabağın düşmənlərdən təmizlənməsi uğrundakı mübarizənizi cani-könüldən dəstəkləyirik. Çox sevdiyimiz Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə Respublikasının hər bir sakini kimi lazım olduqda can Azərbaycan üçün canımızı fəda etməyə hazır olduğumuzu bildirmək istəyirəm. Sevgili atanız Ulu Öndər Heydər Əliyevin dediyi kimi, biz bir millət, iki dövlətik. Allahın köməyi ilə zəfər Azərbaycan Ordusunundur. Rəbbim Sizi və qəhrəman əsgərlərimizi qorusun!"

Mersin vilayətindən **Atila Mehmet:** "Çox hörmətli Prezident, Allahdan Sizə və xalqınıza daimi lütf və mətanət arzulayır, şəhidlərinizə isə rəhmət diləyirəm. Taleyinizdə nə varsa onu paylaşmaq, qarşılaşdıqlarınız önündə sizlərlə çiyin-çiyinə durmaq istəyirəm. Allah Sizi, bizi və bütün İslam dünyasını qorusun, yar və yardımçınız olsun. Bizlərlə xain davranan, oyun oynamağa cəhd edən düşmənlərimiz isə gücün nə olduğunu gördülər. Uca Rəbbimdən tezliklə işğal altında olan torpaqlarınızı azad etmək üçün xalqınıza kömək olmasını arzulayıram. Bir türk olaraq bu mübarizənizdə daim Sizin yanınızda olmaq, "bir millət, iki dövlət" ideyasına xidmət etmək istəyirəm. Qəlbimlə, ruhumla və dualarımla Sizin yanınızdayam. Sizin yolunuzda, haqqın, ədalətin bərpası yolunda qardaşlarımla bir sırada olmaq, Allah qismət edərsə, şəhidlik zirvəsinə ucalmaq mənim üçün şərəfdir. Artıq analarımızın, atalarımızın göz yaşı axıtmasını, övladlarımızın valideynlərindən məhrum olmasını istəmirik. Allaha əmanət olun!"

Bakı şəhər sakini **Qələmirzə Masiyev:** "Çox hörmətli möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, müstəqil Azərbaycanın vətəndaşı olaraq daim Sizin "Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü ordusu var" şüarınıza inandıq. Yalnız bir çox halda səbirsizlik edirdik. Ancaq "nəyi nə vaxt və necə etməyi də" Sizdən yaxşı bilənin olmamasına inanırdıq. Nə yaxşı ki, müstəqil Azərbaycanın qurucularından olan bizim nəsil də sayənizdə bu xoşbəxt günləri gördü. Biz dövlətimizlə, liderimizlə, əvəzolunmaz və möhtəşəm tarix yazan sərkərdəmizlə fəxr edirik. Ərazi bütövlüyümüzün, milli kimliyimizin, şərəfimiz və ləyaqətimizin bərpasını təşkil və təmin edən bir lider əbədi olaraq xalqımızın rəhbəri, lideri kimi tarixə düşdü. Tam əminəm ki "İlhamla irəli"nin ən məsul və yaradıcı dövrü indi başlayır. Sizi və xalqımızı bu nailiyyətlər münasibətilə təbrik edirəm. Cəbhə bölgəsinə könüllü olaraq yollanan oğlum daxil olmaqla Allah bütün əsgər və zabitlərimizi qorusun, bizə zəfərlər nəsib etsin! Qələbə bizimlədir, Qarabağ Azərbaycandır!"

## "Cəbhədə şanlı Ordumuzun şücaəti, siyasi arenada Sizin qətiyyətiniz, iradəniz hər birimizi qürurlandırır"

İsmayıllı sakini **Rövşən Rüstəmov:** "Möhtərəm Prezidentimiz, Sizin rəhbərliyinizlə 30 illik torpaq həsrətinə son qoyulduğuna, şanlı Ordumuzun hər gün qazandığı qələbələrə görə Sizə təşəkkür və minnətdarlığımı bildirirəm. Cənab Prezident, mən belə düşünürəm ki, Siz Azərbaycan Respublikasının Milli Qəhrəmanısınız. Sizinlə bütün Azərbaycan xalqı fəxr edir, hər gün cəbhədə işğaldan azad olunmuş rayon və kəndlərimizdə Azərbaycan bayrağı dalğalandırılır. Əminəm ki, tezliklə bütün torpaqlarımız düşmən tapdağından azad olunacaq, Azərbaycan bayrağı hər bir şəhər və rayonda dalğalandırılacaqdır. Allah Sizi qorusun, kölgənizi Azərbaycan xalqının başı üzərindən əskik etməsin!"

Mingəçevir şəhər sakini **Rövşən Zamanov:** "Hörmətli Ali Baş Komandan, bütün Azərbaycan xalqı Sizinlədir. Mən bir kəlbəcərli kimi Sizinlə fəxr edirəm. Fəxr edirəm ki, Sizin kimi Ali Baş Komandanımız var. Allah müzəffər Ordumuzu qorusun! Siz adınızı Azərbaycan tarixinə qızıl hərflərlə yazdıran bir sərkərdəsiniz. Bütün Azərbaycan xalqı Sizinlədir. İşğal olunmuş torpaqlarımızın, o cümlədən Kəlbəcərin bir hissəsinin işğaldan azad olunması xəbərlərini Sizin dilinizdən eşitdikdə, sevincimizin həddi-hüdudu olmadı. Cənab Prezident, Siz, eyni zamanda, bütün türk dünyasının qəhrəmanısınız! Kəlbəcərdə Sizi qarşılamaq, qonaq etmək ümidi ilə yaşayıram".

Gəncə şəhər sakini **Xalidə Əsgərova:** "Müzəffər Ali Baş Komandan, mən bir şəhid anası kimi Sizin Azərbaycan torpaqlarının, xüsusilə də Füzulinin və Lələtəpə yüksəkliyinin erməni daşnaklarından geri almağınız münasibətilə Sizə təşəkkürümü bildirirəm. Yeganə oğlum, kapitan Zaur İsmayılov 2004-cü ildən Horadiz qəsəbəsindəki hərbi hissədə xidmət edirdi. Gecə-gündüz dincəlmədən əsgərləri ilə birlikdə Lələtəpə yüksəkliyinin geri alınmasına hazırlaşırdı və hər zaman Sizin əmrinizi gözləyirdi. Oğlum Lələtəpə yüksəkliyi uğrunda gedən döyüşlərdə yaralanan əsgərləri səngərdən çıxarıb geri qayıdanda ürəyindən vurulmuşdu. Mən öz oğlumla fəxr edirəm. Vətən sağ olsun! Bir ana kimi həm sevinirəm, həm də kədərlənirəm. Sevinirəm ona görə ki, Qarabağdakı torpaqlarımız geri alınır. Kədərlənirəm ona görə ki, bu günü görmədi, amma əminəm ki, oğlum Zaurun ruhu şaddır. Arzum budur ki, gün o gün olsun ki, bütün torpaqlarımız geri alınsın. Tezliklə, qələbə bizim olsun. Uca Tanrı Sizi qorusun, Azərbaycan xalqına çox görməsin!"

Şəkidən **Besik Kuribabaşvili** yazır: "Müzəffər Ali Baş Komandan, mən 1983-cü ildə Qax rayonunun Meşəbaş kəndində anadan olmuşam. Hərbi xidmətimi 2002-ci ildə Füzuli rayonunun Alxanlı kəndində yerləşən hərbi hissədə tank əleyhinə raket qurğusunun baş atıcısı və manqa komandirinin müavini vəzifəsində yerinə yetirmişəm. Sizin məlum fərmanınızı böyük sevinc və fəxr hissi ilə qarşıladıq. Vətənimizin işğal altında olan torpaqlarının azad olunması vaxtı, nəhayət, gəlib çatdı. Çoxdan gözlədiyimiz an, səbirsizliklə arzuladığımız zəfər yürüşü üçün bizlərə imkan yaratdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk. Cənab Prezident, Vətənimin bu ağır, lakin şərəfli zamanında, ürəklərin cəbhə üçün, torpaq üçün döyündüyü bir vaxtda, hamının bir nəfər kimi "Qarabağ" deyərək mübarizəyə qalxdığı anda mən də bir Azərbaycan vətəndaşı və azsaylı xalqın nümayəndəsi kimi, Vətən qarşısında müqəddəs borcumu yerinə yetirmək istərdim. Cənab Ali Baş Komandan, doğma torpaqlarımızı düşməndən azad etmək üçün canımdan və son damla qanımdan keçməklə şəhid olmağa hazıram. Şəhidlik zirvəsinə ucalmaq ömürboyu arzusunda olduğum xoşbəxtliyi yaşamaq deməkdir mənim üçün. Ulu Öndərimizin layiqli davamçısı kimi Sizə və rəşadətli Ordumuza bu şərəfli yolda böyük uğurlar arzulayıram. Vətənə verəcəyim candır. Qarabağ Azərbaycandır!"

Laçın sakini **Firdovsi Təhməzov:** "Hörmətli cənab Prezident, mən 1992-1994-cü illərdə bir qolum olmadan Qarabağ döyüşlərində iştirak etmişəm. Torpaqlarımızın azad edilməsi, otuz ildən bəri narahat qalmış şəhid ruhlarının şad olması, mənfur erməni faşistlərinin öz layiqli cəzasını alması üçün hazırda gedən döyüşlərdə də iştirak etməyə hazıram. Əmrinizdəyəm, Müzəffər Ali Baş Komandan! Qarabağ Azərbaycandır!"

Tərtər sakini **Abil Məmmədov:** "Möhtərəm cənab Prezident, mən və ailəm Sizin apardığınız siyasəti bəyənir və dəstəkləyirik. Vətənimizin ərazi bütövlüyü uğrunda apardığınız bu haqq mübarizəsində Sizə uğurlar və qələbə arzulayırıq. Bu gün hər bir azərbaycanlı öz Ali Baş Komandanı və Ordusu ilə haqlı olaraq fəxr edir. Uzun illər çəkilən zəhmətin, həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsini, bəhərini görürük. Cənab Prezident, Allah Sizi və əsgərlərimizi qorusun. Qarabağ Azərbaycandır!"

Milli Məclisin iclasında

# Tarixi ədalətin bərpa olunduğu növbəti kənd Çinarlıdır

## İlham Əliyevin Ali Baş Komandanlığı ilə azad edilmiş torpaqlarımızda erməni saxtakarlığına son qoyulur

Oktyabrın 27-də Milli Məclisin növbəti plenar iclası keçirildi. İclası aparan Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli bildirdi ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev xalqımıza növbəti müraciətini edib: "Bu müraciət xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb. Müraciətdə cənab Prezident eyni zamanda Dağlıq Qarabağın böyük yaşayış massivlərindən biri olan Qubadlı şəhərinin işğaldan azad olunmasını bəyan etdi. Bu münasibətlə Milli Məclis adından xalqımızı bir daha təbrik edirik!"



### Prezidentin hər çıxışı cəmiyyətimizi daha güclü səfərbər edir

Əli Hüseynli diqqətə çatdırdı ki, bu dövr ərzində deputatlar həm mediada, həm də təmsil olunduğumuz beynəlxalq təşkilatlarda baş verən hadisələrlə bağlı həqiqətləri və dövlətimizin mövqeyini aydın şəkildə geniş ictimaiyyətə çatdırıblar. Komitə sədrlərinin iclasında Milli Məclisin Sədri Sahibə Qafarova deputatların bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndirib, öz təşəkkürünü ifadə edib.

Gündəliyə münasibət bildirildikdən sonra cari məsələlərlə bağlı çıxışlar oldu. Komitə sədrləri Zahid Oruc, Hicran Hüseynova, deputatlar Fazil Mustafa, Soltan Məmmədov, Aqiyə Naxçıvanlı, Müşfiq Cəfərov, Kamilə Əliyeva, Fəzail Ağamalı, Kamal Cəfərov, Anar İsgəndərov, Azay Quliyev bildiriblər ki, Azərbaycan cəmiyyətində bu gün əsas məsələ birlik modelinin inkişaf etdirilməsidir. Bunun əsas memarı isə ölkə Prezidenti cənab İlham Əliyevdir. Onun hər bir çıxışı Azərbaycan cəmiyyətinin daha mobil şəkildə müharibəyə səfərbər olmasına, torpaqların işğaldan azad edilməsinə yönəlib. Qeyd edilib ki, bu hərəkatda parlament də öz üzərinə düşən vəzifələri uğurla yerinə yetirir.

Diqqətə çatdırılıb ki, bu gün xalqımız Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə öz ərazi bütövlüyü, suverenliyi, haqq-ədalət uğrunda təkbaşına müharibə aparır. İşğalçı Ermənistan isə beynəlxalq qurumlar və müxtəlif maraqlı dairələr tərəfindən istər maddi, istərsə də silah-sursatla dəstəklənir. Çıxışlarda ATƏT-in Minsk qrupunun heç bir nəticə verməyən fəaliyyətinə də münasibət bildirilib. Qrupun həmsədri olan Fransanın bu məsələdə mövqeyi, o cümlədən fransalı parlamentarların Ermənistana səfərləri təəssüflə qeyd olunub və pislənilib. Bildirilib ki, bu gün Azərbaycan siyasi və diplomatik müstəvidə də mübarizə aparır. Ölkə Prezidentinin xalqa müraciətləri, qətiyyətli çıxışları, Azərbaycan əsgərinin ərazi bütövlüyümüzün bərpası uğrunda qəhrəmancasına mübarizəsi buna parlaq misaldır.

### Ermənistan yerli toponimləri dəyişdirməklə də çoxsaylı cinayətlər törədib

Sonra gündəliyə daxil olan qanun layihələrinin müzakirəsinə başlanıldı. Əvvəlcə "Azərbaycan Respublikasının Xocavənd rayonunun Vəng kəndinin Çinarlı kəndi adlandırılması haqqında" qanun layihəsi müzakirə edildi. Qeyd olundu ki, Ermənistan torpaqlarımızı işğal etməklə, xalqımıza qarşı soyqırımı törətməklə yanaşı, yerli toponimləri dəyişdirməklə çoxsaylı cinayətlər törədib. Ermənistan tərəfindən Qərbi Azərbaycan və Dağlıq Qarabağ ərazisində 700-dən çox rayon, şəhər, qəsəbə və kəndlərin, həmçinin bir çox tarixi və mədəni abidələrin adları dəyişdirilib. Hazırda Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində əməliyyatlar davam edir. Bu əməliyyatlar nəticəsində azad edilmiş torpaqlarda yaşayış məntəqələrinin tarixi adlarının qaytarılması sahəsində zəruri işlər həyata keçirilir. Yer adlarımıza qarşı törədilən erməni saxtakarlığı aradan qaldırılır. Bu məsələ mühüm siyasi, hüquqi və mənəvi əhəmiyyət daşıyır.

Diqqətə çatdırıldı ki, coğrafi şəraitinə görə Qarabağda, o cümlədən Xocavənd rayonunun ərazisində çinar ağacları geniş yayılıb. Bu baxımdan Xocavənd rayonunun Vəng kəndinin adının dəyişdirilərək Çinarlı qoyulması məntiqlidir. Buna uyğun olaraq, ölkə Prezidenti tərəfindən təqdim edilən layihədə Azərbaycan Respublikasının Xocavənd rayonunun Hadrut qəsəbəsi inzibati ərazi dairəsi tərkibindəki Vəng kəndinin Çinarlı kəndi adlandırılması təklif olunur. Bildirilib ki, məsələyə Toponimiya komissiyasında da baxılıb və müsbət dəyərləndirilib. Qanun layihəsi səsə qoyularaq qəbul edildi.

### Bir sıra qanunlara dəyişikliklər təsdiq olundu

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov təqdim etdi. Bildirildi ki, müvafiq icra hakimiyyəti orqanında birbaşa kadr zabit heyətinə könüllü daxil olan vətəndaşlar bir qayda olaraq dövlət sirrinin daşıyıcıları olurlar. Qanuna ediləcək dəyişiklikdən öncə vətəndaş könüllü olaraq zabit kimi xidmətə qəbul edildikdə 1 il 6 ay xidmət etdikdən sonra həmin xidmətdən tərxis ola bilirdi. Təklif olunan dəyişikliyə əsasən, həmin şəxslər qiymətləndirmə yolu ilə birbaşa kadr zabit heyətinə keçirilirlər və yalnız zabit heyəti vəzifələrində təqvim hesabı ilə azı 10 il xidmət etdikdən sonra ehtiyata buraxıla bilərlər. Qeyd edilib ki, layihəyə birinci və ikinci oxunuşlarda heç bir əlavə və təklif olmayıb. Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi barədə ikinci oxunuşda Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev məlumat verdi. Diqqətə çatdırıldı ki, qanunun müvafiq maddələrinə "xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyası" anlayışının daxil edilməsi, eyni zamanda "xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası)" ifadəsinin "xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması" ifadəsi ilə əvəz edilməsi təklif olunur. Bu dəyişiklik nəticəsində ali təhsil diplomlarının tanınması proseduru təkmilləşdiriləcək, tanınan sənədlərin əhatə dairəsi genişləndirilərək ali təhsilə aid olan və ya ali təhsilə qəbul olunmaq imkanı verən subbakalavr diplomlarının da tanınma imkanı və proseduru yaradılacaq.

O da qeyd edildi ki, xarici ölkələrin səlahiyyətli orqanları tərəfindən verilmiş subbakalavr diplomlarının tanınması ilə xaricdə bu təhsili almış vətəndaşlarımızın, həmçinin əcnəbi və vətəndaşlığı olmayan şəxslərin təhsillərini ölkəmizdə növbəti pillələrdə davam etdirmək imkanları yaranacaq.

Deputatlar Rauf Əliyev, İltizam Yusifov, Etibar Əliyev, Aqiyə Naxçıvanlı dəyişikliklərin əhəmiyyəti barədə fikirlərini söylədilər. Müzakirələrdən sonra qanun layihəsi ikinci oxunuşda təsdiq olundu.

"Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini də ikinci oxunuşda Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev təqdim etdi. Qanun layihəsi "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə layihəyə uyğun olaraq hazırlanıb və terminologiyanın eyniləşdirilməsi məqsədini daşıyır. Dəyişikliyə görə, əsas anlayışların mənaları göstərilən maddədə "kvalifikasiya" anlayışında dəqiqləşdirmə aparılıb. Yeni varianta əsasən, şəxsin müvafiq standartlara uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik olduğunun dövlət təhsil sənədi ilə təsdiq edilməsinə kvalifikasiya deyilir. Qanun layihəsi ikinci oxunuşda qəbul olundu.

Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Dövlət rüsumu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev tərəfindən təqdim edildi.

Diqqətə çatdırıldı ki, layihə "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1438-VQD nömrəli qanununun icrası məqsədilə hazırlanıb. Belə ki, Mülki Məcəlləyə əsasən, girov və ipoteka eyni hüquqi yükə malik olmaqla, hər ikisi əşya hüquqlarının məhdudlaşdırılmasının formalarıdır. Lakin daşınar əşyalara münasibətdə girov, daşınmaz əşyalara, habelə rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşyalara münasibətdə isə ipoteka termininden istifadə olunur. Bu məqsədlə Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Torpaq Məcəlləsində, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında" və "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlarda "girov" sözünün "ipoteka" sözü ilə əvəz edilməsi təklif olunur. Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verdi. Bildirildi ki, birinci oxunuşda təqdim olunan layihə "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanununun icrası ilə əlaqədar hazırlanıb. Sənədə əsasən, Əmək Məcəlləsinə işçinin hüquqları və işəgötürənin vəzifələri sırasına işçilərin icbari tibbi sığortası ilə bağlı məsələlərin daxil edilməsi nəzərdə tutulub. Dəyişikliyə görə, əmək müqaviləsində həmçinin işçinin icbari tibbi sığortalanması barədə müvafiq məlumatlar əks olunmalıdır.

Ailə Məcəlləsinə təklif olunan dəyişiklikdə nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin maliyyələşdirilməsi "Tibbi sığorta haqqında" qanunun tələblərinə uyğunlaşdırılır. Qanun layihəsi birinci oxunuşda təsdiq edildi.

### Tibbi sığorta ilə əlaqədar olaraq qanunvericilik təkmilləşdirilir

"Hərbi qulluqçuların statusu haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Avtomobil yolları haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Dövlət qulluğu haqqında", "Psixiatriya yardımı haqqında", "Onkoloji yardım haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verdi.

Diqqətə çatdırıldı ki, bu qanun layihəsi də "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli qanunun icrası ilə əlaqədar hazırlanıb. Tibbi sığortaya keçidlə əlaqədar icbari tibbi sığorta olunanlara tibbi yardım xidmətlər zərfində nəzərdə tutulduğu hallarda icbari tibbi sığorta haqları hesabına, digər hallarda isə dövlət büdcəsi hesabına göstəriləcək. Hazırda vətəndaş üçün pulsuz tibbi yardım kimi görünsə də, həmin yardımın dəyəri tibb müəssisəsinə dövlət büdcəsi hesabına ödənilir. Tibbi sığortanın tətbiqi isə tibb müəssisələrinin və tibbi yardımın maliyyələşdirilməsinin qaydasını da dəyişmiş olur.

"Hərbi qulluqçuların statusu haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən, hərbi qulluqçulara tibbi yardımın (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) mülki tibb müəssisələrində icbari tibbi sığorta vəsaitləri hesabına, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularına isə dövlət büdcəsi hesabına göstərilməsi təsbit edilir.

"Əhalinin sağlamlığının qorunması haqqında" qanuna edilən dəyişikliyə əsasən, dövlət tibb müəssisələrində tibbi xidmətin maliyyə mənbələri, eləcə də ayrı-ayrı əhali qruplarının dövlət tibb müəssisələrində tibbi yardım almasının maliyyə əsasları "Tibbi sığorta haqqında" qanuna uyğun olaraq dəqiqləşdirilir.

Nəzərə çatdırılıb ki, özəl tibb müəssisələrinin tibbi sığorta sisteminə qoşulmasından asılı olmayaraq, vətəndaşlara təcili tibbi yardımın göstərilməsi üçün bu xidmətlərin haqqı müəyyən olunmuş tariflərlə icbari tibbi sığorta vəsaitləri hesabına onlara ödəniləcək. Bu da əhaliyə təcili tibbi yardımın istənilən tibb müəssisəsində göstərilməsi imkanını artıracaq.

Sənəddə adları çəkilən digər qanunlarda uyğunlaşdırma, terminologiyanın dəqiqləşdirilməsi məqsədilə dəyişikliklər təklif olunur. Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi (birinci oxunuş) barədə Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verdi. Komitə sədri dedi ki, maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarə edilməsinin təkmilləşdirilməsi haqqında Azərbaycan Prezidentinin sərəncamı ilə maliyyə xidmətləri bazarında, o cümlədən sığorta bazarında tənzimləmə və nəzarət səlahiyyətləri Azərbaycan Respublikasının Mərkəzi Bankına verilib. Buna uyğun olaraq, "Tibbi sığorta haqqında" qanunun 7.2-ci maddəsinə müvafiq dəyişiklik edilib. Dəyişikliyə əsasən, sığortaolunanların könüllü tibbi sığorta ilə bağlı mənafeyini Azərbaycan Respublikasının Mərkəzi Bankı, sığortaçılar, həmkarlar ittifaqı təşkilatları və digər ictimai birliklər müdafiə edir.

Qanuna təklif olunan digər dəyişiklik bəzi maddələrdə "səhiyyə xidməti" sözlərinin "tibbi-sanitariya yardımı" ifadəsi ilə əvəz edilməsi ilə əlaqədardır. Dəyişiklik "Əhalinin sağlamlığının qorunması haqqında" qanuna uyğun olaraq aparılıb. Qanun layihəsi birinci oxunuşda qəbul olundu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan döyüş meydanında Ermənistanı diz çökdürür

## Sülhə nail olmaq istəyənlər İlham Əliyevin şərtlərini mütləq nəzərə almalıdırlar

*Əvvəli 1-ci səh.*

Əlbəttə, Ermənistan kimi dövlətin bu tələbi yerinə yetirməməsi onun öz iradəsindən asılı olmayan məsələdir. İndiyə kimi heç vaxt Ermənistana beynəlxalq səviyyədə təzyiq göstərməyib, ondan BMT-nin qətnamələrini yerinə yetirməsi tələb olunmayıb. ATƏT-in Minsk qrupu yaradıldığı 28 ildə yalnız ikili standartlardan çıxış edib, öz fəaliyyəti ilə əslində status-kvonu dəyişməz saxlayıb.

### Azərbaycan döyüş meydanında olduğu kimi, siyasi müstəvidə də qələbə qazanır

Ötən bir ayda Azərbaycan beynəlxalq hüquqa istinad edərək status-kvonu dəyişdi və sübut etdi ki, işğalçını ən qısa müddətdə torpaqlarından qovmağa qadirdir. Bu dövrdə də Azərbaycan beynəlxalq ictimaiyyətin təzyiqləri ilə üzləşdi. Ayrı-ayrı dövlətlər Ermənistanı xilas etmək üçün dəridən-qabıqdan çıxdılar. Ermənistanın işğalçı siyasətinə göz yuman və öz laqeydlikləri ilə bu işğala rəvac verən ayrı-ayrı beynəlxalq təşkilatlar və dövlətlər Azərbaycanın uğurlu hərbi əməliyyatları başlayandan bəri atəşin dayandırılması, problemin danışıqlar masası ətrafında həlli üçün canfəşanlıq etdilər. Lakin Prezident İlham Əliyev bütün bu təzyiqlərə mətinliklə, qətiyyətlə sinə gərdi, Azərbaycanın haqq işinin qarşısını heç bir qüvvə ala bilmədi. Humanitar atəşkəs razılaşmalarını da Ermənistan pozdu və buna görə hər dəfə layiqli cəzasını aldı.

Bir neçə gün əvvəl BMT Təhlükəsizlik Şurası (TŞ) səviyyəsində Azərbaycana növbəti təzyiqə cəhd edilib. Belə ki, TŞ-nin Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar keçirilmiş qapalı iclasından sonra ATƏT-in Minsk qrupunun həmsədr ölkələri tərəfindən bəyanat layihəsi hazırlanıb və razılaşdırılması üçün üzv ölkələr arasında yayılıb. Lakin layihədə TŞ-nin 1993-cü ildə qəbul etdiyi və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən 822, 853, 874 və 884 saylı qətnamələrinə istinad edilməyib. TŞ-də təmsil olunan Qoşulmama Hərəkatına üzv olan dövlətlər bu qətnamələrə istinadın yer almasını təkid ediblər. Bundan sonra layihənin müəllifi olan həmsədr ölkələr onu geri götürməyə məcbur olublar. Beləliklə, İlham Əliyevin Qoşulmama Hərəkatı çərçivəsində həyata keçirdiyi uzaqgörən siyasi fəaliyyətinin nəticəsi olaraq ermənipərəst dairələrin Azərbaycana təzyiqlərinin beynəlxalq hüquqi qüvvəyə minməsinin qarşısı alınıb. *"Bir sözlə, bu siyasi addım iflasa uğradı, heç bir sənəd qəbul edilmədi və hesab edirəm ki, bu, bizim növbəti siyasi qələbəmizdir. Necə ki, döyüş meydanında biz qələbə qazanırıq, siyasi müstəvidə də qələbə qazanırıq. Düşməni necə ki, döyüş meydanından qovuruq, düşmənin havadarlarının təxribat xarakterli addımlarına da lazımi cavab veririk. Azərbaycan tək deyil, beynəlxalq birlik tərəfindən ərazi bütövlüyümüz tanınır, biz beynəlxalq hüquq normaları çərçivəsində fəaliyyət göstəririk"* - deyə Prezident İlham Əliyev müşavirədə bildirdi.

### Növbəti 17 kənd və 1 şəhər işğaldan azad edildi

Oktyabrın 25-də Prezident İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində şanlı ordumuzun Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndini və Qubadlı şəhərini işğalçılardan azad etdiyini xalqa çatdırdı. Oktyabrın 26-da xalqa müraciətində isə dövlət başçısı Zəngilanın Birinci Alıbəyli, İkinci Alıbəyli, Rabənd, Yenikənd, Cəbrayılın Qovşudlu, Sofulu, Dağmaşanlı, Kürdlər, Hovuslu, Çələbilər və Qubadlının Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq və Mollabürhan kəndlərinin işğaldan azad olunduğunu bəyan etdi.

Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib. *"Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndləri və Qubadlı şəhəri işğaldan azad edildi! Bu münasibətlə bütün xalqımıza səmimi təbriklərimi çatdırıram! Hər bir yeni qələbənin əldə edilməsi əsgərlərimizin qəhrəmanlığı, şücaəti, cəsarəti, igidliyi və mətanəti sayəsində mümkün olur. Onların hər birinə hədsiz dərəcədə minnətdaram! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"*, - deyə Mehriban Əliyeva yazıb.

Beləliklə, azad olunmuş şəhər və kəndlərimizin sırasına daha 18-i əlavə olundu. Sentyabrın 27-dən indiyədək 173 yaşayış məntəqəsi, o cümlədən Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı şəhərləri, Hadrut, Mincivan və Ağbənd qəsəbələri işğaldan azad edilib. 166 kənd isə Füzuli, Cəbrayıl, Zəngilan, Xocavənd, Tərtər və Qubadlı rayonlarını əhatə edir.

Prezident İlham Əliyev xalqa müraciətində bir daha bəyan etdi ki, Azərbaycan beynəlxalq hüquqdan kənar heç bir addım atmır, Ermənistanın torpaqlarına girmir: *"Ermənistan torpağına girmirik, beynəlxalq birlik tərəfindən tanınmış torpaqlarımızı bərpa edirik. Əgər BMT Təhlükəsizlik Şurasının daimi üzvləri, Minsk qrupunun həmsədrləri bunu edə bilməyiblərsə, çəkilsinlər kənara, mane olmasınlar. Ermənistandan fərqli olaraq biz heç kimdən kömək istəmirik. Mane olmasınlar və Azərbaycan xalqının səbri ilə oynamasınlar. Sabah bu müharibə qurtaracaq, biz istədiyimizə nail olacağıq. Bəs necə olacaq bizim münasibətlərimiz? Azərbaycan xalqı bu haqsızlığı unudacaqmı? Unutmayacaq. Bunu bir fikirləşsinlər. Azərbaycan indi o dövlət deyil ki, onun maraqlarını kimsə kənara qoya bilər".*

Azərbaycan bu gün öz haqqını ləyaqətlə təmin edir, özünün şərəfli tarixini yazır. Dövlət başçısının qeyd etdiyi kimi, Ermənistan döyüş meydanında artıq bizim qabağımızda diz çöküb. Azərbaycanın uğurları fonunda isə ayrı-ayrı dövlətlərin ermənipərəstliyi daha aydın görünür. Lakin artıq vəziyyət dəyişib, status-kvo dəyişib, təmas xətti yoxdur. Azərbaycan Ordusunun qarşısında Ermənistanın duruş gətirməsi mümkün deyil. Ona görə sülhə nail olmaq istəyənlər Azərbaycanın şərtlərini mütləq nəzərə almalıdırlar.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

# <u>*İqor KOROTÇENKO:*</u> "Azərbaycan Ordusu yaxşı təchiz olunub, o, layiqli rəqib və regionda ən yaxşı ordudur"

"Cəbhədə vəziyyət ən azı indiki vaxtda Azərbaycanın xeyrinədir. Bu onu göstərir ki, Bakının orduya, müdafiəyə çəkdiyi xərclər əbəs deyildi". AZƏRTAC xəbər verir ki, bu barədə "Pravda.ru" nəşrinə hərbi ekspert, "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko söhbət açıb.



O, birinci Qarabağ müharibəsindən danışaraq xatırladıb ki, o vaxt Azərbaycanda hakimiyyətə Xalq Cəbhəsi gəlmişdi. Ekspert deyib: "Əlbəttə, sərt mərkəzləşdirilmiş hakimiyyətin yoxluğu şəraitində o dövr üçün səfərbərlik və döyüş əməliyyatlarının düzgün idarə edilməsini həyata keçirmək mümkün olmadı. Ermənistan isə bizdə Müdafiə naziri vəzifəsinə Pavel Qraçov təyin olunduqdan sonra ciddi dəstək qazandı. Qraçov Ermənistana rəğbət bəsləyirdi, qəbul edilən müəyyən qərarlara müvafiq olaraq, Ermənistan öz ərazisində yerləşən hərbi hissələrdəki texnikanın bir hissəsinə sahib oldu, digər hissəni isə anbarları çapıb talayaraq öz əlinə keçirdi".

İ.Korotçenkonun fikrincə, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda vəziyyət düzəldi. Rusiyalı ekspert deyib: "Heydər Əliyev tanınmış sovet dövlət xadimi, Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, vaxtilə Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinə rəhbərlik etmiş yüksək hazırlıqlı, iradəli, sərt və sözübütöv siyasətçi idi. Prezident Heydər Əliyev Azərbaycan Ordusunu bərpa etməyə, faktiki olaraq sıfırdan yaratmağa başladı. Çünki Xalq Cəbhəsi özündən sonra çox acınacaqlı miras qoymuşdu. Artıq İlham Əliyev hakimiyyətə gələndə o, iri infrastruktur neft-qaz layihələrini həyata keçirməyi bacardı, bu layihələr əhəmiyyətli həcmdə valyuta gəlirləri gətirməyə başladı. Bu vəsaitlər hesabına bütün Azərbaycan inkişaf edirdi, lakin böyük təxsisatlar məhz orduya yönəldilirdi. Ona görə də bugünkü Azərbaycan Ordusu yaxşı təchiz olunub, o, layiqli rəqib və regionda ən yaxşı ordudur, dünyanın ən yaxşı 50 ordusu sırasındadır".

# Prezidentin köməkçisi "Al Jazeera" kanalına müsahibə verib

Azərbaycan Respublikası Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Al Jazeera" kanalına müsahibə verib.




AZƏRTAC xəbər verir ki, Ermənistanın hərbi təxribatları barədə danışan Prezidentin köməkçisi deyib ki, sentyabrın 27-də baş vermiş hadisələrə geniş vaxt çərçivəsində baxılmalıdır. 27 sentyabr hadisələri gözlənilmədən baş vermiş adi hadisələr deyil. Azərbaycan Ermənistanın belə hücum edəcəyini gözləyirdi. Belə ki, iyul ayında Azərbaycan-Ermənistan dövlət sərhədində yerləşən Azərbaycanın Tovuz rayonunda bir hadisə baş verdi. Bu, Ermənistan silahlı qüvvələrinin törətdiyi adi hadisə deyildi. Bu, Azərbaycan Silahlı Qüvvələrinə qarşı qabaqcadan planlaşdırılmış hərbi əməliyyat idi. Məqsəd Azərbaycanın mühüm logistika yollarına nəzarəti ələ keçirmək üçün strateji yüksəklikləri ələ keçirmək idi.

Bundan sonra erməni təxribatçı qruplarının aktivləşdiyini gördük. Ermənistan silahlı qruplaşmalarının sayı təmas xətti boyu artırıldı. Ermənistan silahlı qüvvələrinin bu şəkildə təmərküzləşməsi və aktivləşməsi onu göstərirdi ki, Ermənistan bizə qarşı hücum planı hazırlayıb. Ermənistanın baş naziri Paşinyan demişdi ki, "Qarabağ Ermənistandır". Bu, o deməkdir ki, ATƏT-in vasitəçiliyi ilə aparılan danışıqlar və irəli sürülən təşəbbüslər uğursuzluğa düçar olacaq. Ermənistanın müdafiə naziri isə yeni hərbi doktrina qəbul etdiklərini və güc tətbiqi ilə yeni ərazilər əldə edəcəklərini bildirmişdi. Bu, o deməkdir ki, onlar Azərbaycanda yeni torpaqlar ələ keçirməyi planlaşdırırlar. Onlar düşünürdülər ki, beləliklə, işğal etdikləri torpaqlarımızda özlərinin təhlükəsizliyini təmin etmiş olacaqlar. Ermənistanın baş qərargah rəisinin müavini 2018-ci ildə verdiyi bəyanatda bildirmişdi ki, ölkəsinin silahlı qüvvələri Azərbaycanda mülki obyektləri hədəf seçəcək, onların vurulması strateji hədəf və tələbdir. Beləliklə, aydın görünür ki, Ermənistanın sentyabrın 27-də başladığı hücum əvvəlcədən planlaşdırılıb. Azərbaycan da əks-hücum əməliyyatı həyata keçirməyə məcbur oldu.

ABŞ-ın problemin həllində iştirakı ilə bağlı suala cavabında Prezidentin köməkçisi qeyd edib ki, Birləşmiş Ştatlar ATƏT-in Minsk qrupunun həmsədrlərindən biridir. ABŞ bizə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüş təklifini verdi. Azərbaycan belə təklifləri heç vaxt rədd etmir. Azərbaycan 30 il ərzində səbir və gözləmə siyasəti aparıb, danışıqlar aparmağı müharibədən üstün tutub, bu danışıqlara töhfə verib. Lakin danışıqlar nəticəsiz qalıb. Çünki Ermənistan işğal siyasətindən əl çəkmək istəmir.

Türkiyənin bu məsələdə iştirakı ilə bağlı sualı cavablandıran Hikmət Hacıyev Ermənistanın bununla əlaqədar qaralama kampaniyası apardığını diqqətə çatdırıb. O deyib ki, Azərbaycanla Türkiyə arasında qardaşlıq münasibətləri, eyni zamanda, müştərək strateji dəyərlər var. Türkiyə bu müharibədə iştirak etməyib və buna ehtiyac da yoxdur. Azərbaycan Silahlı Qüvvələri hərbi əməliyyatları öz imkanları ilə uğurla yerinə yetirir. Ermənistan qəbul etsə də, etməsə də Türkiyə danışıqlar masasında iştirak edir. 1992-ci ildə fəaliyyətə başlamış ATƏT-in Minsk qrupuna 11 üzv dövlət daxildir. Üç dövlət - ABŞ, Rusiya və Fransa Minsk qrupuna həmsədrlik edir. Türkiyə 1992-ci ildən bəri qrupa üzv dövlətlər arasındadır. Türkiyə Azərbaycanla sıx əlaqələri olan dövlətdir. Həmçinin Türkiyə region ölkələrindəndir, Cənubi Qafqaz coğrafiyasına aid dövlətdir. Cənubi Qafqazdakı problemlər, oradakı müharibələr Türkiyənin təhlükəsizliyinə də təsir edir. Buna görə də qardaş Türkiyənin müharibədən sonrakı mərhələdə daha fəal iştirakında israr edirik. Ermənistan buna etiraz etsə də, bu vacibdir.

Münaqişənin həllində Rusiya-Türkiyə-İran vasitəçiliyi formatında danışıqlara dair təkliflə bağlı suala cavabında Prezidentin köməkçisi deyib ki, Minsk formatı qalır, onu ləğv etmək və ya dayandırmaq niyyətimiz yoxdur. Lakin biz bu prosesi daha da inkişaf etdirmək istəyirik. Bütün müharibələrdə görünüb ki, region ölkələrinin prosesdə iştirakı faydalıdır. Başa düşürük ki, İran, Rusiya, Türkiyə baş verən hadisələrin ölkələrinə təsirindən çəkinirlər. Ona görə də Minsk qrupu ilə paralel olaraq, bizimlə yaxşı əlaqələri olan İran, Rusiya və Türkiyənin iştirakı ilə başqa qrupların fəaliyyəti faydalı ola və Cənubi Qafqazda möhkəm sülhün yaranmasına gətirib çıxara bilər.

Hikmət Hacıyev qeyd edib ki, Ermənistan Azərbaycan torpaqlarını hərbi yolla, beynəlxalq hüquqa və qanunlara məhəl qoymadan ələ keçirib. Ermənistan işğal etdiyi ərazilərdə bəşəri cinayətlər və qırğınlar, eləcə də etnik təmizləmə törədib. Bu azmış kimi, işğal etdikləri ərazilərdə Azərbaycan xalqının mədəni və dini abidələrini dağıdıb. Onlar məscidlərimizi dağıdıblar. İslama aid dəyərli nə varsa, hamısını hədəfə alıblar. Azərbaycan torpağı olan Dağlıq Qarabağla yanaşı, ətraf 7 rayon da Ermənistan tərəfindən işğal edilib. Ermənilər 700 min azərbaycanlını bu rayonlardan didərgin salıblar. Həmçinin Dağlıq Qarabağdan da azərbaycanlılar qovulublar. Bu köçkünlərin sayına Ermənistandan qovulan azərbaycanlı qaçqınların sayını da əlavə etsək 1 milyon nəfər edir. Bütün danışıqlarımızda ilk olaraq Dağlıq Qarabağın ətrafındakı rayonlarımızın işğaldan dərhal azad edilməsini tələb etmişik. Lakin Ermənistan bunu rədd edib. Otuz ildir ki, Ermənistan Azərbaycanın bu rayonlarını qaytarmamaq üçün prosesi uzadıb. Razı idik ki, işğal addım-addım bitsin, məcburi köçkünlər geri qayıtsın. Lakin Ermənistan qəti şəkildə bununla razı olmadı. Çünki o, bu ərazilərin ilhaqına cəhd edir.

"Azərbaycan bu problemin həlli üçün nəyi güzəştə gedə bilər?" sualını cavablandıran Prezidentin köməkçisi qeyd edib ki, bizim qırmızı xətlərimiz var. Bu, bütün dünya dövlətlərinə də aiddir. Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır. Bu, bütün dünyada qəbul edilən məsələdir, hər bir xalq və dövlət üçün müqəddəs məsələdir. Ərazimizin heç bir hissəsini güzəştə gedə bilmərik. Bütün dövlətlərin ərazi bütövlüyünə hörmət etmək lazımdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Lakin Qarabağ və ətraf rayonların işğalı problemi var. Birinci hədəfimiz işğala son qoymaqdır. Ermənistan silahlı qüvvələri işğal olunmuş bütün ərazilərimizdən çıxmalıdır və azərbaycanlı köçkünlər, həmçinin Dağlıq Qarabağa geri qayıtmalıdır. Onların sayı 80 min nəfərdən çoxdur. Lakin bu, Dağlıq Qarabağın erməni əhalisinin hüquqlarının pozulması da demək deyil. Onlar burada qalmalıdırlar. Onlar azərbaycanlılarla birlikdə yaşaya biləcəklər. Onların yaşayışı təmin ediləcək. Elə yol tapa bilərik ki, onlar öz işlərini özləri də idarə edə bilərlər. Qarşılıqlı razılıq əsasında özünüidarə formasına da nail olmaq mümkündür. Dünyada buna oxşar nümunələr vardır. Biz bu nümunələrə baxa bilərik. Lakin Ermənistan bunu qəbul etməlidir. Ermənistan bunu qəbul etmir. Onun aydın hədəfi budur ki, işğal etdiyi ərazilərə azərbaycanlıların qayıtmasını əngəlləsin və əraziləri ilhaq etsin.

Humanitar atəşkəsin pozulması ilə bağlı suala münasibət bildirən Hikmət Hacıyev, ilk növbədə, qeyd edib ki, bu atəşkəsi digər atəşkəsdən fərqləndirən cəhət var. Humanitar atəşkəs zamanı humanitar fəaliyyətlər həyata keçirilir, əsgərlərin cəsədlərinin dəyişdirilməsi prosesi baş verir. Buna Azərbaycan müsbət cavab verib. Lakin Ermənistan vədlərinə sadiq qalmayıb. Oktyabrın 11-də Moskvada humanitar atəşkəslə bağlı bəyanat verildi. Ertəsi gün Ermənistan Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəni "Skad" raketi ilə vurdu. Burada 500 min insan yaşayır. Bu, o deməkdir ki, Ermənistan mülki əhalinin sıx yaşadığı yaşayış məskəninə atəş açıb. Bu, o deməkdir ki, Ermənistan humanitar atəşkəsi pozub. Ondan sonra ikinci dəfə humanitar atəşkəs elan edildi. Ermənistan bunu da pozdu. İkinci humanitar atəşkəs elan ediləndən 2 dəqiqə sonra Ermənistan ordusu Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutdu. Onlara necə etibar etmək olar?! Onlar ikinci dəfə də Gəncə şəhərini "Skad" raketi ilə vurdular, nəticədə 14 mülki şəxs öldü və 40-dan çox insan yaralandı. İndiyədək 60-dan çox mülki azərbaycanlı öldürülüb. Döyüşlər başlayandan bəri 250 mülki şəxs yaralanıb. Bu, o deməkdir ki, Ermənistan humanitar məqsədli atəşkəsdə maraqlı deyil. Əksinə, bundan istifadə edərək vaxt qazanmaq, yenidən qruplaşmaq, yeni hücumlara hazırlaşmaq istəyir.

Jurnalistin Ermənistanın mülki şəxslərə hücumlar etdiyini inkar etməsinə dair sualına cavabında Hikmət Hacıyev deyib ki, bu, şərəfsizlikdir. Bu qədər mülki insanı öldürəsən, sonra deyəsən ki, bunu mən etməmişəm. Doğrudan da bu, şərəfsizlikdir. Erməni hərbçiləri həmişə döyüş meydanında məğlub olanda deyirdilər ki, onlar mülkiləri hədəf alacaqlar. Onlar bunu etdilər. Əgər raketin haradan atıldığını xatırlaya bilmirlərsə, onlara bunun Ermənistan ərazilərindən atıldığını göstərə bilərik - Ermənistanın Vardenis şəhərindən atılıb. Onun əsl adı Basarkeçərdir. Vaxtilə oranın əhalisinin çoxu azərbaycanlılar olub. Əgər bunu Ermənistan atmayıbsa, bəs kim edib? Azərbaycanda bu silahlar yoxdur. Bəs haradan gəldi bu raket?! Radarlar və müasir texnologiya ilə onun haradan gəldiyini görmək və qeydə almaq mümkündür. Mən əminəm ki, təkcə Azərbaycan deyil, həm də qonşu dövlətlərin radarları raketin atıldığı və düşdüyü yeri qeydə alıblar. Məqsəd də çoxlu sayda mülki şəxsi öldürmək olub.

Prezidentin köməkçisi qeyd edib ki, Ermənistandan fərqli olaraq Azərbaycan Ordusu heç vaxt mülki şəxsləri hədəfə almır. Xankəndi və başqa şəhərlərə baxsaq, görərik ki, Ermənistan ordusu atəş nöqtələrini, hərbi obyektləri insanların yaşadıqları yerlərdə qoyurlar, oradan da Azərbaycanı hədəfə alırlar. Bu, terrorçuların istifadə etdikləri üslubdur. Xankəndidə erməni ordusunun üç əsas nöqtəsi var idi. Azərbaycan şəhərlərinə oradan raket atırdılar. Azərbaycan Ordusu həmin hərbi hədəfləri məhv etdi. Ola bilər ki, orada mülkilər arasında itkilər olsun. Lakin bu, məqsədli şəkildə edilməyib. Ermənistandan fərqli olaraq, Azərbaycan erməniləri məqsədli şəkildə bilərəkdən hədəfə almır.

Ermənistan tərəfinin Azərbaycanı Dağlıq Qarabağın müstəqilliyinin tanınması ilə təhdid etməsinə münasibət bildirən Prezidentin köməkçisi qeyd edib ki, Dağlıq Qarabağın müstəqilliyinin tanınması ilə bağlı heç bir siyasi, hüquqi, tarixi əsas və sənəd yoxdur. Qarabağ tarixən Azərbaycan torpağıdır. Hüquqi baxımdan beynəlxalq aləm Qarabağı Azərbaycan torpağı hesab edir. Siyasi baxımdan bu addım ədalətli ola bilməz. Hətta Ermənistanın özü belə Dağlıq Qarabağın müstəqilliyini tanımayıb. Tanıya bilmir. Bu addımın atılması bütün danışıqların sona çatması deməkdir.

Azərbaycana xaricdən döyüşçülərin gətirilməsi ilə bağlı iddialara dair sualı cavablandıran Prezidentin köməkçisi Azərbaycanın bunu qəti şəkildə rədd etdiyini bildirib. Xaricdən döyüşçüləri gətirib müharibədə istifadə etmək - Azərbaycanın siyasətində belə bir şey yoxdur. Azərbaycanın nizamlı, peşəkar ordusu var. Azərbaycan Ordusu qarşıya qoyulmuş vəzifələri uğurla yerinə yetirə bilir. Xaricdən döyüşçülərin Azərbaycana gətirilməsi iddialarını irəli sürənlər konkret bir şey demirlər, ümumi şəkildə "Qarabağda xarici muzdlular var" deməklə kifayətlənirlər. Əksinə, erməni tərəfindən xüsusilə Suriya və Livandan gətirilən muzdlular var. Ermənistan onları Azərbaycan Ordusuna qarşı döyüşlərdə istifadə edir. Həmçinin Avropa ölkələrinin, Kanada, ABŞ kimi ölkələrin erməni əsilli vətəndaşları da onlar tərəfindən vuruşurlar. Ermənistanın terrorçu PKK silahlılarından da istifadə etdikləri barədə məlumatlarımız var. Azərbaycan kiçik dövlətdir. Əgər burada muzdlular olsaydı, hamı bunu bilər və bu barədə eşidərdi. Heç kim muzdluları görməyib və bu barədə eşitməyib. Hesab edirəm ki, bu iddialar Ermənistanın qara təbliğatının bir hissəsidir. Ermənilər qəbul edə bilmirlər ki, onların qarşısında duran, onları məğlub edən Azərbaycan Ordusudur. Türkiyə Ordusunun da bu müharibədə iştirak etməsi ilə bağlı iddialar tamamilə yalandır. Türkiyə bizə mənəvi, diplomatik və siyasi dəstək verir. Bu müharibədə üçüncü tərəf yoxdur. Azərbaycan Ordusu ölkəmizin ərazisini azad etmək üçün vuruşur.

## *Hikmət HACIYEV:* "Euronews"un çəkiliş qrupunun Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmasını kəskin pisləyirik"

Azərbaycanın işğaldan azad edilmiş Talış və Suqovuşan kəndlərində peşəkar jurnalist fəaliyyətini həyata keçirən "Euronews"un çəkiliş qrupunun və onların istifadə etdiyi nəqliyyat vasitəsinin Ermənistan silahlı qüvvələri tərəfindən kornet tipli tank əleyhinə raketlə atəşə tutulmasını kəskin şəkildə pisləyirik.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib: "Ermənistanın bu hücumunu azad sözə və peşəkar jurnalistikaya təcavüz kimi qiymətləndiririk. Xoşbəxtlikdən raket hədəfdən yayınıb, çəkiliş qrupu xəsarət almayıb. Nəqliyyat vasitəsinə qəlpələrlə zərər dəyib. Üzərində "Euronews"un uzaq məsafədən seçilən fərqləndirici nişanı olan nəqliyyat vasitəsinə tank əleyhinə idarəolunan raket vasitəsilə hücum hədəfli və məqsədyönlü xarakter daşıyıb. "Euronews"un reportajında raketin hərəkətdə olan nəqliyyat vasitəsinin üzərindən yaxın məsafədən keçdiyi aydın şəkildə görünür (https://vimeo.com/472347741).

Bundan əvvəl Azərbaycan media nümayəndələri də Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulub, jurnalistlər arasında yaralananlar olub, çəkiliş qruplarının nəqliyyat vasitələrinə zərər dəyib.

Azərbaycan tərəfdən hərbi əməliyyatlar barədə reportajlar hazırlayan beynəlxalq media nümayəndələri öz ölkələrinə qayıtdıqda belə erməni lobbi dairələrinin verbal və fiziki hücumları, şantajları və təhdidləri ilə üzləşirlər. Bəzi hallarda erməni lobbisinin təzyiqləri altında peşəkar fəaliyyətini həyata keçirən jurnalistlər işlərini itirməli olurlar. Fransanın TF1 televiziya kanalına və onun Azərbaycandan reportaj hazırlamış çəkiliş qrupuna Fransadakı erməni lobbisi tərəfindən olan hücumlar bunun bariz nümunəsidir.

Hazırda Azərbaycanda 70-dən artıq beynəlxalq media nümayəndəsi fəaliyyət göstərir. Cəbhədəki əməliyyat şəraitinə uyğun olaraq onların cəbhədən reportajlar hazırlamasına və öz peşəkar fəaliyyətini həyata keçirməsinə imkan yaradılır".

## *Elçin ƏMİRBƏYOV:* "Azərbaycan bu gün öz gücü ilə tarixi ədaləti bərpa edir"

Azərbaycan bu gün öz gücü ilə tarixi ədaləti bərpa edir. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov "Al Jazeera" televiziya kanalının xəbərlər proqramının birbaşa efirində deyib.



Ermənistanın növbəti, üçüncü dəfə Vaşinqtonda görüşlər nəticəsində elan edilən humanitar atəşkəs rejimini kobud şəkildə pozduğunu xəbər verən Elçin Əmirbəyov bildirib ki, Azərbaycan tərəfi Yerevanın bu dəfə öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirəcəyini o qədər də güman etmirdi.

E.Əmirbəyov deyib: "Paşinyan döyüş əməliyyatlarının real şəkildə dayandırılması addımını ata bilməz, çünki müharibədən sonra "toz yatacaq" və döyüş meydanında alçaldıcı darmadağına məruz qalan Ermənistan Paşinyandan sentyabrın 27-də başlatdığı hərbi avantüranın bütün haqq-hesabını tələb edəcək. Paşinyan özü və onun ətrafındakılar labüd ölümə, yad torpaqlar uğrunda vuruşmağa göndərdikləri minlərlə erməni hərbçisinin ata və analarına da cavab verməli olacaqlar".

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi sözünə davam edərək bildirib ki, məhz bu səbəbdən Paşinyan hər dəfə vasitəçilərdən növbəti atəşkəs rejimini yalvar-yaxarla alır, lakin o, bunu sülhə nail olmaq məqsədilə deyil, rəşadətli Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərə nəzarəti qaytarmaq kimi illüziyalı məqsədlərlə, özünün yerdə qalan dəstələrinin yenidən qruplaşdırılması, yeni silah-sursat və texnika partiyasının daşınması üçün fasilədən istifadə etmək məqsədilə edir. Bununla bərabər, erməni hərbçilər xüsusi olaraq dinc azərbaycanlı mülki əhaliyə raket və artilleriya hücumları edir. Bu hücumlar nəticəsində artıq 65 nəfər həlak olub, 300-dən çox insan yaralanıb.

"Bu vəziyyətdə Bakı münaqişənin nizamlanmasını necə görür" sualına cavabında E.Əmirbəyov vurğulayıb ki, Azərbaycan münaqişənin sülh yolu ilə nizamlanmasına tərəfdardır, lakin onun əsas məqsədi Azərbaycan Respublikasının ərazi bütövlüyünün beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində tezliklə bərpasıdır. Bundan ötrü yalnız iki yol var. Birincisi, Ermənistan dərhal atəşi dayandırır, onun rəhbərliyi isə Azərbaycanın işğal altında ərazilərindən özünün bütün silahlı qüvvələrinin çıxarılması öhdəliyini açıq şəkildə öz üzərinə götürür və bununla bağlı qısa müddətdə qoşunların çıxarılması qrafiki bizimlə razılaşdırılır. Daha sonra tərəflər siyasi nizamlanmanın bütün digər aspektləri üzrə konkret danışıqlara keçir. İkinci yol - Ermənistan döyüş meydanında mənasız qarşıdurmanı davam etdirir, vasitəçilərin tərəfləri sülh danışıqları yoluna qaytarmaq cəhdlərini əvvəlki kimi rədd edir və beləliklə, Azərbaycanı öz sərəncamında olan legitim qeyri-diplomatik vasitələrlə son məqsədinə çatmağa məcbur edir. Seçimi Paşinyan etməlidir, lakin onun vaxtı o qədər də çox deyil.

## *Qafqaz Müsəlmanları İdarəsinin sədri:* "Erməni kilsəsi öz aqressiv münasibətini və qızışdırıcı fəaliyyətini davam etdirməkdədir"

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Ermənistan katalikosu II Qareqinin kilsə adından xalqı və hətta uşaqları belə ölümə qədər hərbi savaşa çağırması ilə əlaqədar bəyanat verib. QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatın mətnini təqdim edirik:



"Təcavüzkar Ermənistan rejimi 2020-ci ilin iyul ayından etibarən yeni hərbi təxribatlara əl ataraq Azərbaycanın Dağlıq Qarabağ və onun ətrafındakı ərazilərimizdə, həm də Ermənistan ilə dövlət sərhədində yerləşən yaşayış məntəqələrimizi və mülki əhalimizi hədəfə götürmüşdür. 30 ilə yaxın müddətdə ATƏT çərçivəsində danışıqlar prosesinin əməli nəticə verməməsi, BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin yerinə yetirilməməsi və Ermənistanın son hərbi təcavüzü xalqımızın səbrini tükətmişdir və Azərbaycan öz suveren hüququndan istifadə edərək ərazi bütövlüyünü bərpa etmək və beynəlxalq birlik tərəfindən tanınmış ərazilərini işğaldan azad etmək üçün mübarizəyə qalxmışdır.

Rusiyanın və ABŞ-ın vasitəçiliyi ilə Moskvada və Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin iştirakı ilə keçirilmiş görüşlərdə müvəqqəti humanitar atəşkəs haqqında müvafiq razılaşmalar əldə olunmuşdur. Lakin faktlar onu göstərir ki, Ermənistan heç də sülhə meyilli deyil və atəşkəsdən sui-istifadə edərək öz həqiqi qəsbkar niyyətlərini nümayiş etdirməkdədir. Belə ki, Ermənistan göstərilən razılaşmalarından dərhal sonra BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və 1949-cu il Cenevrə konvensiyalarını kobud şəkildə pozaraq öz hərbi cinayətlərini və vandalizm aktlarını davam etdirməkdə və Azərbaycanın hərbi əməliyyatların baş verdiyi bölgədən yüz kilometr aralıda yerləşən yaşayış məntəqələrini ağır artilleriya ilə raket atəşinə tutmaqda davam edir. Bunun nəticəsində, sentyabrın 27-dən bugünədək Ermənistan ərazisindən Azərbaycanın şəhər və yaşayış məntəqələrinin, o cümlədən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin atəşə tutulması nəticəsində azyaşlı uşaqlar daxil olmaqla 65 dinc sakinimiz həlak olmuş, 297 nəfər yaralanmış, 2243 fərdi ev, 90 çoxmənzilli yaşayış binası, 402 mülki obyekt dağıdılmış, iki valideynini itirən uşaqlar var.

Münaqişə başlanan zamandan bugünədək təcavüzkar Ermənistan sivil əhalimizə qarşı terror tətbiq edərək işğal olunmuş ərazilərimizdə Azərbaycanın öz rəngarəngliyi ilə fərqlənən mədəni və mənəvi irsinə aid olan məbədlərimizi, qəbiristanlıqlarımızı, tarixi abidələrimizi, muzey və kitabxanalarımızı darmadağın etmişdir. Bununla kifayətlənməyən qəsbkar erməni ekstremistlər əsarətdə qalan məscidlərimizi tövləyə çevirərək, İslam dinində haram sayılan heyvanların saxlanılması kimi misli görünməmiş vandal həqarətli əməllərindən belə çəkinməmişlər. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində yüzlərlə məscid, məbəd və kilsələr, minlərlə məzarlıq, 706 tarixi abidə və muzey, 927 kitabxana, 1107 təhsil müəssisəsi, 40 min muzey eksponatı dağıdılmış və talan edilmişdir.

Bütün bunlara baxmayaraq, Azərbaycan dövləti və ictimaiyyəti daim münaqişənin sülh yolu ilə həllinə, müxtəlif səviyyələrdə, o cümlədən dini müstəvidə danışıqlar prosesinə tərəfdar olmuşdur. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində dini liderlərin üçtərəfli Möntre, Rostov, Moskva, Tbilisi, Yerevan, Bakı görüşləri münaqişənin dini müstəviyə keçməsinə yol verməmək məqsədlərini daşımışdır.

Təəssüflə qeyd olunmalıdır ki, bizim hər zaman münaqişənin sülh yolu ilə ədalətli həllinə səy göstərməyimiz müqabilində qarşı tərəf, xüsusilə də erməni kilsəsi öz aqressiv münasibətini və qızışdırıcı fəaliyyətini davam etdirməkdədir. Belə ki, bir neçə gün əvvəl bütün Ermənistan katalikosu II Qareqinin son müraciəti, kilsə adından xalqı və hətta uşaqları belə ölümə qədər hərbi savaşa çağırması dini lider olaraq ona başucalığı gətirmir və münaqişəyə dini don geyindirmək, daha böyük fəlakətlərə səbəb ola biləcək xristian-müsəlman qarşıdurması kimi təqdim etmək niyyətlərinə xidmət edir.

Din xadiminin ən ümdə mənəvi borcu insan həyatını qorumaq, ədalətə söykənməkdir. II Qareqin deyir ki, hazırkı müharibəyə onları Azərbaycan vadar etmişdir. Sual verirəm - Azərbaycan sizi öz ərazilərində müharibəyəmi çağırmış və ya torpaqlarınızamı göz dikmişdir? Erməni dini lideri bildirir ki, Qarabağ heç zaman Azərbaycan tərkibində ola bilməz. Bu din xadiminin təcavüzə bəraət qazandırması və xalqları qarşıdurmaya sövq etməsi deyilmi? Sual olunur - on minlərlə erməni vətəndaşının bu gün də Azərbaycanda əmin-amanlıq şəraitində yaşadığını, Bakının mərkəzində yerləşən, bərpa edilən və abad şəkildə qorunan erməni kilsəsini və kitabxanasını nə tez unutdunuz? Bunun əksi olaraq, Ermənistanda və işğal olunmuş Azərbaycan ərazilərində mədəni-mənəvi irsimizin məhv edilməsi, bir nəfər belə azərbaycanlının qalmaması sizin etnik təmizləmə və vandalizm siyasətinizin bariz nümunəsi deyilmi?

Erməni kilsəsi bizi düşmən adlandıraraq beynəlxalq birliyi "bu vəhşilikdən qurtarmağa" çağırır. Sual olunur - öz torpaqlarını qəsbkarlardan azad etmək nə vaxtdan vəhşilik adlanır, yoxsa Azərbaycan ərazilərində, Xocalıda, Gəncədə, Tərtərdə dinc əhaliyə qarşı törətdiyiniz vəhşilikər Qareqinin dediyi kimi, "vətən və dövlətçiliyin qorunması üçün" tarixə qanlı hərflərlə yazılmışdır?

Bütün dünya bilməlidir, hazırkı hərbi qarşıdurma Azərbaycan ərazilərində baş verir. Biz öz haqq işimizdə hər hansı dinə və millətə qarşı deyilik, heç bir ölkəyə təcavüz etməmişik və Qarabağda yaşayan erməniləri düşmən deyil, öz vətəndaşımız hesab edirik. Biz, liderimiz İlham Əliyevin ətrafında sıx birləşərək işğal olunmuş öz əzəli torpaqlarımızı qəsbkarlardan azad etdikdən sonra ermənilərlə birgə yaşamaq, Qarabağımızı inkişaf etdirmək və firavan məkana çevirmək əzmindəyik.

Biz Vətənimiz Azərbaycanda sülhə və əmin-amanlığa nail olunması üçün bu niyyətlərimizdə bütün dünya birliyinin dəstəyinə ümid edirik!"

## *Prezidentin köməkçisi:* "Azərbaycan Silahlı Qüvvələri düşmənə döyüş meydanında layiqli cavab verir və bundan sonra da verəcək"

Ermənistan tərəfi döyüş bölgəsində qalan hərbçilərinin cəsədlərinə sahib çıxmaqdan imtina edir. AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oktyabrın 27-də keçirilən brifinqdə deyib.



Prezidentin köməkçisi bildirib ki, Azərbaycan birtərəfli qaydada cəsədlərin qaytarılmasına razılıq verdiyi halda, Ermənistan tərəfi buna razılıq verməyib.

Hikmət Hacıyev vurğulayıb ki, Ermənistandan fərqli olaraq, Azərbaycan mülki insanlara atəş açmır. Ermənistan silahlı qüvvələrinin mülki əhalini hədəf seçməsi cinayət əməlidir. Azərbaycan Silahlı Qüvvələri düşmənə döyüş meydanında layiqli cavab verir və bundan sonra da verəcək.

Prezidentin köməkçisi həmçinin bildirib ki, Ermənistan sərhəd zonalarında da təxribatlara əl atır. Sərhədin əks istiqamətindən Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücumlar həyata keçirilir. Bu da Azərbaycan Silahlı Qüvvələrini vadar edir ki, əks-həmlə tədbirləri həyata keçirsin. Ermənistan Azərbaycanın sərhədlərinə hörmət etməlidir.

## *Hikmət HACIYEV:* "Ermənistanın kasetli bombalardan istifadə etməsi mülki əhali arasında itkinin çox olmasına hesablanıb"

"Ermənistan ordusu humanitar atəşkəsi kobud şəkildə pozaraq Azərbaycan ərazilərini, mülki vətəndaşları atəşə tutmaqda davam edir. Bu, onu göstərir ki, Ermənistan tərəfinin humanitar atəşkəs barədə dedikləri riyakarlıqdan başqa bir şey deyil". AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev oktyabrın 27-də keçirilən brifinqdə bildirib.

Prezidentin köməkçisi deyib ki, Ermənistan silahlı qüvvələri bu gün Azərbaycanın Bərdə və Tərtər şəhərlərini "Smerç" raketindən atəşə tutub. Onların bu terror aktı nəticəsində biri uşaq olmaqla dörd mülki vətəndaş həlak olub, xeyli sayda insan yaralanıb. Ermənilər beynəlxalq qanunlara zidd olaraq Azərbaycan mülki əhalisinə qarşı kasetli bombalardan istifadə edirlər. Bu da mülki əhali arasında itkinin çox olmasına hesablanıb. Ermənistan Azərbaycanın hərbi qüvvələrinə zərbə endirməkdə acizdir, ona görə də mülki əhalini hədəf seçir.

Hikmət Hacıyev qeyd edib ki, bu gün Ermənistan Azərbaycanın Goranboy, Tərtər, Ağcabədi və Bərdə rayonlarına 50-yə qədər mərmi atıb. Ermənistanın hücumları nəticəsində indiyə qədər 69 mülki şəxs həyatını itirib, 322 mülki şəxs yaralanıb.

Prezidentin köməkçisi diqqətə çatdırıb ki, Ermənistanın mülki əhaliyə qarşı qadağan olunmuş silahlardan istifadə etdiyi barədə Azərbaycan tərəfindən beynəlxalq humanitar təşkilatlara da müraciət edilib.

## *Anar EYVAZOV:* "Ermənistan silahlı qüvvələrinin bölmələri humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozub"

Ötən müddət ərzində humanitar atəşkəs rejimini dəfələrlə kobud şəkildə pozan Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini, o cümlədən Zəngilan rayonunun Ağbənd kəndi istiqamətindəki ərazilərimizi müxtəlif silahlardan atəşə tutub.



AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 27-də Hərbi İnformasiya Mərkəzində Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün keçirilən brifinqdə deyib.

Anar Eyvazov qeyd edib ki, vəziyyəti daha da gərginləşdirmək istəyən düşmən yaylım atəşli reaktiv sistemlərdən və artilleriya qurğularından istifadə etməklə cəbhəboyu bölgəyə yaxın bir sıra yaşayış məntəqələrimizə də atəş zərbələri endirib. Cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində hücum etməyə cəhd edən düşmən itki verərək geri çəkilməyə məcbur edilib.

Keçirilən adekvat tədbirlər nəticəsində düşmən diviziyalarından birinin qərargah rəisi daxil olmaqla xeyli sayda canlı qüvvəsi, bir tankı, dörd artilleriya qurğusu, "Osa" tipli zenit raket kompleksi, "Qrad" tipli yaylım atəşli reaktiv sistemi, radiolokasiya stansiyası və altı avtomobil texnikası və diviziyasının əsas komanda məntəqəsi bölmələrimiz tərəfindən məhv edilib. Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Ermənistan ərazisini guya pilotsuz uçuş aparatı və raket-artilleriya sistemlərindən atəşə tutmağımız barədə düşmənin yaydığı məlumat növbəti dezinformasiyadır. Yeni humanitar atəşkəs rejiminə tam riayət edən bölmələrimiz bütün cəbhəboyu düşmənin törətdiyi təxribatlara təmkinlə yanaşaraq yalnız adekvat tədbirlər görür.

"Ermənistan cəbhənin müxtəlif istiqamətləri, xüsusilə də bərpa edilmiş dövlət sərhədləri üzrə vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirməyə hesablanmış təxribatçı hərəkətlərinə son qoymalıdır. Ermənistan rəhbərliyi dərk etməli və hesablaşmalıdır ki, bərpa edilmiş dövlət sərhədləri artıq münaqişə bölgəsi deyil və Azərbaycanın tamhüquqlu suveren ərazilərini müəyyən edən, beynəlxalq birlik tərəfindən tanınan dövlət sərhədidir. Dövlət sərhədinin toxunulmazlığı təmin edilməlidir. Bu istiqamətdə baş verən istənilən təxribat ərazi bütövlüyümüzə təcavüz kimi dəyərləndirilir. Bu baxımdan bir daha bəyan edirik ki, Azərbaycan öz ərazilərinə təhdid edən istənilən legitim hərbi hədəfləri yerləşdiyi ərazidən asılı olmayaraq məhv etmək hüququna malikdir", - deyə Anar Eyvazov vurğulayıb.

# Müdafiə Nazirliyi xəbər verir

## Cəbhədə oktyabrın 27-nə olan vəziyyət

Yeni humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 26-sı gün ərzində və 27-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub.

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadən xəbər verir ki, döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Hücum etmək cəhdlərinin qarşısı alınan düşmən itki verərək geri oturdulub.

Azərbaycan Ordusunun keçirdiyi fəaliyyətlər nəticəsində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi məhv edilmişdir. Ölənlər arasında diviziyanın qərargah rəisi polkovnik Sergey Şakaryan da var.

Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd T-72 tankı, 4 ədəd D-30 və 3 ədəd D-20 topu, 1 ədəd "Osa-AKM" ZRK, 1 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd radiolokasiya stansiyası və 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Hazırda qoşunlarımız əməliyyat şəraitinə nəzarət edir.

## Ermənistan rəhbərliyi dərk etməlidir ki, bərpa edilmiş dövlət sərhədləri münaqişə zonası deyil

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti yeni humanitar atəşkəs rejimini pozan Ermənistanın Azərbaycan Respublikasının bərpa edilmiş dövlət sərhədləri istiqamətində təxribatlar törətməsi ilə bağlı birgə bəyanat yayıb.

AZƏRTAC-a daxil olan birgə bəyanatda qeyd edilib ki, yeni humanitar atəşkəs rejiminə riayət edən Azərbaycan bütün cəbhəboyu düşmənin törətdiyi təxribatlara təmkinlə yanaşaraq yalnız adekvat tədbirlər görür. Bundan istifadə edən Ermənistan isə cəbhənin müxtəlif istiqamətləri, xüsusilə də bərpa edilmiş dövlət sərhədləri üzrə vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirməklə növbəti təxribatlarına zəmin yaradır.

Ermənistan rəhbərliyi artıq dərk etməli və hesablaşmalıdır ki, bərpa edilmiş dövlət sərhədləri münaqişə zonası deyil və Azərbaycanın tam hüquqlu suveren ərazilərini müəyyən edən beynəlxalq birlik tərəfindən tanınan dövlət sərhədidir. Dövlət sərhədinin toxunulmazlığı təmin edilməlidir. Bu istiqamətdə baş verən istənilən təxribat ərazi bütövlüyümüzə təcavüz kimi dəyərləndirilir.

Bu baxımdan Azərbaycan öz ərazilərinə təhdid təşkil edən istənilən legitim hərbi hədəfləri yerləşdiyi ərazidən asılı olmayaraq məhv etmə hüququna malikdir.

## Ermənistan ərazisində sərhəd zastavasının vurulması barədə yayılan məlumat yalandır və təxribat xarakteri daşıyır

Ermənistanın dünən guya Azərbaycana məxsus pilotsuz uçuş aparatı (PUA) və raket-artilleriya vasitələrindən istifadə etməklə Ermənistan ərazisinin atəşə tutulması barədə yaydığı məlumat yalandır və təxribat xarakteri daşıyır.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan yeni humanitar atəşkəs rejiminə tam riayət edir. Əksinə, oktyabrın 27-də saat 09:30-dan başlayaraq indiyədək Ermənistan tərəfi Zəngilan rayonunun Ağbənd kəndi istiqamətində ərazilərimizi minaatanlardan intensiv atəşə tutur.

## Ermənistan yeni humanitar atəşkəs rejimini pozaraq Tərtərə "Smerç" raketləri atıb

Yeni humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Tərtər şəhəri və rayonun kəndlərini artilleriyadan, o cümlədən "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tutur. Oktyabrın 26-sı səhər saatlarından başlayaraq rayon ərazisinə ümumilikdə 160-dan çox mərmi, eləcə də 4 "Smerç" raketi düşüb.







AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri Tərtər rayonunda düşmənin "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tutduğu ərazilərə gedərək, sakinlərlə həmsöhbət olub. Düyərli kənd sakini İsgəndər Həsənov bildirib ki, dünən axşam saatlarında düşmən kəndi artilleriya atəşinə tutub. Raketlərdən biri onun evinin yanına düşərək yerə sancılıb. Dünən axşam saatlarında kəndə çıxmışdım. Elə bu zaman kəndimiz atəşə tutuldu. Evə gələndə gördüm ki, raket həyətimizdə yerə sancılıb, xoşbəxtlikdən partlamayıb. Düşmənin bu təxribatları bizi qorxutmur. Bilirik ki, müzəffər ordumuz tezliklə qələbə qazanacaq.

Kənd sakini Nazim Quliyev düşmənin təxribatlarına baxmayaraq, hamıda böyük ruh yüksəkliyi olduğunu deyib: "Düşmənin artilleriya atəşi nəticəsində kənddə çoxlu dağıntılar var. Dünən axşam növbəti atəş zamanı partlayışın təsirindən mənim evimə də zərər dəydi. Ancaq biz ruhdan düşmürük. Ordumuza, Prezidentimizə güvənirik. Mənim iki oğlum da hazırda torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak edir. Ordumuz işğal altında olan şəhər və kəndlərimizi azad edir. Əminik ki, tezliklə bütün torpaqlarımız işğaldan azad ediləcək".

Tərtər şəhərinə düşən "Smerç" raketi isə bir evi tamamilə dağıdıb. Şəhər sakini Elxan İbadov deyib: "Axşam saatlarında partlayış oldu. Raket qonşumuzun evini dağıtdı. Digər qonşuların evlərinə də zərər dəyib. Yaxşı ki, ölən və yaralanan olmadı".





## Azərbaycan Ordusunun düşməndən götürdüyü tanklar təmirdən sonra yenidən döyüşə göndərilir







Azərbaycan Ordusunun döyüş zamanı düşməndən qənimət kimi götürdüyü tanklar yenidən döyüşə hazırlanır.

AZƏRTAC xəbər verir ki, ordumuz tərəfindən götürülən düşmənin 8 tankından 4-ü saz vəziyyətdədir. Digər 4 tank isə təmir olunduqdan sonra yenidən döyüşlərə cəlb ediləcək.

## Goranboy, Tərtər və Bərdə rayonları atəşə tutulur

Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Bərdə rayonlarının ərazilərini atəşə tutur.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

**AZƏRTAC**

# Ermənistan yeni humanitar atəşkəsi elə ilk dəqiqələrindən pozdu

### Bu, işğalçı ölkənin beynəlxalq vasitəçilərin səylərinə saymazlığının göstəricisidir

*Əvvəli 1-ci səh.*

Kriminal rejimin mülki əhalini hədəf alması düşmənin Gəncəyə ballistik raket atması ilə pik həddə çatdı. Tərtərdə dəfn mərasimində iştirak edən gözüyaşlı insanlara artilleriya atəşi açıb dərdlərinin üstünə dərd əlavə etmək müasir dünyanın gözü qarşısında törədilən daha bir müharibə cinayəti idi. Gəncə şəhərinə raket hücumu 10 nəfərin ölümünə, 34 nəfərin yaralanmasına səbəb oldu.

Döyüş meydanında ağır itkilər verən Ermənistanın növbəti yalvarışından sonra ikinci dəfə oktyabrın 18-də humanitar atəşkəs elan edildi. Bu dəfə həmsədr ölkə olan Fransanın vasitəçiliyi ilə...

Yenə də düşmən ilk dəqiqələrdən buna riayət etmədi. 18 oktyabr - humanitar atəşkəsin ilk günü: 00:00-dan etibarən Ermənistan mülki şəxslərə və yaşayış məntəqələrinə hücumlara başladı. Gəncəyə, Tərtərə, Ağdama, Goranboya, Xızıya və Ağcabədiyə mərmilər atıldı. Gəncə şəhərinə düşən mərmi daha 14 nəfərin həlak olması, 50-dən çox insanın yaralanması ilə nəticələndi.

Oktyabrın 24-də ABŞ dövlət katibi Mayk Pompeo Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilə ayrı-ayrılıqda görüş keçirdi. Bunun ardınca oktyabrın 25-də 3-cü humanitar atəşkəs elan edildi. Ancaq yenə də erməni məkri, erməni xisləti özünü göstərdi. Yeni humanitar atəşkəs rejiminin elan olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu, eləcə də dövlət sərhədində yerləşən yaşayış məntəqələrimizi, bölmələrimizin mövqelərini müxtəlif növ atıcı silahlar, minaatanlar və toplardan atəşə tutmaqda davam etdi.

Məhz sentyabrın 27-dən oktyabrın 26-dək ermənilərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində 65 mülki şəxs həlak olub, 297 nəfər yaralanıb. Bundan başqa, 402 mülki obyekt, 90 hündürmərtəbəli yaşayış binası və 2243 yaşayış evi yararsız hala düşüb. Bu, əsl erməni vandalizminin göstəricisidir. Tarix boyu belə xain hücumlara məruz qalmışıq.

Bir sözlə, 10 oktyabr Moskva birgə bəyanatı, 18 oktyabr Parisin vasitəçilik səyləri ilə öhdəliyin yenidən elan edilməsi və 24 oktyabrda Vaşınqtonda təcili humanitar atəşkəsin həyata keçirilməsi razılığı Ermənistan tərəfindən pozuldu. Bu, hər dəfə Ermənistan tərəfindən məqsədli şəkildə öz öhdəliklərinə məhəl qoyulmamasının və beynəlxalq vasitəçilərin səylərinə açıq hörmətsizliyin göstəricisidir. Görünür, Ermənistan baş nazirinin bəyan etdiyi kimi, bu ölkə münaqişənin diplomatik həlli yolunu görmür və başlıca məqsədi Azərbaycanın ərazilərinin hərbi işğalını davam etdirməkdir.

### Erməni əsgəri Qarabağdan rədd olmayınca, Azərbaycan Ordusu dayanmayacaq

Azərbaycan öz öhdəliklərinə sadiqdir və razılaşdırılmış humanitar atəşkəsə daim hörmət nümayiş etdirir. Atəşkəsin pozulmasına və bölgədə gərginliyin davam etməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərindədir.

Əlbəttə ki, humanitar atəşkəs razılaşmasının Ermənistan tərəfindən pozulmasının səbəbləri hər kəsə bəllidir. Bu ölkənin baş naziri Nikol Paşinyan yaxşı anlayır ki, savaş meydanındakı uğursuzluq onun siyasi hakimiyyətinin sonunu qaçılmaz edir. Humanitar atəşkəsin tələblərinə əməl edib Azərbaycan torpaqlarında məhv edilən minlərlə erməni hərbçisinin cəsədlərinin Ermənistana daşınması isə bu prosesi daha da sürətləndirəcək. Erməni əsgərinin savaş meydanından qaçdığını görən N.Paşinyanın bu çirkin oyunları oynamaqda əsas məqsədi Azərbaycanı dayandırmaq və münaqişəyə kənar qüvvələri cəlb etməkdir.

Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusunun Qarabağdakı uğurlu əməliyyatları başlanandan sonra xarici KİV-ə verdiyi bütün müsahibələrində bu məsələyə xüsusi olaraq toxunur və qətiyyətlə vurğulayır ki, Ermənistanın xain hücumları Azərbaycanı yolundan döndərə bilməz. Çünki Azərbaycan haqq yolundadır və bu yolu uğurla davam etdirir.

Xalqa növbəti dəfə müraciət edən Prezident İlham Əliyev bir daha bu məsələyə toxunaraq həm düşmənə, həm də həmsədr ölkələrə mesaj ünvanladı. Azərbaycanın hər zaman verdiyi sözü tutduğunu, illərdir məsələnin sülh yolu ilə həllinə razılaşdığını deyən İlham Əliyev vurğuladı ki, Ermənistan hər zaman danışıqlar prosesini pozmaqla vaxt udub. Ancaq bu dəfə vəziyyət tam başqadır. Əgər kimsə Qarabağda atəşkəsin bərqərar olmasını istəyirsə, işğalçıdan silahlı birləşmələrini Azərbaycan torpaqlarından çıxarmasını tələb etməlidir. *"Ədalət və beynəlxalq hüquq bizim tərəfimizdədir. Ona görə biz yolumuzu davam edəcəyik. Atəşkəs istəyirlərsə, işğalçı dövlətə desinlər rədd olsun, çıxsın torpaqlarımızdan. Yoxsa axıra qədər gedəcəyik, axıra qədər, sona qədər gedəcəyik. Düşməni bundan sonra da qovacağıq, necə ki, qovuruq, necə ki, qaçır bizim qabağımızdan və qaçacaq. Çünki biz haqlıyıq və biz güclüyük"*, - deyə Prezident İlham Əliyev xalqa müraciətində bildirib.

Erməni əsgəri Qarabağdan rədd olmayınca, Azərbaycan Ordusu dayanmayacaq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Çünki biz öz torpağımızda vuruşuruq. Haqq-ədalət, tarixi ədalət Azərbaycanın tərəfindədir. Azərbaycan ərazi bütövlüyünü bərpa etməlidir və tezliklə buna nail olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Düşmən Bərdəni kasetli raketlərlə atəşə tutub, ölən və yaralananlar var

Ermənistan silahlı qüvvələri humanitar atəşkəsi kobudcasına pozmaqda davam edir. Düşmən oktyabrın 27-də Azərbaycanın Bərdə rayonundakı dinc əhalini hədəf alaraq, yaşayış məntəqələrini mülki insanlara qarşı istifadəsi qadağan olunan kasetli raketlərlə atəşə tutub.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, Ermənistan silahlı qüvvələri tərəfindən saat 16 radələrində Bərdə rayonunun Qarayusifli kəndinin müxtəlif istiqamətlərdən kasetli raketlərlə atəşə tutulması nəticəsində Cəfərova Ofeliya Məcid qızı, Əhmədova Aybəniz Əşrəf qızı, İsmayılov Ehtiram Xəlil oğlu və 2013-cü il təvəllüdlü İsgəndərova Aysu Rövşən qızı həlak olub, 10-dan çox dinc sakin yaralanıb.

Qeyd edək ki, Ermənistan atəşkəs rejiminə üçüncü dəfədir əhəmiyyət vermir. Oktyabrın 10-da Moskvada birgə bəyanat, oktyabrın 18-də Parisin vasitəçilik səyləri ilə öhdəliyin yenidən elan edilməsi və oktyabrın 24-də Vaşinqtonda təcili humanitar atəşkəsin həyata keçirilməsi razılığı Ermənistan tərəfindən kobud şəkildə pozulub.

Beləliklə, Ermənistan növbəti dəfə məqsədli şəkildə öz öhdəliklərinə məhəl qoymur və beynəlxalq vasitəçilərin səylərinə açıq hörmətsizlik göstərir.

# Azərbaycanın Xarici İşlər naziri “Nasionalnaya oborona” jurnalına müsahibə verib



*Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov Rusiyada çıxan “Nasionalnaya oborona” jurnalına müsahibə verib.* AZƏRTAC *həmin müsahibəni təqdim edir.*

* * *

**- Ceyhun Əziz oğlu, Dağlıq Qarabağda Azərbaycanın Silahlı Qüvvələri ilə erməni hərbi dəstələri arasında təmas xəttində genişmiqyaslı döyüş əməliyyatlarına gətirib çıxarmış səbəblər nədən ibarətdir?**

- İlk növbədə, izah etməliyəm ki, erməni hərbi dəstələri Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində dislokasiya olunmuş Ermənistan silahlı qüvvələrinin nizami bölmələridir. 1990-cı illərin əvvəlində Ermənistan Azərbaycana qarşı silahlı təcavüzə başladı. Onun qoşunları ölkəmizə soxuldu və Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazisinin 20 faizini, o cümlədən Dağlıq Qarabağı və onun ətrafındakı rayonları işğal etdi.

Erməni qoşunları bu təcavüzün gedişində çoxsaylı hərbi cinayətlər törədib, o cümlədən yaşayış məntəqələrini atəşə tutub, insanları girov götürüb, azərbaycanlı hərbi əsirləri və dinc sakinləri, o cümlədən qadınları və uşaqları qətlə yetirib, onlara işgəncə veriblər. Etnik təmizləmə nəticəsində bu ərazilərdəki yerli azərbaycanlı əhali oradan tamamilə qovulub.

1994-cü ilin may ayında atəşkəs elan ediləndən sonra döyüş əməliyyatlarının aktiv fazası başa çatıb. Lakin Ermənistan BMT Təhlükəsizlik Şurasının hələ 1993-cü ildə qəbul etdiyi, Azərbaycan ərazilərinin işğaldan tamamilə, dərhal və qeyd-şərtsiz azad edilməsi haqqında tələblərin təsbit olunduğu dörd qətnaməsini yerinə yetirməkdən imtina etdi.

Ermənistan özünün hüquqazidd əməllərinin nəticələrini ört-basdır etmək üçün işğal olunmuş Azərbaycan ərazilərində oyuncaq rejim yaratdı. Bu addım dünya birliyini çaşdırmadı. Dünyada heç bir təşkilat, heç bir dövlət, yeri gəlmişkən, Ermənistan da daxil olmaqla Yerevanın nəzarəti altında olan oyuncaq qurumun legitimliyini tanımayıb.

Ermənistan bütün bu illər ərzində beynəlxalq hüququn norma və prinsiplərinə, əsas beynəlxalq təşkilatların çoxsaylı qərarlarına rəğmən məqsədyönlü şəkildə işğalçılıq siyasəti yürüdüb. Ermənistandan və digər ölkələrdən etnik ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərinə kütləvi şəkildə köçürülməsi təşkil edilib. İşğalçılar Azərbaycanın mədəni-tarixi irsini vəhşicəsinə məhv edir, yaşayış məntəqələrinin adlarını dəyişdirir, təbii ehtiyatları vəhşicəsinə istismar edirlər.

Ermənistanın danışıqlar masası arxasında mövqeyi qeyri-konstruktiv xarakter daşıyır, təcavüzün və işğalın nəticələrini möhkəmlətmək üçün vaxt qazanmaq məqsədi güdürdü. Buna paralel olaraq, Ermənistan atəşkəsi mütəmadi olaraq pozur, həm bizim silahlı qüvvələrin mövqelərini, həm də Azərbaycanın təmas xətti boyunca yaşayan mülki əhalisini atəşə tuturdu. Beləliklə, Ermənistan faktiki olaraq bizim dinc sakinləri girovlara çevirməklə terror taktikasını həyata keçirirdi.

Erməni tərəfin bu cür taktikası, məsələn, 2016-cı ilin aprelində münaqişə zonasında vəziyyətin kəskinləşməsinə gətirib çıxarmışdı. Bu il sentyabrın 27-də baş vermiş hadisələr xalqımızın səbir kasasını daşdıran son damla oldu. Bazar günü səhər tezdən erməni qoşunları faktiki olaraq, faşist işğalçıların 1941-ci il iyunun 22-də tətbiq etdikləri plan üzrə hərəkət edərək Azərbaycanın hərbi mövqelərini və təmas xətti boyunca yerləşən dinc yaşayış məntəqələrini şiddətli atəşə tutdular. Azərbaycanın Ağdam, Tərtər, Cəbrayıl və Füzuli rayonlarındakı kəndlərinə və qəsəbələrinə güclü artilleriya zərbələri endirildi. Azərbaycan vətəndaşları arasında ölənlər və yaralananlar oldu. Evlər, məktəblər, xəstəxanalar dağıdıldı.

Bu şəraitdə Azərbaycan tərəfi təcili cavab tədbirləri görməyə məcbur oldu. Bizim qoşunların əks-hücum əməliyyatlarının əsas məqsədi mülki əhalini sonrakı atəşlərdən və hücumlardan qorumaq idi.

**- Bütövlükdə, “Paşinyan amili” vəziyyətə necə təsir göstərir?**

- Bəli, təsir göstərir, özü də çox güclü şəkildə. Yaranmış vəziyyət Ermənistanın yeni rəhbərliyinin məsuliyyətsiz siyasətinin məntiqi nəticəsidir. 2018-ci ilin yazında “Soros çevrilişi” nəticəsində hakimiyyətə gələndən sonra Paşinyan Azərbaycan Prezidentinə müraciətlə ona münaqişə ilə bağlı vəziyyəti daha ətraflı öyrənmək üçün vaxt verilməsini xahiş etdi, sülh prosesinə konstruktiv yanaşma nümayiş etdirəcəyinə söz verdi. Prezident Əliyev bu xahişə konstruktiv yanaşdı, hesab etdi ki, Ermənistan rəhbərliyində sağlam düşüncə və xoş məram üstünlük təşkil edəcək. Təəssüf ki, Paşinyan və onun administrasiyası başqa yol seçdilər.

N.Paşinyan və onun administrasiyası praktiki olaraq, hakimiyyətə gəldiyi ilk vaxtdan münaqişə ətrafında vəziyyətin eskalasiyası prosesini işə saldılar. Onların ilk addımlarından biri Ermənistanın yeni baş nazirinin doğma oğlunu Ermənistanda deyil, Azərbaycanın işğal edilmiş ərazilərində hərbi xidmət keçməyə göndərilməsi oldu. Bu, faktiki olaraq, ilk siyasi siqnal və piar kampaniyasının başlanğıcı oldu. Paşinyan işğal edilmiş ərazilərə tez-tez səfər etməyə başladı və belə səfərlərin birində şəxsən “Qarabağ Ermənistandır və nöqtə” şüarını irəli sürdü. Bu şüar münaqişənin nizamlanmasına Paşinyanın həqiqi yanaşmasını tam aydın göstərdi, çünki əgər Qarabağın Ermənistan olduğunu fərz etsək, Azərbaycan kiminlə və nə barədə danışıqlar aparmalıdır, belə danışıqların nə mənası var?

Ermənistanın digər rəhbərləri də Paşinyandan geri qalmırdılar. Məsələn, müdafiə naziri “ərazilər müqabilində sülh” formulundan imtina etdiyini bildirdi və “yeni ərazilər uğrunda yeni müharibə” məzmunlu yeni hərbi konsepsiya irəli sürdü. Beləliklə, Ermənistan Azərbaycana münasibətdə özünün təcavüzkar siyasətinin yeni mərhələsini rəsmən bəyan etdi.

Bu il iyulun 12-16-da Ermənistan silahlı qüvvələri Ermənistan-Azərbaycan sərhədinin Tovuz hissəsində, - yeri gəlmişkən, bu hissə Qarabağ münaqişəsi zonasından xeyli uzaqda yerləşir, - irimiqyaslı hərbi təxribat törətdilər. Bizim mövqelərimizin və kəndlərimizin artilleriya atəşinə tutulması nəticəsində Azərbaycan hərbi qulluqçuları həlak oldular. Artilleriya atəşlərinin hər iki tərəfdən yeganə mülki qurbanı Azərbaycan kəndinin 76 yaşlı bir sakini oldu. O, sərhəddən uzaqda yerləşən evinin həyətində Ermənistan ərazisindən artilleriya zərbəsi nəticəsində baş vermiş partlayış səbəbindən həyatını itirib.

Təəssüf ki, N.Paşinyan Tovuz hadisələrindən sonra da məqsədyönlü şəkildə eskalasiyanı davam etdirdi. Ermənistan silahlı qüvvələri atəşkəs rejimini mütəmadi olaraq pozur, Azərbaycanın dinc əhalisini atəşə məruz qoyur, təxribatlar törədirdi. Avqustun 23-də təmas xəttinin Goranboy hissəsində erməni təxribat-kəşfiyyat qrupu Azərbaycan qoşunlarının mövqelərini ələ keçirməyə cəhd göstərdi. Bu cəhd dəf edildi, təxribat qrupunun komandiri əsir götürüldü və etiraf xarakterli ifadə verdi ki, həmin qrupun məqsədi arxa cəbhədə Azərbaycanın dinc əhalisinə qarşı terror aktları törətmək idi.

Ermənistan xaricdən külli miqdarda silah və texnika almağı davam etdirir, həm Azərbaycan ilə dövlət sərhədində, həm də ölkəmizin işğal olunmuş ərazilərində öz qoşunlarının sıxlığını artırırdı.

Ermənistan hətta başqa ölkələrdə baş verən faciəli hadisələrdən də həyasızcasına öz məqsədləri üçün istifadə edir. Məsələn, bu il avqustun 4-də Beyrutda baş vermiş dağıdıcı partlayışdan sonra Azərbaycan Livana 1 milyon dollar həcmində yardım göstərib. Ermənistan isə Livandan olan etnik erməniləri ölkəmizin işğal edilmiş ərazilərinə köçürmək kampaniyasına başlayıb.

Paşinyan danışıqlar prosesini tam pozmaq məqsədilə Azərbaycana danışıqlar prosesinin bərpa edilməsi üçün açıq-aşkar absurd xarakterli yeddi ilkin şərt irəli sürüb.

Bütün bu addımlar bu gün Paşinyan administrasiyasının məqsədyönlü siyasətinin məntiqini daha yaxşı anlamağa imkan verir, bu siyasət 2020-ci il 27 sentyabr hadisələrinə gətirib çıxarıb.

Bu avantürist siyasətin səbəblərindən biri Ermənistanda vəziyyətin pisləşməsidir. Paşinyanın tərəqqi və inkişaf haqqında populist vədləri boşa çıxdı. Ermənistanda iqtisadi tənəzzül davam edir, işsizlik artır, həyat səviyyəsi aşağı düşür. Daxili siyasi böhran güclənir, cəmiyyətdə parçalanma genişlənir. 2020-ci ildə Ermənistan hökuməti koronavirus pandemiyasına qarşı mübarizədə faktiki olaraq, uduzub. Bütün bunlar Ermənistan əhalisinin ən fəal və əməkqabiliyyətli hissəsinin mühacirətinin artmasına gətirib çıxarır.

Ermənistanın yeni rəhbərliyi bu cür problemlərlə üzləşəndən sonra əhalinin diqqətini yayındırmaq və gündəliyi dəyişmək ümidi ilə Qarabağ cəbhəsində eskalasiya xətti yürütməyə başlayıb.

**- Siz Dağlıq Qarabağda baş verən hadisələrə beynəlxalq birliyin reaksiyasını necə qiymətləndirirsiniz?**

- Təəssüf ki, 27 sentyabr hadisələrinə gətirib çıxarmış amillər arasında beynəlxalq birliyin mövqeyinin yetərincə fəal olmadığını da qeyd etmək lazımdır. Ermənistan Azərbaycana qarşı təcavüz törətməklə, Azərbaycan ərazilərini hərbi işğal altında saxlamaqda davam etməklə beynəlxalq hüququ kobud şəkildə pozub. Hətta BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsinin qəbul edilməsi də erməni təcavüzünə son qoyulması və onun nəticələrinin aradan qaldırılması üçün kifayət etməyib.

Bəzi beynəlxalq böhranlar və münaqişələr zamanı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin çox operativ şəkildə və tam həcmdə yerinə yetirilməsini yaxşı xatırlayırıq. Erməni təcavüzü ilə bağlı halda isə qətnamələr, təəssüf ki, kağız üzərində qaldı. Ermənistan BMT-nin qətnamələrini yerinə yetirməkdən imtina etdi, amma dünyada heç kəs bu təcavüzkar dövlətdən cavab tələb etmədi. İkili standartların tətbiq edilməsi kimi ədalətsiz praktika göz qabağındadır.

Beynəlxalq birliyin lazımi praktik reaksiyasının olmaması erməni tərəfində qələbə eyforiyası və onun nə istəsə edə biləcəyi barədə yalan illüziya yaratdı. Xatırlatmaq istəyirəm ki, Paşinyan administrasiyası 27 sentyabr hadisələrinə iki ildən çox hazırlaşmışdı. Onları hər bir mərhələdə, növbəti təhrikçi bəyanatdan və ya hərəkətdən sonra dayandırmaq olardı və lazım idi. Bunun üçün bütün siyasi, diplomatik imkanlar vardı. Təəssüf ki, bu, baş vermədi. Əvəzində biz Ermənistana və Azərbaycana ünvanlanmış neytral xarakterli sülhə çağıran və iki tərəf arasında tarazlığı saxlamağa yönəlmiş şablon bəyanatlar eşidirdik. Bu cür yanaşma özünün yararsız olduğunu sübut etdi. Təcavüzkar ilə təcavüzün qurbanını, işğalçı ilə işğalın qurbanını bərabər tutmaq ədalətsizlikdir və düzgün deyil.

**- Azərbaycan döyüş əməliyyatlarının gedişində öz qarşısına hansı məqsəd və vəzifələri qoyurdu? Döyüş əməliyyatları hansı prinsiplər və şərtlər daxilində dayandırılmalıdır?**

- Əsas məqsəd Azərbaycan ərazilərinin işğalına son qoymaq və ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir. Ermənistan bu əraziləri tutub və onları azad etməkdən boyun qaçırır. Biz bu münaqişənin dinc yolla nizamlanmasına dair 1992-ci ildən, yəni 28 il ərzində ATƏT-in himayəsi altında danışıqlar aparmışıq və həmişə bizim bu formata sadiq olduğumuzu vurğulamışıq.

Təəssüf ki, indiyə qədər Ermənistan tərəfindən konstruktiv yanaşma görməmişik. Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini, ATƏT-in və digər təşkilatların qərarlarını rədd edib. Ermənistan rəhbərliyi danışıqlar masası arxasında artıq əldə edilmiş razılaşmalardan imtina edərək və münaqişə zonasında mütəmadi silahlı təxribatlar törədərək danışıqlar prosesini hər vasitə ilə uzadırdı. Bu vəziyyət əbədi davam edə bilməzdi.

Xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycanın Ermənistana ərazi iddiaları yoxdur. Biz sərhədləri pozmuruq, ona qarşı hərbi əməliyyatlar aparmırıq. Azərbaycan Silahlı Qüvvələri yalnız Azərbaycanın ərazisində, ölkəmizin beynəlxalq miqyasda tanınmış sərhədləri çərçivəsində fəaliyyət göstərir. Bizim hərəkətlərimiz BMT Nizamnaməsinin özünümüdafiə hüququ haqqında 51-ci maddəsinə, beynəlxalq hüququn fundamental norma və prinsiplərinə əsaslanır.

Bir daha təkrar edirəm, Azərbaycan tərəfinin başlıca prinsipi, başlıca məqsədi, BMT Təhlükəsizlik Şurasının qətnamələrində və ATƏT-in qərarlarında nəzərdə tutulduğu kimi, Azərbaycan Respublikasının suveren ərazilərinin işğalına son qoymaqdır. Əgər Ermənistan rəhbərliyi həqiqətən sülh istəyirsə, qoy öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağa başlasın.

**- Münaqişə zonasında mülki əhali arasında çoxsaylı qurbanlar olması və yaşayış məntəqələrinə zərbələr endirilməsi barədə xəbərlər olub. Azərbaycan tərəfinin bu barədə hansı məlumatları var? Azərbaycan müharibə dövründə mülki əhalinin qorunması və hərbi əsirlərlə rəftar barədə Cenevrə konvensiyalarına sadiqdirmi?**

- Təəssüf ki, mülki əhali arasında qurbanlar haqqında xəbərlər doğrudur. Münaqişə zonasının coğrafiyasının xüsusiyyəti ondan ibarətdir ki, Azərbaycanın kəndləri, qəsəbələri və rayon mərkəzləri sentyabrın 27-də cəbhə xəttinə çevrilmiş təmas xəttindən çox yaxın məsafədə yerləşirlər. Bəzən bu məsafə cəmi bir neçə yüz metrə bərabər olur, yəni erməni qoşunları tərəfindən dinc sakinlərə zərbələr endirilməsi üçün uzaqvuran silahlara ehtiyac olmur. Erməni tərəfi bu amildən həmişə, hətta 1994-cü ildə əldə edilmiş atəşkəs dövründə də fəal istifadə edib. Azərbaycanda dinc əməklə məşğul olan fermerlər və çobanlar, adi sakinlər öz evlərində bu cür qəsdən törədilmiş atəşlərin qurbanları olurdular.

Dəhşətlisi budur ki, qurbanların çoxu uşaqlardır. Məsələn, 2011-ci ilin mart ayında erməni snayperinin dəqiq atəşi ilə Ağdamın Orta Qərvənd kəndinin sakini, 9 yaşlı məktəbli Fariz Bədəlov öldürülüb. 2017-ci ilin iyul ayında Füzuli rayonunun Alxanlı kəndinin minaatanlardan atəşə tutulması nəticəsində yaşyarımlıq Zəhra Quliyeva və onun nənəsi həlak olub.

Kədərli haldır ki, bu hüznlü siyahı genişlənməkdə davam edir. Qeyd etdiyim kimi, münaqişənin yeni fazası sentyabrın 27-də məhz Azərbaycanın yaşayış məntəqələrinə erməni artilleriyasının şiddətli zərbələrindən sonra başlanıb. Erməni qoşunları mərd-mərdanə döyüşdə uğur qazana bilmirlər, buna görə Azərbaycanın şəhərlərini və kəndlərini atəşə tutaraq qisas alırlar. Bəzən Ermənistan ərazisindən bilərəkdən, artilleriya və raket silahlarından istifadə etməklə mülki hədəflərə atəş açılır.

Bu il oktyabrın 13-nə olan məlumata görə, erməni tərəfin atəşləri nəticəsində Azərbaycanın 42 dinc sakini həlak olub, daha 206 nəfər yaralanıb. Beş nəfərdən ibarət Qurbanovlar ailəsinin aqibəti hiddətləndirici hadisədir. Onlar Naftalan rayonunun Qaşaltı kəndində evlərinin artilleriya atəşinə tutulması nəticəsində həlak olublar. Fidan Qurbanovanın 14, onun qardaşı Şəhriyarın 13 yaşı vardı.

Ermənistan silahlı qüvvələrinin hərəkətləri beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarının və onlara Əlavə protokollarının kobud şəkildə pozulmasıdır. Bu cinayətkar taktika Ermənistan rəhbərliyinin öz beynəlxalq öhdəliklərinin yerinə yetirilməsinə yanaşmasının mahiyyətini ifşa edir.

Öz növbəsində, Azərbaycan Cenevrə konvensiyalarının və onlara Əlavə protokolların tələblərinin yerinə yetirilməsi barədə öz öhdəliklərinə tam sadiqdir. Azərbaycan Silahlı Qüvvələrinin əməliyyatlarının hədəfləri yalnız hərbi təyinatlı obyektlərdir. Azərbaycan Silahlı Qüvvələrinin hərbi komandanlığı Ermənistanın mülki əhalisinə müntəzəm olaraq müraciət edir, onlara bu cür obyektlərin yanında olmamağı tövsiyə edir.

Qeyd etməliyəm ki, əldə olan məlumata görə, erməni tərəfi texnikanı və silahları qəsdən mülki obyektlərin yanında yerləşdirir və ya yaşayış məntəqələrindən atəş açır. Onların əsas məqsədi cavab atəşindən yaxa qurtarmaq və ya qəsdən Azərbaycan tərəfini onların mülki əhalisinə atəş açmağa təhrik etmək, daha sonra bu hadisələrdən “qara piar” üçün istifadə etməkdir. Erməni tərəfi Ermənistan ərazisindən də bizim dinc əhalini atəşə tutur ki, cavab reaksiyasına nail olsun, sonra bundan fəal istifadə etsin. Vurğulamalıyam ki, Azərbaycan qoşunları bütün hallarda özlərini məsuliyyətli, intizamlı və korrekt aparırlar.

**- Yerevan iddia edir ki, döyüş əməliyyatlarında Türkiyə Azərbaycanın tərəfində iştirak edir. Bu cür bəyanatlar nə dərəcədə əsaslıdır? Ermənistanın Su-25 hücum təyyarəsinin qəzaya uğraması hadisəsinə də aydınlıq gətirə bilərdinizmi?**

- Türkiyə Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqeyini dəstəklədiyini bildirib. Türkiyə Azərbaycana mənəvi dəstək verir. Münaqişədə Türkiyənin iştirak etməsi barədə şayiələri erməni tərəfi yayır. Yəqin ki, erməni təbliğatının bir məqsədi öz hərbi uğursuzluqlarına görə öz vətəndaşları qarşısında özünə haqq qazandırmaq cəhdidir.

Ermənistanın təyyarəsi məsələsinə gəldikdə isə, bizdə olan məlumata görə, sentyabrın 29-da Ermənistana məxsus iki Su-25 hücum təyyarəsi Ermənistan ərazisində dağa çırpılaraq qəzaya uğrayıb. Erməni tərəfi hələlik yalnız bir təyyarənin qəzaya uğramasını və onun pilotunun həlak olmasını rəsmən etiraf edib.

**- Rusiya Xarici İşlər Nazirliyi bəzi Yaxın Şərq ölkələrindən qanunsuz silahlı dəstələrin yaraqlılarının münaqişə zonasına göndərilməsi ilə bağlı narahatlığını bildirib. Siz bu bəyanatı şərh edə bilərdinizmi?**

- Vurğulamaq istəyirəm ki, erməni tərəfi 1990-cı illərin əvvəlində Azərbaycana qarşı təcavüz və bizim ərazilərin işğalı zamanı öz əməliyyatlarında xarici dövlətlərdən, o cümlədən Yaxın Şərq ölkələrindən olan yaraqlılardan, terrorçulardan və muzdlulardan fəal istifadə edirdi. Buna əyani nümunələrdən biri beynəlxalq terrorçu Monte Melkonyandır. Onun müxtəlif ölkələrdə, o cümlədən Livanda vətəndaş müharibəsi zamanı törədilmiş çoxsaylı qanlı aksiyalarda iştirak etməsi məlumdur. Melkonyan özü kimi cinayətkarlardan ibarət dəstəyə başçılıq edərək Azərbaycanın dinc əhalisinə qarşı bir sıra terror aktları və hərbi cinayətlər törədib. 1993-cü ildə Qarabağ münaqişəsi zonasında öldürülmüş Melkonyan bu gün Ermənistanda milli qəhrəman kimi hörmətlə yad edilir.

Ermənistan əcnəbi yaraqlılardan və muzdlulardan istifadə edilməsi kimi cinayətkar praktikanı heç vaxt dayandırmayıb. Bu praktikanın vasitələrindən və onun informasiya “örtüklərindən” biri xarici ölkələrdən etnik ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərinə köçürülməsi kampaniyasıdır. Bu baxımdan, yaxın vaxtlarda Ermənistanda “könüllü xalq dəstələri” yaradılması barədə xəbərlər xüsusi diqqətə layiqdir. Bu dəstələr əcnəbi yaraqlıların inteqrasiyası və sonradan onlardan fəal istifadə edilməsi üçün əlverişli format yaratmağa imkan verir.

Onu da vurğulamaq istəyirəm ki, Ermənistanın Azərbaycanı guya əcnəbi yaraqlılardan istifadə etməkdə təqsirləndirmək cəhdləri tamamilə əsassızdır. Onların ortaya atdığı bu yalanların məqsədi gündəliyi dəyişmək, münaqişənin genişlənməsi və onun xarakterinin dəyişməsi barədə təsəvvür yaratmaq, dini və digər amilləri şişirtmək, ölkəmizi özünə haqq qazandırmağa məcbur etməkdir. Bizim xaricdən hər hansı döyüşçüləri cəlb etməyə obyektiv ehtiyacımız yoxdur. Azərbaycanın səfərbərlik potensialı kifayət qədərdir. Ölkəmizin nizami silahlı qüvvələri zəruri hazırlıq keçib, müasir silahlar və texnika ilə təchiz olunub.

**- Yerevandan səslənən bəyanatlarda Dağlıq Qarabağın müstəqilliyinin tanınmasının mümkünlüyü elan edilir. Əgər bu, baş verərsə, sonrası necə olacaq?**

- Belə bir qərar Ermənistan rəhbərliyinin məsuliyyətsiz və avantürist siyasətinin zirvəsi olar. Ermənistan bu cür hərəkət etməklə beynəlxalq münasibətlərin ənənələrinin və əsaslarının bütün korpusuna etinasızlıq göstərməklə beynəlxalq hüququ tamamilə tapdalamış olar. Ermənistan bu münaqişənin ilk günündən bizim dediyimizi rəsmən təsdiqləmiş olar. Azərbaycan Ermənistanın ərazi iddialarının, erməni təcavüzünün və işğalın qurbanıdır. Bu, ATƏT-in Minsk qrupunun həmsədrlərinin, - buraya Rusiya Federasiyası da daxildir, - vasitəçiliyi ilə münaqişənin nizamlanmasına dair danışıqların indiki formatını tamamilə məhv etməyə bərabər olacaq.

Ermənistanın bu cür qərarı labüd olaraq münaqişənin eskalasiyasının yeni mərhələsinə, regionda vəziyyətin pisləşməsinə gətirib çıxarar.

**- Siz Dağlıq Qarabağın və Azərbaycan-Ermənistan münasibətlərinin gələcəyini necə təsəvvür edirsiniz?**

- Əsas amil Ermənistan rəhbərliyinin beynəlxalq hüququn norma və prinsiplərinə riayət etmək istəməməsidir. Əgər iki dövlətdən biri digərinə ərazi iddiaları irəli sürürsə, onun ərazilərinə soxulursa və onun torpaqlarını işğal edirsə, bu iki dövlət arasında normal münasibətlər yaradılması barədə danışmaq qeyri-mümkündür.

Ermənistan rəhbərliyinin bu barədə düşünməsinin vaxtı yetişib ki, onların pozucu siyasəti öz ölkələrini hansı vəziyyətə gətirib çıxarıb, iqtisadi və sosial sahələrdə hansı nəticələrə nail olublar, regional inkişaf və əməkdaşlıq layihələrindən necə təcrid olunmuş vəziyyətə düşüblər. Artıq yada salmaq vaxtıdır ki, həqiqi dövlət xadimlərinin əsas xüsusiyyətləri məsuliyyət, uzaqgörənlik və düzlükdür.

# Azərbaycanın Baş prokuroru Özbəkistanın ölkəmizdəki səfiri ilə görüşüb



Oktyabrın 27-də Baş prokuror Kamran Əliyev Özbəkistan Respublikasının ölkəmizdəki səfiri Bahrom Aşrafxanov ilə görüşüb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş prokuror Kamran Əliyev Azərbaycan ilə Özbəkistan arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq əlaqələrin uğurla inkişaf etdiyini, hər iki ölkə arasında əməkdaşlığın genişlənməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin, keçirilən görüşlərin mühüm əhəmiyyətini qeyd edib.

Səfir Bahrom Aşrafxanovu ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edərək ona uğurlar arzulayan Baş prokuror sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin ağır artilleriya və raket qurğularından atəşə tutulması nəticəsində dinc mülki əhalimizə qarşı sülh və insanlıq əleyhinə cinayətlərin törədilməsini, o cümlədən oktyabrın 4-də, 11-də və 17-də Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin raket zərbələrinə məruz qalmasını qeyd edib. Xüsusilə vurğulayıb ki, ümumilikdə mülki əhalidən 65 nəfər həlak olub. Onlardan 18-i qadın, 10-u uşaq olub. Həmçinin 71-i qadın, 33-ü uşaq olmaqla, 308 nəfər yaralanıb. Ümumilikdə 2312 evə, 90 çoxmərtəbəli binaya və 405 mülki infrastruktur obyektinə külli miqdarda ziyan dəyib.

Kamran Əliyev həmçinin Ermənistanın Azərbaycana qarşı növbəti təcavüzü ilə əlaqədar İslam Əməkdaşlıq Təşkilatı və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində müvafiq bəyanatların qəbul edilməsinə üzv dövlət olaraq Özbəkistanın verdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Səmimi görüşə görə minnətdarlığını bildirən səfir ikitərəfli münasibətlərə toxunaraq Özbəkistanın Azərbaycan ilə əlaqələrə böyük önəm verdiyini, münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb.

Səfir ölkəmizlə Ermənistan arasındakı mövcud münaqişə barədə fikir mübadiləsi aparılarkən ölkəsinin 27 il ərzində rəsmi mövqeyinin dəyişməz qaldığını bildirərək, Azərbaycan Respublikasının ərazi bütövlüyünün Özbəkistan dövləti tərəfindən tanındığını və Dağlıq Qarabağ ərazisinin ölkəmizin tərkib hissəsi olmasını təsdiqlədiklərini qeyd etməklə, birmənalı olaraq münaqişənin BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində nəzərdə tutulmuş qaydada baza prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllinin vacibliyini diqqətə çatdırıb.

O, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin raket atəşinə tutulmasının ölkəsi tərəfindən pislənildiyini, Gəncədə törədilmiş cinayətlərin nəticələri ilə yerində tanış olduğunu bildirib. Bu hadisələrin dünya ictimaiyyətinə tanıdılması məqsədilə Baş Prokurorluq tərəfindən keçirilmiş brifinqlər, verilən məlumatlar və görülmüş digər tədbirlərin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq bu kimi görüşlərin keçirilməsinin əhəmiyyətini qeyd edib.

Səfir ölkəsinin Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasının üzvlüyünə seçilməsində Azərbaycan dövlətinin verdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Daha sonra hər iki dövlətin prokurorluq orqanları arasında əməkdaşlıq, cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya və sair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# Ermənistanın meyitlərin və əsirlərin dəyişdirilməsi barədə Azərbaycanın təklifinə cavab verməməsi öz vətəndaşlarına qeyri-humanist münasibətinin göstəricisidir

*Azərbaycan Respublikası beynəlxalq humanitar hüquq normalarına, həmçinin Cenevrə konvensiyalarının tələblərinə sadiqliyini ifadə edərək, humanitar atəşkəs elan olunması haqqında Moskva razılığından sonra öz insanpərvər mövqeyini bir daha vurğulayıb. Belə ki, Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası oktyabrın 12-də Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin başçısı ilə keçirilmiş görüşdə birtərəfli qaydada Azərbaycan tərəfinin humanist addım kimi Ermənistanın 30 hərbçisinin meyitinin və eyni zamanda, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərimizdən geri çəkildiyi zaman köməksiz vəziyyətdə qoyub getdiyi erməni millətindən olan iki mülki şəxsin - Hadrut qəsəbə sakinləri 85 yaşlı Babayan Yevgeniya Pavlovnanın və 84 yaşlı Melkumyan Mişa Merlandoviçin qarşı tərəfə verilməsi ilə bağlı birtərəfli qaydada BQXK-ya təklif verib.*

AZƏRTAC xəbər verir ki, bunu Dövlət Komissiyasının katibi İsmayıl Axundov oktyabrın 27-də jurnalistlərə müsahibəsində deyib.

O, həmçinin bildirib ki, bundan sonra Dövlət Komissiyası tərəfindən BQXK-nın Azərbaycan nümayəndəliyi ilə keçirilmiş görüşlərdə bununla bağlı bir neçə dəfə təklif verilməsinə baxmayaraq, bu humanitar missiyaya Ermənistan tərəfindən heç bir cavab verilməyib. Bu, Ermənistanın beynəlxalq humanitar hüquq normalarına hörmətsizlik əlaməti olmaqla yanaşı, bu ölkənin öz vətəndaşlarına qeyri-humanist mövqe sərgiləməsinin göstəricisidir.

# <u>Rusiyalı analitik:</u> “Ermənilər “biz o zaman qalib gəlmişdik, indi də Bakıya kimi gedərik” əfsanəsi ilə yatıb-dururdular”

Rusiyanın “Vzqlyad.ru” nəşri Dağlıq Qarabağda hərbi əməliyyatların başlanmasından ötən bir ay ərzində Ermənistan qoşunlarının məğlubiyyətinin səbəblərini araşdırıb.

AZƏRTAC xəbər verir ki, Yevgeni Krutikovun müəllifi olduğu materialda artıq Ermənistan ordusunun geri çəkildiyi vurğulanır. Qeyd olunur ki, Azərbaycan Ordusu Dağlıq Qarabağda müdafiə xəttini yararaq irəliləyib və hazırkı vəziyyət Ermənistan qoşunlarının strateji məğlubiyyətindən danışmağa imkan verir.

Müəllif Ermənistan və “DQR”in kəşfiyyat strukturlarının səriştəsizliyini diqqətə çatdıraraq yazır ki, Azərbaycan artıq yay aylarından Dağlıq Qarabağla sərhədə iki döyüş korpusunu və döyüşqabiliyyətli hissələrini cəmləmişdi. Qoşunların təmas xəttinə yaxın ərazilərdə anbarlar tikilir, təchizat sistemləri çəkilirdi. Ermənistan kəşfiyyatı nə bu, nə də Azərbaycanın çoxlu sayda silah alması barədə də rəhbərliyə düzgün məlumatlar verməmişdi.

Yevgeni Krutikovun fikrincə, ermənilər 1990-cı illərin əvvəllərində qazandıqları uğurların psixoloji təsirindən çıxa bilmirlər. Azərbaycan Ordusunun kəmiyyət və keyfiyyət baxımından üstünlüyünə baxmayaraq, ermənilər “biz o zaman qalib gəlmişdik, indi də Bakıya kimi gedərik” əfsanəsi ilə yatıb-dururdular. Paşinyanın rəhbərliyi dövründə Ermənistan kəşfiyyatının 3 rəhbəri vəzifəsindən azad edilmişdi və tanınmamış “DQR” bəzi rəhbərləri “ruslar bizə lazım deyillər, biz onlarsız da Bakıya piyada gedib çıxarıq” deyirdilər.

Materialda deyilir ki, “DQR”in hava hücumundan müdafiə sistemləri “Osa”, “Kruq” və “Kub” komplekslərindən ibarətdir. Lakin Azərbaycan İsrail və Türkiyə istehsalı olan PUA-lar aldıqdan sonra bütün bu yaxınradiuslu köhnəlmiş sistemlər artıq heç nəyə yaramır. Dağlıq Qarabağda hava hücumundan müdafiə sistemləri (HHMS) az, Azərbaycanın PUA-ları isə çoxdur. Üstəlik də Azərbaycan Ordusu ermənilərin HHMS-lərini raketlər və uzaqmənzilli artilleriya ilə sıradan çıxarıb. Ermənistan bu sahədə Azərbaycanla rəqabət apara bilmir. Yerevanın PUA-sının az olması Azərbaycanın batalyon taktiki qruplarına, az qala, paraddakı kimi hərəkət etmək imkanı verir.

Müəllif Dağlıq Qarabağın 25 il əvvəl qurulmuş müdafiə sisteminə arxalandığını, lakin bu illər ərzində Azərbaycan Ordusunun xeyli inkişaf etdiyini nəzərə almadığını vurğulayır. Azərbaycan qoşunlarının Laçının təxminən 10-15 kilometrliyində olduğunu və Laçın dəhlizinin itirilməsinin ermənilər üçün artıq strateji fəlakət olduğunu yazan rusiyalı analitik qeyd edir ki, onsuz da cəbhənin cənubunda xeyli ərazinin itirilməsi ermənilər üçün ciddi siyasi və mənəvi məğlubiyyətdir. Məhz cənub istiqamətdə irəliləyişi rəsmi Bakı biraylıq döyüşlərdə özünün mühüm qələbəsi və əsas siyasi nailiyyəti hesab edə bilər.

Materialda deyilir ki, xəritəyə baxarkən, Azərbaycanın mərkəzdən zərbə endirəcəyi, Qarqarçay boyunca irəliləyərək, Ağdamdan və Xocalıdan keçərək Xankəndinə çıxacağını düşünmək olardı. Elə ermənilər də 25 il ərzində məhz bu zonada müdafiəni bərkitmişdilər. Lakin Azərbaycan Ordusu bu zonada hücuma keçmədi. Burada yalnız qarşılıqlı artilleriya atışmaları müşahidə olunur. Buna görə də ermənilər mərkəzdə böyük canlı qüvvə saxlamağa məcburdurlar.

Müəllif vurğulayır ki, əməliyyat təşəbbüsü tamamilə Azərbaycan tərəfindədir və Azərbaycan Ordusu bütün cəbhə boyunca qüvvələrin yerini dəyişə, yeni planlar həyata keçirə, ehtiyat qüvvə gətirə bilir. Ermənilər isə cənubda “təhlükəsizlik kəməri”ni əldən verəndən sonra əks-hücum barədə düşünə belə bilmirlər. Bütövlükdə, bütün bunlar Ermənistan üçün siyasi sondur. Ermənilər indi yalnız passiv müdafiəyə hazırdırlar.

Sonda Yevgeni Krutikov ermənilərin Qarabağda hərbi revanşın Azərbaycanın əsas milli strategiyası olduğunu da nəzərə almadıqlarını qeyd edir.

# Həmkarlar İttifaqları Böyük Qayıdışa hazırlaşır

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə sentyabrın 27-dən başlayan Azərbaycan Ordusunun əks-hücum əməliyyatı, Qarabağ uğrunda döyüşlərin şiddətlənməsi tarixi torpaqlarımızın azad olunması ilə nəticələnməkdədir. Müharibə davam etsə də, artıq işğal altında olan bir çox kəndlərimiz və şəhərlərimiz azad olunub.



Azərbaycan xalqı Şuşa, Xankəndi, Laçın, Kəlbəcər, Ağdamın tezliklə azad olunacağına o qədər əmindir ki, artıq doğma torpaqlarımıza qayıdacağımız günlə bağlı planlar qurur.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında da müharibə davam edərkən "Böyük Qayıdış"a hazırlıq işləri aparılır, azad edilən ərazilərdə bərpa işləri ilə bağlı proqramlar nəzərdən keçirilir.

Ermənilər torpaqlarımızdan tariximizi, izlərimizi silmək üçün hər şeyi talan ediblər. Bütün tarixi abidələrimiz, muzeylər, qəbiristanlıqlar, məscidlər, tarixi əhəmiyyətli binalar, xatirə niyyətinə salınan bulaqlar xarabalıq vəziyyətinə salınıb.

Təəssüf ki, erməni işğalı Həmkarlar İttifaqlarının kurort, sanatoriya və müalicə müəssisələrindən də yan keçməmişdir. İşğaldan əvvəl Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının tabeliyində olan "Kurort" Səhmdar Cəmiyyətinin "Şuşa İstirahət Evi", Kəlbəcərdə "İstisu" sanatoriyası, "Azərbkolxozlararasısağlamlıq" Respublika Birliyinin Qubadlı rayonunda 200 yerlik pansionatı və "Farel" balıqçılıq təsərrüfatı, Cəbrayıl rayonunun Sirik kəndində 320 yerlik uşaq istirahət mərkəzi, Ağdam rayonunun Gülablı kəndində "Gülablı" sanatoriyası və "Nur" uşaq istirahət evi, 255 yerlik sanatoriyası, Azərbaycan Turizm və Ekskursiyalar Şurasının Şuşa şəhərində "Şəfa", Ağdamda "Şahbulaq" turist bazaları fəaliyyət göstərirdi. Çox təəssüf ki, bu sağlamlıq ocaqları erməni vandalizminin qurbanı olmuş və yerlə yeksan edilmişdir.

AHİK-in tərkibində fəaliyyət göstərən və işğala məruz qalan kurort, sanatoriya və müalicə mərkəzlərinin fəaliyyətinin tam bərpa edilməsi, yeni müalicə müəssisələrinin, istirahət evlərinin tikilməsi planlaşdırılır.

Azad olunandan sonra Qarabağ bölgəsi bir turizm cənnəti olaraq hər kəsin diqqət mərkəzində olacaq, doğma torpaqlarımızda əvvəlki kimi gözəl sanatoriyalar, müalicə müəssisələri salınacaqdır. Əvvəlkindən qat-qat yaxşı şərait yaradılacaqdır. Doğma şəhərlərimiz və kəndlərimiz dünyanın ən gözəl güşələrindən birinə çevriləcəkdir.

Eyni zamanda azad olunmuş rayonlarda Həmkarlar İttifaqlarına aid olan idman meydançaları, şahmat məktəbləri və digər idman qurğuları da yenidən qurularaq gənc nəslin istifadəsinə veriləcəkdir.

AHİK tərəfindən azad olunmuş şəhərlərimizdə ilk dəfə olaraq Həmkarlar İttifaqlarının mərkəzləri yaradılacaq və onlar üçün yeni inzibati binaların tikintisi həyata keçiriləcəkdir.

Əminik ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu tez bir zamanda torpaqlarımızı işğaldan azad edəcəkdir. Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa edildikdən sonra Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası da digər qurumlar kimi bütün quruculuq işlərində var gücü ilə çalışacaq və üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***

# Ermənistan ordusunun dinc əhalini hədəfə alması nəticəsində Bərdə rayonunda həlak olan mülki şəxslərin sayı dördə çatıb

Ermənistan silahlı qüvvələrinin saat 16 radələrində Bərdə rayonunun Qarayusifli kəndini müxtəlif istiqamətlərdən ağır artilleriya atəşinə tutması nəticəsində həlak olan mülki şəxslərin sayı dördə çatıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hadisə nəticəsində xəsarət alan şəxslərdən İsmayılov Ehtiram Xəlil oğlu da həlak olub.

Bununla da həlak olanların sayı dördə çatıb. Baş Prokurorluğun hadisə ilə bağlı ilk açıqlamasında düşmənin ağır artilleriya atəşi nəticəsində üç nəfərin - Cəfərova Ofeliya Məcid qızının, Əhmədova Aybəniz Əşrəf qızının və 2013-cü il təvəllüdlü İsgəndərova Aysu Rövşən qızının həlak olduğu, 7 nəfərin isə xəsarət aldığı bildirilmişdi.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilməklə zərərçəkmiş şəxslərin siyahısının dəqiqləşdirilməsi üzrə işlər aparılır.

# Ermənistanın uşaqlara qarşı müharibəsi davam edir

*Əvvəli 1-ci səh.*

Təəssüf ki, Azərbaycan xalqı bu cür vandal xüsusiyyətli bir düşmənlə qonşuluqda yaşamaq kimi talesiz bir qismətə sahibdir və bu bəxtsizliyinin də illər boyu acısını çəkib.

Dünyaya qan tökmək missiyası ilə gələn faşist ideologiyalı erməni vandallarının törətdikləri 1918-ci il mart soyqırımı, 1992-ci ilin Xocalı soyqırımı, əsir götürdükləri soydaşlarımızın başına gətirdikləri müsibətlər heç kəsin yadından çıxmayıb, dünya durduqca erməni adının qarşısına qara ləkə kimi vurulub.

Tarix boyu azərbaycanlılar erməni millətçi-şovinistlərinin etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalıb, tarixi torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib. Və bütün bunlar kütləvi qırğınlarla, insanlığa yaraşmayan vəhşiliklərlə müşayiət olunub.

Onların azərbaycanlı mülki əhalinin, xüsusilə də uşaqların başına açdıqları müsibəti dilə gətirməyə belə insan çətinlik çəkir. Çünki buna ürək dözmür. Amma erməni faşistlər bu cür çirkin əməlləri gözlərini belə qırpmadan törədirlər və bununla fəxr edirlər...

## Döyüşdən qaçan düşmən silahını mülki əhaliyə tuşlayır

Erməni isminin sifəti hər zaman qorxaq olub. Açıq savaşda, hünər meydanında, döyüşdə, cəngdə, üz-üzə mübarizədə görə bilməzsən onları. Onlar fürsətcil, əliyalın insanlar üzərində güc sınayan, uşaqlara silah tuşlayan, gecə qaranlığında, yatmış insanlara hücuma keçən namərd xislətlilərdir. Hər zaman belə olub, bəd əməlliklərinə, xainliklərinə xas olaraq döyüş meydanındakı məğlubiyyətlərinin acısını mülki insanlardan almağa çalışıblar.

Lələtəpədə, Günnütdə, bu ilin iyul ayında Tovuzda rəşadətli Ordumuz tərəfindən hərb meydanında layiqli cavab alaraq yerinə otuzdurulan ermənilər yenə də mənfur əməllərindən əl çəkmirlər. Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Sentyabrın 27-dən etibarən hərbi təxribatlara başlayan işğalçı Ermənistanın faşist rejimi "ənənəsinə" sadiq qalaraq yenə də çirkin simasını göstərir, şəhər və kəndlərimizi, dinc əhalini hədəf almaqdan çəkinmir. Qəhrəman əsgərlərimiz tərəfindən döyüş meydanında it kimi qovulan bu qorxaqlar son çarə kimi yenə də məkrli planlara, təxribatlara əl atırlar. Belə ki, Azərbaycan Ordusunun düşmənin yalnız hərbi obyektlərini nişan almasına baxmayaraq, Ermənistanın silahlı qüvvələrinin hədəfi mülki əhalimizdir.

Ermənistan özünün israrlı xahişləri əsasında razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini hər dəfə pozaraq Azərbaycanın yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutur, mülki evləri və sosial obyektləri dağıdır. Tarix boyu olduğu kimi, yenə də erməni vandallarının hədəfi qocalar, körpələr, uşaqlardır...

Ermənistan ordusunun Gəncədə əhalinin sıx yaşadığı məntəqələri raket atəşinə tutması nəticəsində ağır yaralanmış və müalicə olunduğu xəstəxanada vəfat edən Rusiya Federasiyası vətəndaşı 13 yaşlı Artur Mayakov da ermənilərin törətdikləri növbəti qanlı terror aktının qurbanıdır. 16 yaşlı yeniyetmə İsmayılzadə Orxan isə oktyabrın 24-də Ermənistan ordusu tərəfindən Tərtər şəhərinə "Smerç" raketi atılması nəticəsində evlərinin həyətində həlak oldu. Düşmənimizin nə qədər alçaq, murdar xislətli olduğunu bütün dünya bir daha gördü.



## Qatil ermənilər 10 fidanımızın ömrünü yarıda qırdı

Baş Prokurorluğun Ermənistanın Gəncəyə 3 dəfə raket atması nəticəsində mülki əhaliyə dəyən ziyanla bağlı məlumatına əsasən, 4, 11 və 17 oktyabr tarixlərində raket və ağır artilleriya hücumları nəticəsində Gəncə şəhərində 10 qadın, 6 uşaq olmaqla 26 nəfər həlak olub, 138 nəfər yaralanıb, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Sentyabrın 27-dən oktyabrın 26-dək Ermənistan təxribatı nəticəsində Azərbaycanda mülki şəxslərdən ümumilikdə 65 nəfər həlak olub, onlardan 18-i qadın, 10-u uşaqdır. 297 nəfər yaralanıb, onlardan 69-u qadın, 32-si uşaqdır.

Göründüyü kimi, şanlı Ordumuzla döyüş meydanında üz-üzə gəlməyə cürət etməyən düşmən Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, fərdi və çoxmənzilli yaşayış binalarını, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutaraq dağıntı və yanğınlar törədir, dinc əhalinin, eləcə də dövlətin əmlakına ciddi ziyan yetirir.

Ermənistan bu əməlləri ilə sivil dəyərlərdən kənar, mülki insanlara və azyaşlı uşaqlara qarşı xain hücumlar törədən terrorçu ölkə olduğunu növbəti dəfə sübut etdi və bu sadalananlar erməni faşizminin eybəcər sifətinin növbəti təzahürüdür.

Bu hərbi cinayət əməlləri bir daha sübut edir ki, işğalçı ölkə əldə olunan razılaşmaya, imzaladığı sənədə heç vaxt əməl etmir. Bütün beynəlxalq konvensiyaları kobud şəkildə pozaraq tarixdəki alçaq və çirkin əməllərini davam etdirir.

Amma Azərbaycan xalqı heç zaman işğalla barışmayıb və indi də Ermənistanın məkrli planlarla yurdumuzdan qoparmağa çalışdığı tarixi əzəli torpaqlarını geri qaytarmaq üçün beynəlxalq hüquq və normalar çərçivəsində mübarizəsini aparır. Müzəffər Ordumuz azğın düşmənə layiqli yerini göstərir, torpaqlarımıza göz dikən, əlinə fürsət keçdikcə vətəndaşlarımıza qarşı soyqırımı törədən, uşaqlarımızı öldürən terrorçu Ermənistanı ədalət qarşısında cavab verməyə və diz çökməyə məcbur edir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# XİN Ermənistanın Bərdəyə raket hücumu ilə bağlı açıqlama yayıb

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, açıqlamada deyilir: *"Oktyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Bərdə rayonuna "Smerç" yaylım atəşli reaktiv sistemdən atılan raket atəşləri nəticəsində 4 nəfər mülki şəxs, o cümlədən azyaşlı uşaq həyatını itirib və aralarında uşaqlar və qadınlar olmaqla 13 nəfər ciddi xəsarət alıb. Bu, son günlər ərzində beynəlxalq vasitəçilərin davamlı səyləri ilə üçüncü dəfə razılaşdırılmış humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistanın beynəlxalq humanitar hüquq öhdəliklərini heçə sayaraq törətdiyi növbəti müharibə cinayətidir. İki ölkənin xarici işlər nazirlərinin Cenevrədə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə keçirəcəyi görüşü ərəfəsində Ermənistan silahlı qüvvələri tərəfindən növbəti qanlı cinayətin törədilməsi, təcavüzkar Ermənistanın münaqişənin siyasi həllində maraqlı olmadığının və hər vəchlə danışıqlara maneə törətmək məqsədi güddüyünün bariz göstəricisidir. Azərbaycanın dinc əhalisinə qarşı insanlıq əleyhinə cinayətin törədilməsinə görə Ermənistanın siyasi-hərbi rəhbərliyi tam məsuliyyət daşıyır. Cinayətkarların ədalət məhkəməsi qarşısında cavab verməsini təmin etmək üçün beynəlxalq ictimaiyyəti qəti mövqe sergiləməyə çağırırıq".*

# Ermənistanın uşaq hüquqlarını pozmasının dayandırılması üçün beynəlxalq təşkilatları lazımi tədbirlər görməyə çağırırıq

Son günlər sosial mediada Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində uşaqlardan əsgər kimi istifadə etdiyini nümayiş etdirən videolar geniş yayılıb.

Təxminən otuz ildir ki, Azərbaycan Respublikasında yüz minlərlə uşaq Ermənistanın davamlı təcavüzündən və bunun uzunmüddətli təsirlərindən əziyyət çəkir. Ancaq göründüyü kimi, Ermənistan nəinki azərbaycanlı uşaqların hüquqlarını pozmağa davam edir, hətta erməni uşaqların da hüquqlarını pozmaqdan çəkinmir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "Ermənistan hərbi əməliyyatlarda uşaqlardan istifadə etməklə mülki əhalinin qorunmasına dair IV Cenevrə Konvensiyası və "Uşaqlar xüsusi hörmət obyektinə çevrilməli və hər cür ədəbsiz hücumdan qorunmalıdır" deyən I Əlavə Protokolun uşaqların müdafiə olunması zəmanətini pozur.

Ermənistan bu cür hərəkətləri ilə BMT-nin Uşaq Hüquqları Konvensiyasında, uşaqların silahlı qarşıdurmaya cəlb olunmasına dair Fakultativ Protokolda, xüsusən də 1-ci və 2-ci maddələrində təsbit olunmuş uşaq hüquqlarını kobud şəkildə pozur.

Uşaqları döyüşçü kimi istifadə edərək Ermənistan onları əsas hüquqlarından, xüsusən yaşamaq və qorunmaq hüququndan məhrum edir, çünki uşaqlar döyüşçülər kimi hərbi hədəf ola bilərlər.

Özünü təhlükəsiz məktəblər haqqında bəyannamənin "müdafiəçiləri"ndən biri kimi təqdim edən Ermənistan məktəb binalarını hərbi məqsədlər üçün istifadə etməkdən belə çəkinmir və bununla da gələcək nəslin qorunmasına hörmətsizliyini bir daha nümayiş etdirir.

Ermənistan tərəfindən beynəlxalq konvensiyalara və beynəlxalq humanitar hüquq öhdəliklərinə açıq şəkildə məhəl qoyulmadan uşaq hüquqlarının pozulmasını qətiyyətlə pisləyirik və müvafiq beynəlxalq təşkilatları bu qanunsuz təcrübəni hərtərəfli araşdırmağa və Ermənistan tərəfindən uşaq hüquqlarının pozulmasının dayandırılması üçün lazımi tədbirləri görməyə çağırırıq".

Ziyalı sözü

# Haqq uğrunda savaş müqəddəsdir



Azərbaycan xalqının haqq savaşını aparan Milli Ordumuzun, az qala, hər gün qazandığı qələbənin, eşitdiyimiz xoş xəbərlərin illər uzunu idi ki, həsrətini çəkirdik. Nəhayət, hər şeyin zamana ehtiyacı olduğunu bir daha gördük və yaşadıq.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev dəfələrlə öz çıxışlarında göstərdiyi kimi, biz işğalçıları öz torpaqlarımızdan çıxarmaq üçün lazım olan cavabı veririk. Ermənistan bundan nəticə çıxarmaq əvəzinə, dinc əhalimizi, böyük, tarixi şəhərlərimizi atəşə tutur, həm də müharibənin qanunlarına zidd əməlləri ilə. Tovuzdan başlayıb, Gəncə, Naftalan, Tərtər, Goranboy, ümumiyyətlə, cəbhəboyu ağır artilleriyadan Azərbaycanın mülki əhalisini hədəf seçən ermənilər bunun bədəlini ödəmək haqqında fikirləşmədirlər. Əksinə, öz mənfur hərəkətlərini ört-basdır etmək, itkilərini erməni analarından gizlətmək üçün daha çirkin siyasətə əl atırlar.

Bu gün Ermənistan rəhbərliyi yaxşı fikirləşməlidir. Rəşadətli Ordumuz, başda Ali Baş Komandan İlham Əliyev olmaqla, onları diz çökdürmüşük, düşmənə layiq olan yerini göstərmişik. Mənfur düşməni necə lazımdırsa qovuruq, çünki işğal etdikləri bu torpaqlar bizim əzəli-əbədi yurdlarımızdır. Maşallah olsun, hər gün xoş xəbərlər gəlir. Hər gün bayrağımız işğaldan azad edilmiş yeni bir yaşayış məntəqəsində ucaldılır. Budur, Azərbaycan dövlətinin, Azərbaycan xalqının gücü! Ali Baş Komandan İlham Əliyev deyir: "Otuz il ərzində Ermənistan rəhbərliyi "güclü ordusu" haqqında uydurmalar ortalığa atırdı, "yenilməz Ermənistan ordusu" barədə miflər yaradırdı. Haradadır bu "yenilməz" Ermənistan ordusu?! Görün, necə qaçır qabağımızdan. Bu, mif, yalan idi. Bunu darmadağın etdik... Otuz il idi ki, işğal edilmiş torpaqlarda abidələrimizi dağıdırdı, tarixi-mədəni irsimizi silmək istəyirdi. Otuz il ərzində beynəlxalq aləm nə üçün sanksiya tətbiq etmədi təcavüzkar dövlətə qarşı? Mən dəfələrlə demişəm ki, sanksiyalar tətbiq edilməlidir. Bu ölkə, bu ölkənin rəhbərliyi öz xoşu ilə bu torpaqlardan çıxmaq istəmir".

Bəli, dövlət başçısının qeyd etdiyi kimi, məcburi köçkünlərimiz bir arzu ilə yaşayıblar, baxmayaraq ki, onların bir çoxları üçün gözəl şərait yaradılıb. Təkcə bu il məcburi köçkünlər üçün 7 min mənzilin istifadəyə verilməsi nəzərdə tutulub. 300 mindən çox məcburi köçkünə evlər, mənzillər verilib. Lakin doğma yer-yurdundan didərgin salınmış bir milyondan artıq soydaşımızın həyat şəraiti nə qədər yaxşılaşsa da, onların arzusu, istəyi itirdikləri əzəli yerlərə dönməkdir.

Qarabağlıların yurd həsrətinə son qoyulur. Artıq Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları düşməndən azad edilib. Yüz minlərlə məcburi köçkünün yurd həsrətinə son qoyulub.

Şuşaya doğru gedirik. Tam Qələbəmizi Şuşada qeyd edəcəyik, çünki Şuşa bizim milli mənəviyyatımızın rəmzidir. Şuşanın işğaldan azad edildiyi gün biz mədəniyyət və incəsənət işçilərinin əsl bayramı olacaq. O gün Şuşanın dağlarının başından duman çəkiləcək, İsa bulağı, Cıdır düzü... yeni növrağına qovuşacaq, çünki özünün doğmalarını qoynuna alacaq. O gün uzaqda deyil. Bəlkə də günlər qalıb o vüsal görüşümüzə...

***Mənsum İBRAHİMOV,***
***Xalq artisti, professor***

# Ermənistan humanitar atəşkəs rejimini kobudcasına pozaraq mülki obyektləri atəşə tutmaqda davam edir

Ermənistan silahlı qüvvələri humanitar atəşkəs rejimini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən atəşə tutmaqla dağıntı və yanğınlar törətməkdə davam edir.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, oktyabrın 27-də Ermənistan silahlı qüvvələrinin ağır artilleriya zərbələri nəticəsində Bərdə rayonunun Qarayusifli kəndində 5 fərdi evə ciddi ziyan dəyib. Əraziyə Fövqəladə Hallar Nazirliyinin müvafiq qüvvələri cəlb edilib. Düşmənin ağır artilleriya atəşləri nəticəsində 13 mülki şəxs xəsarət alıb, 4 nəfər həlak olub.

Hazırda axtarış-xilasetmə əməliyyatı davam edir. Əlavə məlumat veriləcək.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyi hazırda gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - "qaynar" telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

# *Türkiyə XİN:* "Vicdanı və məsuliyyəti olan ölkələri Ermənistanın müharibə cinayətlərinə "dayan" deməyə çağırırıq"

Ermənistanın oktyabrın 26-da elan olunan atəşkəsə məhəl qoymadan Azərbaycanda cəbhə bölgəsindən uzaqda mülki yaşayış yerlərini hədəfləyən davamlı hücumları ilə bütün insani və əxlaqi dəyərləri ayaqlar altına atmaqdadır. AZƏRTAC xəbər verir ki, bu ifadələr Türkiyə Xarici İşlər Nazirliyinin açıqlamasında əksini tapıb.

Açıqlamada deyilir: "Ermənistan silahlı qüvvələrinin bu gün axşam saatları Bərdə şəhərinə endirdiyi raket zərbələri ilə biri iki yaşında uşaq olmaqla dörd mülki şəxs həlak olub, 13 nəfər yaralanıb. Həyatını itirən qardaşlarımıza Allahdan rəhmət, Azərbaycan xalqına başsağlığı, yaralılara şəfa diləyirik. Ermənistanın insanlıq əleyhinə hücumlarını ən kəskin şəkildə qınayır, vicdanı və məsuliyyəti olan ölkələri Ermənistanın davam etdirdiyi müharibə cinayətlərinə "dayan" deməyə çağırırıq".

Minsk qrupu həmsədrlərinin təşəbbüsü ilə bugünə qədər elan edilən üç atəşkəsin hər birinin Ermənistan tərəfindən pozulması xatırladılan açıqlamada "bu pozuntulara həmsədrlərdən hər hansı reaksiya gəlməməsini mənalı hesab edirik" ifadəsi yer alıb.

# Pandemiya və müharibə Ermənistanın iflasını sürətləndirir

## Azərbaycanın qələbəsi işğalçı ölkədə bütün istiqamətlərdə tənəzzülü dərinləşdirib

*Əvvəli 1-ci səh.*

Müxalif cəbhədə birləşib sürpriz hazırlayanlar təkcə Paşinyana görə istefaya məcbur edilən Serj Sarkisyan və onun Respublikaçılar Partiyası yox, həm də Robert Koçaryanın komandası və yeni hökumətin gəlməsindən sonra narazı qalan oliqarxlardır: "Əgər müharibə dayanmasa, koronavirus pandemiyası fonunda bərbad vəziyyətə düşən sosial-iqtisadi həyatda az da olsa nəzərəçarpan nəticələr olmasa, Nikol Paşinyan hakimiyyəti öz mövqelərini və sosial dayaqlarını tam itirəcək. Əvvəlki rəhbərliyin nümayəndələri - söhbət təkcə respublikaçılardan yox, həm də Koçaryan qanadından gedir - ilin sonunda Paşinyana ciddi sürprizlər etməyi planlaşdırırlar. Lakin bu sürprizin hansı formatda və növdə olacağını öyrənə bilmədik, çünki proses hələ müzakirə mərhələsindədir və ciddi hazırlıq davam edir".

"4rd.am" saytı yazır ki, davam edən müharibə hakimiyyət dəyişikliyi nəticəsində hətta millət vəkili olmuş insanların belə siyasi təcrübəsinin olmadığını, onların böhran vəziyyətlərinə dözmədkilərini, emosiyalara tabe olduqlarını göstərdi: "Ermənistanda siyasi sistem hakimiyyət dəyişikliyindən sonra faktiki olaraq dağıldı və bu gün yalnız Nikol Paşinyan var. Müharibə isə onun siyasi çöküşünü sürətləndirir. Gedişat onu göstərir ki, hökumətdə və parlament fraksiyasında hamı ona qarşı çıxmağa başlayacaq".

Ermənistandakı reallıq ondan ibarətdir ki, müharibə və koronavirus Paşinyan hakimiyyətinin reytinqini sıfıra endirib. Eyni zamanda dərin sosial-iqtisadi tənəzzül hakimiyyətlə xalq arasında uçurumu genişləndirərək sosial gərginliyi də artırıb. Ölkənin sosial problemlərin aradan qaldırılması üçün kifayət qədər siyasi, iqtisadi resurslara malik olmaması da baş verən proseslər fonunda daha çox diqqəti çəkir.

Bu günlərdə sosial şəbəkələrin ermənidilli seqmentini insanların müharibədən yayınmaq üçün saxta COVID-19 arayışı almaları zəbt edib. Paylaşımlarda qeyd olunur ki, cəbhəyə gedib döyüşmək istəmədiklərinə görə imkanı olanlar 1000-2000 dollar arası pul ödəyərək saxta arayışlar alırlar.

Ermənistanda hər gün koronavirusa minlərlə yeni yoluxma qeydə alınır. Bu isə Qarabağda ölmək istəməyən ermənilərə əlverişli fürsət yaradıb. Belə ki, ölkədə koronavirusa yoluxma barədə saxta arayışlar alaraq ordudan yayınma halları baş verir. "4rd.am" saytı yazır ki, Ermənistan xüsusi xidmət orqanları koronavirusa yoluxma bəhanəsi ilə Qarabağda döyüşmək istəməyən bir nəfəri həbs edib. Məlumatda bildirilir ki, həmin vətəndaşın atası tibb müəssisəsinin həkimi və laborantı ilə dil taparaq oğlunun koronavirusa yoluxduğu barədə oktyabrın 23-də saxta arayış alıb. Arayış başqasının bioloji nümunəsi əsasında verilib. Bununla da həmin adam oğlunu bir müddət səfərbərlikdən yayındırıb.

Lakin Ermənistanda saxta arayış alanların sayı kifayət qədər çoxdur və onların hamısını həbs etmək ölkədəki dərin problemlər fonunda mümkün deyil. Onu da qeyd edək ki, Qarabağda döyüşmək üçün könüllülərin sayı da kəskin azalıb və indi hakimiyyət orqanları yerli administrasiyaların rəhbərləri qarşısında hərəyə bir batalyon təşkil etmək öhdəliyi qoyub.

Bu arada N.Paşinyan ermənilərə döyüşmələri üçün yalvarmağa başlayıb. O, sosial şəbəkədə qadınlara müraciət edərək deyib ki, onlar ərlərini və oğullarını saxlamamalıdırlar. Özünə gəldikdə isə, Paşinyan vəzifəsini bəhanə edib.

Ümumiyyətlə, cəbhədə gedən döyüşlər bu ölkənin ordusundakı acınacaqlı durumun hökm sürdüyünü ortaya çıxarıb. Ermənistanda zabitlər əsgərlərə vətənin müdafiəçiləri kimi deyil, şəxsi varlanmalarını təmin edən mənbə kimi baxırlar. O da vurğulanır ki, ölkənin müdafiə nazirliyi heç də bütün itkilər haqda məlumat vermir və əksəriyyətini gizli saxlayır. Eyni zamanda müharibə fonunda hərbi hissələrdə nizamnamədən kənar münasibətlər nəticəsində cinayətlər və fərarilik baş alıb gedir.

Beləliklə, Ermənistan işğalçı siyasətinin nəticəsi olaraq çox ciddi siyasi və iqtisadi tənəzzülə qədəm qoyub. Azərbaycan cəbhədəki qələbələri ilə yalnız işğal altındakı torpaqlarını azad etmir, həm də Ermənistanda cəmiyyət həyatının hər bir sahəsini tənəzzülə uğradır. Ona görə üfüqdə Ermənistan üçün ümidverici heç nə görünmür.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Qələbə alqışları sizindir, Ali Baş Komandan və Azərbaycan əsgəri!

## Salam, Qubadlı - dağlar diyarı, qəhrəmanlar yurdu!











İnsanın əlindəki beş barmağın heç biri digərlərinin eyni deyil. Xalq arasında yayılmış və teztez səslənən deyim isə daha bir həqiqəti təsdiqləyir: barmağın hansı kəsilsə, ağrısı eyni olur. Çünki onların hamısı bir biləkdən ayrılır, bir cana bağlıdır... 30 ilə yaxındır yağı tapdağında inləyən yurd yerlərimizin hər birinin həsrəti də qəlbimizi bax, beləcə göynədirdi.

Şuşa, Xankəndi, Ağdam, Füzuli, Laçın, Kəlbəcər, mənfur erməni faşistlərinin neçə illər idi işğal altında saxladığı digər bölgələr, doğma məkanlar, yurdumuz, yuvamız, məskənimiz... Hərəsinin də öz yeri, öz gözəlliyi, öz sərvəti, öz dəyəri var. Hər biri doğma və əzizdir. Həm də təkcə orada doğulub böyüyənlər, yaşayanlar üçün deyil, hər birimiz üçün. Çünki hərəsi Azərbaycanın bir qolu, bir budağı, ayrılmaz bir parçasıdır. Azərbaycan isə hamımızın bir Vətənidir.

Odur ki, Prezident, Ali Baş Komandan İlham Əliyevdən hər kəndimizin, hər şəhərimizin işğaldan azad olunduğu barədə növbəti qələbə xəbərini eşidəndə eyni sevinci yaşayır, eyni kövrək və həm də qürurlu hisslər keçiririk. Qubadlı şəhərinin və rayonun bir sıra kəndlərinin işğalçılardan azad edilməsi də hamımıza məhz həmin duyğuları yaşatdı.

Dövlət başçısı hərbi birlik komandirləri Yaşar Həsənovu və Zaur Quliyevi təbrik edəndə, təbrik və təşəkkürlərinin bütün şəxsi heyətə çatdırılmasını tapşıranda bütün qəlbimizlə biz də ona qoşulduq. Dillərdən qeyri-ixtiyari “Salam, Qubadlı!” kəlmələri qopdu. Qələbə sevincindən hər birimizə bolluca pay düşsə də, ilk növbədə, tanıdığımız, ünsiyyətdə olduğumuz, bir idarədə çalışdığımız, qonşuluqda yaşadığımız qubadlılıları yada saldıq, onlara gözaydınlığı verməyə tələsdik.







Bu da bir həqiqətdir ki, hər hansı coğrafi məkanın adı çəkiləndə dərhal o yerin görkəmli insanlarının da adlarını xatırlayırsan. Əslində bu, təbiidir, çünki hər bir yerin insanları onun başlıca sərvətlərindəndir. Bu baxımdan Qubadlı mərd, istedadlı, zəhmətkeş, mehriban insanlar yurdudur.

Çoxları bu bölgəni qəhrəmanlar və yazarlar vətəni kimi tanıyır. Qaçaq Nəbi, Qaçaq Mehdi, qoçaq Həcər hünərlərini xalqımızın qəhrəmanlıq tarixinə Qubadlının qoynunda yazıblar. Bu qəhrəmanlıq ənənələri nəsildən-nəslə keçərək yaşayır.

“Hər zaman öz qəhrəmanlarını yetişdirir” deyiblər. Təsadüfi deyil ki, günümüzün də öz qəhrəmanları var, Milli qəhrəmanlar Əliyar Əliyev və polkovnik Şükür Həmidov kimi. Əliyar Əliyev birinci Qarabağ savaşının qəhrəmanı idi. Şükür Həmidov isə 2016-cı ilin Aprel döyüşlərində Lələtəpə yüksəkliyinin azad edilməsində şücaət göstərmiş, həmin il aprelin 22-də Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdü.

Döyüş yolları polkovnik Həmidovu doğulub böyüdüyü yerlərə gətirdi. Növbəti qəhrəmanlığını da doğma torpağında, əziz kəndində göstərdi və bu yolda canından keçdi. Bu bir tale, bir qismət, Şükür kimi igidlər üçün isə həm də səadətdir.

Bir sözlə, Qubadlının bu cür igid övladları Azərbaycan tarixinə yeni səhifələr yazırlar. Və “yazmaq” deyəndə elə həmin an xalq yazıçısı Süleyman Rəhimov yada düşdü. Axı əlinə qələmi ilk dəfə burada götürüb böyük ədibimiz, uzun yazıçılıq yoluna Qubadlıdan çıxıb.

Qubadlının yaşıl çətirli meşələri, zümzüməli bulaqları, daraqdiş dağları, şəlaləli Bərgüşad və Həkəri çayları daha neçə şairə, nasirə ilham verib. Elə bu təbiət təsvirini də Qubadlının övladı olan yazıçı-yurnalist Cəlal Bərgüşadın “Bozatın belində” romanından xatırladıq.

Bu gün doğma Qubadlısının işğalçılardan azad edilməsi münasibətilə Azərbaycan jurnalistikasında öz yeri, öz dəstxəti olan ağsaqqal yazarımız Əli İldırımoğluna gözaydınlığı vermək keçir könlümüzdən.

Həyatdan erkən köçmüş istedadlı şair Eldar Baxışın isə ruhu rahatlıq tapır indi. Uzun illər çiyinçiyinə çalışdığımız əziz qələm dostumuz Famil Abbasovun da qoy ruhu şad olsun bu gün. Çox sevdiyi ana yurdunun, ata ocağının işğalda olması böyük dərd idi ona...

Hörmətli həmkarımız Dağbəyi İsmayılov da o torpaqdandır. Oğlu Elğünü uşaqlıqda çox aparmışdı Qubadlı dağlarına. Ağaclara, qayalara dırmaşan balaca Elgünün qəlbinə yurd sevgisi elə həmin vaxtlardan hopmuş və sonra rişələnərək böyük Vətən sevgisinə çevrilmişdi. O sevgi ki, Elgünü 1994-cü ildə şəhidlik zirvəsinə yüksəltdi.

Elgün İsmayılov həm də bizim iş yoldaşımız idi, “Azərbaycan” qəzetində çalışırdı... 20 yaşında Murovdağın zirvəsində şəhid oldu...

Bu gün Qarabağda torpaqlarımızı yağı tapdağından xilas edən igidlərimiz də Azərbaycanın müxtəlif bölgələrində doğulub, boya-başa çatmış əsgər və zabitlərdir. Onlar üçün Azərbaycanın hər qarış torpağı Vətəndir. Prezident, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, bu gün bizim ən böyük gücümüz yumruq təki bir olmağımızdadır. Qələbələrimizin rəhni də bundadır!

Çoxsaylı yaşayış məntəqələrimizi, o cümlədən Qubadlı rayonunun mərkəzini və bir sıra kəndlərini də məhz bu birliyin gücü ilə vəhşi pəncəsindən xilas etmişik və birlikdə də deyirik: “Salam, Qubadlı, gözəlliklər diyarı, əməksevər insanlar, qəhrəmanlar və yazarlar yurdu! Tezliklə gələcəyik, yenidən çırağını yandıracaq, qoynunda yaşayacaq, qurub-yaradacağıq. İşğaldan azad ediləcək daha neçə kəndimizlə, bölgəmizlə də bax, beləcə görüşəcəyik!”

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Arzular çin olur



Torpaqlarımızın 30 il işğal altında olduğunu bütün dünya bilirdi. Bilirdi, amma səsini çıxarmırdı, susurdu. Amma biz bundan sonra susa bilməzdik. Tarix və gələcək nəsil bunu bizə bağışlamazdı.

Bu gün işğal altındakı ərazilərimiz Ali Baş Komandanın qətiyyəti və müzəffər ordumuzun gücü sayəsində azad edilir. Hər gün cəbhədən gələn xəbərləri hər bir Azərbaycan vətəndaşı səbirsizliklə gözləyir və zəfər yürüşümüzün hər addımını alqışla qarşılayır.

Oktyabrın 25-də Qubadlı rayon mərkəzini və bir neçə yaşayış məntəqəsini ordumuzun azad etməsi xəbəri qubadlılıların məskunlaşdığı Sumqayıtda böyük coşquya səbəb oldu. Səhər açılar-açılmaz Sumqayıt şəhərində yerləşən Qubadlı Rayon İcra Hakimiyyəti binasının qarşısına insanlar axışdı. Sifətlərdəki sevinc o qədər böyük idi ki, onu sözlə ifadə etmək çətindir. Qocalı-cavanlı hamı bir-birini təbrik edir, qələbə şüarları səsləndirirdi.

Onlara yaxınlaşıb fikirlərini öyrənmək üçün müraciət etdik. Sevinci gözlərində parlayan Allahverdi Haxverdiyev dedi:

- Yurdumuzun işğal olunduğu anlar gözlərimizin önündədir. Ötən müddətdə içimizdə qövr edən həsrət illər ötdükcə sönmür, əksinə, közərirdi. Çoxumuz yuxularımızda o yerləri dolanır, ayıldıqda bunun yuxu olduğu üçün təəssüflənirdik. Vətən müharibəsi başlayandan ordumuzun zəfər yürüşünü izləyir, döyüşçülərimizin qələbə marşını alqışlayırdıq. Televiziya ekranından Ali Baş Komandan İlham Əliyevin Qubadlının azad edilməsi xəbərini sevinc göz yaşları ilə qarşıladıq. Mən o yerlərin havasını udub, suyundan içmişəm. İçimdə həmişə bir hiss daim məni ora çəkib. Azad edilmiş ərazilərdə ermənilərin vandallığını görəndə əvvəl təəssüfləndim. Sonra düşündüm ki, biz qurub-yaradan xalqıq, az zaman kəsiyində hər şeyi yoluna qoyacağıq.

İslam Abbasov yunan-Roma güləşi üzrə dünya və Avropa çempionudur. Hər bir qələbəsini doğma Azərbaycana həsr edən İslam sevincini bizimlə belə bölüşdü:

- Mən heç vaxt Qubadlıda olmamışam. Amma atam o yerlər barəsində bizə o qədər danışıb ki, mən özümü o torpaqları görmüş kimi sanıram. Hər il rayonumuzun işğal günü anılanda atam nə zamansa qələbə gününü qeyd edəcəyimizi deyirdi. Bu qələbələr xalqımızın var olduğunu sübut edir. Fərəh hissi böyük sevgidən yaranır və insan onu uzun müddət unutmur. Gördüyün işdə, qazandığın uğurda fərəh hissi səninlə olur. Torpaqlarımızın azad edilməsi ordumuzun Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bizə yaşatdığı ən böyük fərəhdir.

Namiq Abasov Qubadlı rayon Gənclər və İdman İdarəsinin rəisidir. Daim gənclərlə bir yerdə olan N.Abasov qələbə duyğularını bizimlə paylaşdı:

- Rayonumuzun işğaldan azad edilməsi ilə 27 ilin həsrəti bitdi. Bu gün qubadlılı gənclər döyüş bölgəsində düşmənlə üzbəüzdür. Arxada qalan gənclərimiz isə könüllü kimi cəbhəyə getməyə hazırdır. Bu bir sevgidir ki, onu heç nə ilə əvəz etmək mümkün deyil. Ordumuzu və Ali Baş Komandan İlham Əliyevi Allah qorusun. Tam qələbəni Ali Baş Komandanın dilindən eşidəcəyimiz günü gözləyirik. O günə isə az qalıb!

Rasim Hüseynov bizimlə söhbətinə keçməzdən əvvəl göz yaşlarını saxlaya bilmədi. Yalnız bir qədər sonra öz sevincini ifadə etdi:

- Mən Sumqayıtda doğulub böyümüşəm. Ailəmiz 1960-cı illərdə atamın işi ilə əlaqədar Qubadlıdan Sumqayıta köçüb. Rəhmətlik atam həmişə gənclik illərindən danışanda içindəki nisgili gizlədə bilmirdi. O yerlərin bulaqlarından, dağ havasını udan sağlam əqidəli insanlarından söz açardı. Bir dəfə dedik ki, bura bəyəm pisdir? Kişinin qaşları çatıldı və bizə cavab verdi ki, insan harda doğulub böyüyürsə, həmin yerlərin zaman daşıyıcısına çevrilir. Əgər o yurda axirətdə də köçmürsə, ruh incikliyi yaranır. Yalnız azad torpaqlarda ruh dincəlir. Ali Baş Komandanımız və ordumuz bu günlər neçə nisgilli ruha rahatlıq verdi. Bu qələbələrin arxasında birliyimiz dayanır. Allah daha böyük qələbələri tariximizə yazmaqda Ali Baş Komandanımıza, əsgərlərimizə yardımçı olsun! Bir də istərdim ki, o yerlərin bərpasında bizlər gedib çalışaq. Bu savaşda gənclərimiz döyüşür. Vallah, məni də aparın cəbhəyə demişəm, deyiblər olmaz. Amma indi evdə sakit oturmaq zamanı deyil.

Nəriman Həmidov Qubadlının ağsaqqallarından biridir. Üzündən nur tökülən bu insan öz fikirlərini bizimlə də bölüşdü:

- Bizim Qubadlı camaatımız mərddir. 1993-cü ildən bəri çətinliklərə dözüb, amma qəlbində vətən sevgisi sönməyib. Bu duyğu həmişə bizimlə olub və yolumuza şəfəq saçıb. Bir qədər geriyə qayıtmaq istəyirəm. Doğulub böyüdüyüm Qubadlı rayonu Qarabağın gözəl məkanlarındandır. Şimaldan Laçın, şərqdən Cəbrayıl, cənubdan Zəngilanla həmsərhəd olan rayonumuz tarixi-mədəni, dini abidələrlə zəngindir. Burada IV əsrə aid “Gavur dərəsi” ibadətgahı, “Qalalı” və “Göyqala” abidələri, “Dəmirçilər türbəsi” və digər tarixi abidələr var. Yəqin ki, erməni qəsbkarları həmin abidələri talan edərək dağıdıblar. Keçən illər ərzində bir an da olsun qəlbimizdən yurd sevgisi azalmayıb. Məskunlaşdığımız rayonlarda daim torpaqlarımızın azad olacağı günü səbirsizliklə gözləmişik. Rayonumuzun gənclərini öz torpaqlarını sevmək hissi ilə böyütmüşük. Son günlər Ermənistanın törətdiyi təxribata cavab verən ordumuz uğurlu əks-hücumu ilə ona yerini göstərir. Ali Baş Komandanın və ordumuzun sayəsində bütün Azərbaycanın gözlədiyi gün yaxınlaşmaqdadır. Qubadlının işğaldan azad edilməsi xəbəri hamımızın içində bir sevinc günəşi kimi parladı. Yağı düşmən layiqli cəzasını almalıdır. Qubadlı sakinləri son nəfərinə kimi Ali Baş Komandanla, ordumuzla birlikdədir. Biz, qocalı-cavanlı hamımız müzəffər ordumuzun qələbəsini yaxınlaşdırmağa hazırıq. Bir nəfər kimi silahlanıb cəbhəyə getməyə hazırıq. Qoy zəfər bayrağımız bütün Qarabağda dalğalansın!

Bura toplaşan insanların içində gənclər daha çox idi. Onlardan biri Aytac Kazımlı idi:

- Sumqayıtda doğulub-böyüsəm də, əslən Qubadlıdanam. Yaşadığım və böyüdüyüm mühit həmişə vətən sevgisi, dövlətə inam, keçmişdən gələn kökümüzün qorunmasını bizə miras kimi aşılayıb. Rayonumuzun işğaldan azad edilməsi xəbəri hamı kimi məni də sevindirib. Ali təhsilimi başa vurduqdan sonra işləməyə öz rayonumuza gedəcəyəm. Hamı öz gücü daxilində doğma yurda xidmət etməlidir.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

# Həsrətə son qoyuldu



1993-cü il avqustun 31-də havadarlarının köməyi ilə Ermənistan silahlı qüvvələrinin işğalına məruz qalmış Qubadlı şəhəri rəşadətli ordumuz tərəfindən azad edildi. Nəhayət, 27 ildən çox davam edən həsrətdən sonra - oktyabrın 25-də Azərbaycanın daha bir dilbər diyarı erməni faşistlərindən və muzdlu terrorçulardan təmizləndi.

Qubadlı rayonunda 1 şəhər və 93 kənd var. Sahəsi 802 kvadratkilometr, əhalisi təxminən 40 min nəfərdir. Zəngilan, Cəbrayıl, Laçın, Xocavənd və Ermənistanın Gorus, Qafan rayonları ilə həmsərhəddir. Qubadlı şəhəri Qarabağ yaylasının cənub-şərqində, Bazarçayın sahilində yerləşir.

Qubadlı rayonunun təbiəti olduqca zəngindir. 1969-cu ildə burada dövlət yasaqlığı yaradılmışdı. Rayonda 13,2 min hektar meşə sahəsi vardı. Palıd bu meşələrin arxası, vələs dövləti, alma, armud, fındıq, əzgil, zoğal, yemişan sərvəti, dağ çayları, şəlalələr, buz bulaqlar şöhrəti, qara gözlü əliklər, xınalı kəkliklər, qırqovullar, turaclar, göyərçinlər gözəlliyi idi. Çox təəssüflər olsun ki, hazırda əldə olunan məlumatlara əsasən, Qubadlı meşələri işğalçılar tərəfindən qırılaraq Ermənistana və ya xarici ölkələrə daşınmışdır.

Rayon ərazisindən iki böyük dağ çayı keçir - Həkəri, Bərgüşad. Həkəri çayı öz mənbəyini Kəlbəcərdən götürür. Araza qovuşana kimi bir çox dağ çayları ona qovuşur. Bərgüşad çayının mənbəyi isə Ərikli dağlarından başlayır. Bərgüşad öz gücünü dağ bulaqlarından süzülüb gələn Dəli, Şəki, Sisyan, Taxtakörpü, Daşlıdərə, Bəxtiyarlı və Ağa çaylarından alır. Bərgüşad çayı da Həkəri çayı kimi Araza tökülür. Hər iki çay rayonun Qaralar kəndinin yaxınlığında birləşir.

Qubadlının bir hissəsi aran olsa da, əsas hissəsi dağlıqdır. Rayonun Hərtiz və Səngər dağlarındakı şəfalı bulaqları can dərmanıdır. Qubadlılılar işğalacan əsasən heyvandarlıqla, tütünçülüklə və taxılçılıqla məşğul olmuşlar.

Şəhərdə 62 idarə və müəssisə var idi. Burada Asfalt zavodu, Quşçuluq fabriki, Daş karxanası, Texniki-təchizat idarəsi, Tikiş fabriki, “Neftqazavtomat” təcrübə zavodu və başqa istehsal müəssisələri fəaliyyət göstərirdi. Qubadlı şagirdləri 21 orta, 26 səkkizillik, 15 ibtidai məktəb, bir əyani-qiyabi orta məktəbdə təhsil alırdılar.





Xanlıq kəndindəki 126 №-li orta texniki peşə məktəbində hər il 300 nəfər şagird müxtəlif peşələrə yiyələnirdi. Qubadlı rayonunda 33 səhiyyə və 111 mədəni-maarif, eləcə də 125 ticarət, 96 ictimai-iaşə, 25 məişət xidməti və 21 rabitə müəssisəsi əhaliyə xidmət edirdi.

Rayonun ərazisi tarixi abidələrlə zəngindir. Kiçik ölçülü yerüstü daş abidələrin çox az bir hissəsi rayonun tarix-diyarşünaslıq muzeyinə gətirilmişdi. Ümumiyyətlə, tarix-diyarşünaslıq muzeyində 5000-ədək nadir eksponat qorunurdu.

İşğaldan keçən 27 il ərzində rayon ərazisində ictimai binalar, yollar, körpülər, həmçinin tarixi və mədəni abidələr demək olar ki, bütünlüklə ciddi dağıntılara məruz qalıb. Qubadlı şəhəri və rayonun əksər kəndləri işğal edildiyi gündən erməni vandalları tərəfindən dağıdılıb və yandırılıb.

1993-cü il oktyabrın 14-də Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qəbul etdiyi 874 saylı qətnaməyə əsasən, erməni silahlı qüvvələri işğal etdikləri Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının ərazisindən geri çəkilməli, həmçinin hərbi əməliyyatları dayandırmalı və atəşkəs imzalanmalı idi. Lakin ermənilər bir sıra xarici dövlətlərin hərbi-siyasi və maliyyə dəstəyi sayəsində iyrənc əməllərindən əl çəkməyib, uzun illər Azərbaycan xalqına qarşı təxribatlar törədiblər. Qubadlı rayonunun ərazisində 100-dən artıq tarixi və mədəni abidə erməni vandalları tərəfindən məhv edilib. Qubadlı Tarix-Diyarşünaslıq Muzeyində saxlanılan 5 mindən çox nadir eksponat talan edilib. Onlarla tarixi abidə dağıdılıb, yandırılıb, dini abidələr mal-qara və donuz tövləsinə çevrilib. Bir sözlə, barbar ermənilər rayonun ərazisində Azərbaycan türkünün izini sübut edən nə varsa, hamısını məhv etməyə çalışmışlar.

Xalqa müraciətində Prezident, Ali Baş Komandan İlham Əliyev demişdir: “Bir daha bu şad xəbəri bütün Azərbaycan xalqına çatdırmaq istəyirəm. Zəngilan, Cəbrayıl, Qubadlı rayonunun sakinlərinə, bu kəndlərdə yaşamış sakinlərə xoş xəbər çatdırmaq mənim üçün böyük şərəfdir. Düzdür, o kəndlərdən bir şey qalmayıb. Eybi yoxdur, bərpa edəcəyik. Azərbaycan xalqının da, dövlətinin də buna gücü çatacaq. Təki torpağımız azad olsun. Təki bayrağımız işğaldan azad edilmiş bütün torpaqlarda qaldırılsın. Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!

Əziz həmvətənlər, mən hələ müharibənin ilk günlərində sizə söz vermişdim ki, biz düşməni torpaqlarımızdan qovacağıq, sona qədər qovacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

***Rizvan HİLALOĞLU,***
***“Azərbaycan”***

# Arxa cəbhə

## İşğaldan azad olunmuş su anbarları yenidən Azərbaycan kəndinə xidmət edəcək



Prezident İlham Əliyevin apardığı ardıcıl, məntiqli siyasət nəticəsində müstəqil Azərbaycanımızın sürətli inkişafına və dünya miqyasında tanınmasına nail olunmuş, respublikamız dünya ölkələri arasında özünə layiqli yer tutmuşdur.

Mənfur qonşumuz Ermənistan tərəfindən XX əsrin sonlarında keçmiş SSRİ-də yaranmış xaos vəziyyətindən istifadə edərək öz havadarlarının dəstəyi ilə Dağlıq Qarabağ, o cümlədən onun ətrafındakı 7 rayon işğal olunmuşdu. Azərbaycanın 20 faizdən çox ərazisinin 30 ilə yaxın bir müddətdə işğal altında saxlanılması nəticəsində iqtisadiyyatımızın bütün sahələri kimi, meliorasiya və su təsərrüfatı obyektləri də tamamilə dağılmış, əkin sahələrinin su təminatında ciddi çətinliklər yaranmışdır.

İşğal zonasında 125,8 min hektar suvarılan, meliorasiya su təsərrüfatı fondları ilə təchiz edilmiş torpaq sahələri qalmışdır. Onun 25,3 min hektarı Dağlıq Qarabağın, 49,6 min hektarı Ağdam, 26,4 min hektarı Füzuli, 12,5 min hektarı Cəbrayıl, 5,3 min hektarı Zəngilan, 5,3 min hektarı Qubadlı rayonlarının inzibati ərazilərinə daxildir. Suvarılan sahələrdən əlavə həmin ərazilərdə çox münbit dəmyə torpaq sahələri mövcuddur. İşğala qədər həmin sahələrdən suvarma aparılmadan belə bol üzüm, taxıl və digər məhsullar götürülürdü. Halbuki Mingəçevir anbarından Xəzər dənizinə qədər olan Kür və Araz çaylarının sahilləri boyundakı düzən ərazilərdə suvarma aparmadan bir kiloqram da məhsul götürmək mümkün deyil.

İşğal altında qalan ərazilərdə əkin sahələrini suvarma suyu ilə təmin edən 22 suvarma sistemi, 16 baş qurğu, 6426 km uzunluğunda suvarma şəbəkəsi, 330 km uzunluğunda kollektor-drenaj şəbəkəsi, 1429 subartezian quyusu, 7800 hidrotexniki qurğu, 220 hidropost, 56 nasos stansiyası, ümumi sututumu 635 milyon kubmetrə yaxın 10 su anbarı, digər meliorasiya və su təsərrüfatı obyektləri qalmışdır. Bu obyektlərin əksəriyyəti münaqişə zamanı, digər hissəsi isə işğal zonasında qaldığından lazımi texniki xidmət göstərilmədiyi üçün yararsız hala düşmüşdür.

Eyni zamanda işğal zonasında qalmış Tərtərçay, Qarqarçay və Xaçınçay suvarma sistemləri vasitəsilə istifadəsi mümkün olan 143,5 min hektar (ha) torpaq sahəsi suvarma suyu ilə təmin olunmuşdur. Bir faktı qeyd etmək kifayətdir ki, Tərtərçay suvarma sisteminə daxil olan və işğal zonasında qalan ən iri su təsərrüfatı obyekti Sərsəng su anbarı bu zona ilə həmsərhəd rayonların 96,2 min hektar torpaq sahəsini suvarma suyu ilə təmin edirdi. Bu torpaqlarda becərilən pambığın, tütünün, dənli yem bitkilərinin, çoxillik əkinlərin və meşələrin suvarılması üçün işğaldan əvvəl Sərsəng su anbarından ildə 600-700 milyon kubmetr suvarma suyu götürülürdü. Hazırda həmin torpaqların 40,2 min hektarı hələlik işğal zonasında qalmışdır ki, onun da 25,9 min hektarı Ağdam rayonunun inzibati ərazisindədir.

Xatırladaq ki, 1976-cı ildə Tərtərçay çayının üzərində inşa edilmiş Sərsəng su anbarının ümumi su tutumu 560 milyon, faydalı su tutumu 500 milyon kubmetr, bəndinin hündürlüyü 125 və uzunluğu 555 metrdir. Sərsəng su anbarı ən hündür bəndli su anbarlarından biridir. Anbardan su buraxıcı qurğular vasitəsilə "Sərsəng" hidro elektrk stansiyası istiqamətinə saniyədə 60 kubmetr su buraxıla bilər. Bundan başqa, anbarın suvarma qapıları vasitəsilə zərurət olduğu halda meliorasiya məqsədilə saniyədə 30 kubmetr su buraxmaq imkanı da var.

Sərsəng su anbarından su axını istiqamətində - anbardan 20 kilometr aşağıda Tərtərçay çayı üzərində bu su anbarından və Toraǧaçay çayından gələn suları gündəlik nizamlama məqsədilə ümumi su tutumu 5,86 milyon kubmetr olan Suqovuşan su anbarı da tikilmişdir. Bu su anbarında yerləşən hidroqovşaqdan su götürən ümumi uzunluğu 92,6 km olan Tərtərçayın sol və sağ sahil magistral kanallarının 80 km-lik hissəsinin işğal zonasında qalması nəticəsində uzun illərdən bəri Tərtər, Bərdə, Ağdam, Goranboy, Yevlax və Ağcabədi rayonlarının 56 min hektardan artıq torpaq sahələrinə suvarma suyunun verilməməsi səbəbindən bu regionun iqtisadiyyatına külli miqdarda ziyan dəymişdir. Ermənilər düşünülmüş şəkildə Sərsəng su anbarından əsasən də payız-qış aylarında, gecə vaxtları suyu artıq həcmdə buraxmaqla (illik normanın 80-90 faizini) anbardan aşağı ərazilərdə yerləşən Tərtər və Bərdə şəhərləri, bu rayonların kəndləri üçün su basma təhlükəsi yaradır, orada yaşayan əhalini daim qorxu və təşviş içərisində saxlayırdılar. Kənd təsərrüfatı bitkilərinin suya tələbatı yüksək olan yay aylarında isə əksinə, su anbarından su buraxılması dayandırılırdı.

Tərtər rayonunun adıçəkilən su anbarı vasitəsilə suvarılan 24,4 min hektar əkin sahəsinin yalnız bir hissəsi Toraǧaçay çayından saniyədə 2-3 kubmetr su götürən torpaq kanallar və son zamanlar qazılmış subartezian quyuları vasitəsilə suvarılır. Ölkəmizdə ən hündür torpaq bəndlərindən biri (125 m) olan Sərsəng su anbarına uzun illərdən bəri lazımi texniki xidmət göstərilməməsi səbəbindən anbarın subasma zonasındakı Bərdə və Tərtər şəhərləri, eləcə də bu rayonların 130-dan artıq yaşayış məntəqəsində məskunlaşmış 400 min nəfərə yaxın insanın həyatı təhlükədə qalmışdır. Subasma təhlükəsinə məruz qalan ərazinin 81,8 min hektarı kənd təsərrüfatına yararlı torpaqlardır. Onu da qeyd edək ki, 2000-ci ildə Sərsəng su anbarına lazımi texniki xidmət göstərilməsi və onun suyundan istifadə edilməsi üçün ATƏT tərəfindən təşəbbüs qaldırılsa da, bu günə qədər onun texniki vəziyyətinin müəyyən edilməsi üçün müvafiq şərait yaradılmamışdır.

İşğal zonasında qalmış iri su təsərrüfatı obyektlərindən olan Xaçınçay su anbarı isə 1964-cü ildə istismara verilmişdir. Anbarın ümumi su tutumu 23 milyon kubmetr, bəndinin hündürlüyü 38 metrdir. Bu su anbarı vasitəsilə Ağdam rayonunun 6,23 min hektar torpaq sahəsi suvarma suyu ilə təmin edilirdi. Qeyd olunan mövcud obyektlərlə yanaşı, işğal zonasında tikintisi yarımçıq qalmış çoxsaylı meliorasiya və su təsərrüfatı obyektləri də keçən müddət ərzində ermənilər tərəfindən dağıdılaraq sıradan çıxarılmışdır.

Bundan əlavə, Cəbrayıl və Zəngilan rayonlarının işğal altında olması səbəbindən transsərhəd Araz çayı üzərində "Xudafərin" hidroqovşağının tikintisi üzrə İran İslam Respublikası ilə əlaqələrin yaradılması xeyli çətinləşmiş və Araz çayının su ehtiyatlarından birgə istifadə ilə bağlı monitorinqlərin keçirilməsi mümkünsüz olmuşdur.

Məlum olduğu kimi, Ermənistan silahlı qüvvələrinin ölkəmizə qarşı təxribatına cavab olaraq sentyabr ayının 27-dən başlayan əks-hücum əməliyyatları nəticəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən işğal altında olan bir sıra şəhər və kəndlərimiz azad edilmişdir. Əməliyyatlar bütün istiqamətlərdə uğurla davam etdirilir. Azərbaycan Ordusu cəbhənin bütün istiqamətlərində mövqelərini gündən-günə möhkəmləndirir.

Əks-hücum nəticəsində Suqovuşan kəndi işğaldan azad olunduqdan sonra buradakı su anbarından suyun buraxılmasına başlanmışdır. Hazırda su anbarından buraxılan suların nizamlanması nəticəsində Tərtər, Goranboy və Yevlax rayonlarına suyun verilməsi, eyni zamanda ekoloji tarazlıq təmin olunmuşdur.

Cəbrayıl rayonunun ərazisində İran İslam Respublikası ilə həmsərhəd Araz çayı üzərində tikilmiş, ümumi sututumu 1612 milyon kubmetr olan "Xudafərin" su anbarında (Su Elektrik Stansiyası ilə birlikdə) toplanmış suların idarə olunması və istifadəsi sahəsində də ciddi çətinliklər var idi. Su anbarı yerləşən ərazilərin işğaldan azad olunması hesabına hazırda Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı dalğalanır. İndi su anbarının idarə olunmasında Azərbaycanın iştirakı tam təmin olunmaqla, ölkəmizin təxminən 250 min hektar torpaq sahəsinin su təminatının əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına və elektrik enerjisi istehsalına şərait yaranmışdır. Uzun illərdən bəri su təminatı çətin olan bu ərazilərə suyun verilməsi ilə gələcəkdə əkinlərin davamlı aparılmasına, su qıtlığının aradan qaldırılmasına, kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə, ərzaq təhlükəsizliyinin təminatına, əhalinin rifahının yüksəlməsinə və ekoloji tarazlığın bərpa edilməsinə də imkan var.

İşğaldan azad olunmuş ərazilərdə əhalinin məskunlaşmasının aparılması üçün ilk növbədə infrastruktur obyektlərinin, o cümlədən əhalinin içməli su və əkin sahələrinin suvarılması məqsədilə su təsərrüfatı və meliorasiya obyektlərinin bərpa olunması həyata keçirilməlidir. Bu işlərin yerinə yetirilməsi üçün icazə verilən ərazilərdə bizim ASC-nin mütəxəssisləri tərəfindən həmin obyektlərin qısa müddətdə bərpa olunması üçün müvafiq tədbirlər görülür.

İşğaldan əvvəl Cəbrayıl rayonunun ərazisində 107 subartezian quyusu olmuşdur. Rayonun Daşkəsən kəndi ərazisində dağıdılmış subartezian quyusu ASC-nin aidiyyəti qurumları tərəfindən qısa müddət ərzində bərpa olunaraq hərbçilərimizin istifadəsinə verilmişdir. İşğaldan azad olunmuş Suqovuşan su anbarından qidalanan Tərtərçay sol sahil və Xanarx kanallarının bərpa olunması üçün tender elan edilmiş, tenderin nəticələri məlum olduqdan sonra texniki-iqtisadi əsaslandırma aparılması ilə kanalların yenidən bərpasının həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Ölkənin şirin su ehtiyatlarının azlığı, son illər müşahidə olunan qlobal iqlim dəyişikliyi və orta temperaturun yüksəlməsi, əsasən qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatlarının, çaylarda sululuğun və yağıntıların xeyli azalması, digər tərəfdən əhalinin artımı, həyat standartlarının yüksəlməsi, ölkə iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının inkişafı, əkin sahələrinin, suvarma və içməli su təchizatı şəbəkələrinin genişləndirilməsi nəticəsində suya tələbatın artması respublikanın su təhlükəsizliyinin təminatı istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini tələb edir. Bu tədbirlərin həyata keçirilməsi üçün Prezidentin 15 aprel 2020-ci il tarixli sərəncamına əsasən, Baş Nazirin müavini Şahin Mustafayevin sədrliyi ilə aidiyyəti dövlət orqanlarının rəhbərləri daxil edilməklə ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə komissiya yaradılmışdır. Komissiya tərəfindən məhdud su ehtiyatları şəraitində, yeni iqtisadi çağırışlar nəzərə alınmaqla ölkənin su təchizatı sisteminin daha da yaxşılaşdırılması, ekosistemin inkişafı ilə uyğunluğun təmin olunması üçün aidiyyəti qurumların iştirakı ilə ətraflı araşdırma aparılmış və bu sahədə yaxın müddətdə yerinə yetiriləcək işlər müəyyən edilmişdir.

Komissiyanın tapşırığına əsasən, bu sahədə daha genişmiqyaslı tədbirlərin görülməsi və sahənin gələcək inkişafının təmin edilməsi üçün bizim ASC tərəfindən orta və uzunmüddətli dövrü əhatə edən "Azərbaycan Respublikasında meliorasiya və su təsərrüfatının inkişafına dair 2020-2030-cu illər üzrə Dövlət Proqramı"nın layihəsi hazırlanaraq hökumətə təqdim edilmişdir. "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2020-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı"nda Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC qarşısında qoyulmuş tapşırıqların icrası çərçivəsində son illər iqlim dəyişiklikləri ilə əlaqədar qısa dövrü əhatə etməklə, daha səmərəli və daha prioritet layihələr müəyyən olunmuşdur. Belə ki, "Tədbirlər Planı"nda prioritet hesab olunan 20 magistral kanalın, 1 hidroqovşağın və 1 magistral kollektorun yenidən qurulması nəzərdə tutulmuşdur. Bu tədbirlərin həyata keçirilməsi ilə su itkilərinin azaldılması, əlavə su ehtiyatlarının yaradılması, mövcud su ehtiyatlarından səmərəli istifadə və suvarılan torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması mümkün olacaq.

İşğal altındakı torpaqların azad olunması başa çatdırıldıqdan sonra əhalinin həmin ərazilərdə məskunlaşması üçün ilk növbədə infrastrukturun yenidən qurulması tələb olunacaq. Çünki işğal nəticəsində digər sahələr kimi, su anbarları və hidroqovşaqlar, suvarma sistemləri, kollektor-drenaj şəbəkələri, onların üzərindəki hidrotexniki qurğular, nasos stansiyaları, subartezian quyuları, elektrik və mexaniki avadanlıqlar da tamamilə dağıdılmış, istismara yararsız hala salınmışdır. Əhalinin içməli su və əkin sahələrinin su təminatı məqsədi ilə ASC tərəfindən onların bərpası və yenidən qurulması üçün hazırlıq işləri aparılır. Çalışacağıq ki, Prezidentin rəhbərliyi və dəstəyi ilə işğaldan azad olunmuş ərazilərdə meliorasiya və su təsərrüfatı obyektləri qısa müddətdə müasir standartlara uyğun yenidən qurulsun və əhalinin istifadəsinə verilsin.

***Rafiq ASLANOV,***
***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədr müavini***

## Əsgər anası tezliklə bütün Qarabağın işğaldan azad ediləcəyi günü gözləyir

Ermənistanla 168 kilometr həmsərhəd olan Qazax rayonu uzun illərdir düşmənin təxribatları ilə üzüzədir. Sərhəd kəndləri az qala hər gün Ermənistan tərəfindən atəşə məruz qalır. Lakin bütün çətinliklərə baxmayaraq, qazaxlılar mətinlik nümayiş etdirərək öz ata-baba yurdlarını tərk etməyi ağıllarına belə gətirmirlər.

Artıq müzəffər Azərbaycan Ordusu yaşanan bu çətinliklərin arxada qalacağına ümid yaradır. Qarabağ cəbhəsində qazanılan uğurlar nəticəsində düşmən işğal etdiyi şəhər, kənd və qəsəbələrimizdən geri çəkilir. Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan Ermənistan döyüş meydanında Azərbaycan Ordusunun gücü qarşısında tab gətirmir. Zabit və əsgərlərimiz göstərdikləri qəhrəmanlıqla bütün dünyaya sübut edirlər ki, Azərbaycanın məqsədi işğalçıları torpaqlarımızdan qovmaqdır.

Ali Baş Komandan İlham Əliyevin "İrəli!" əmrini layiqincə yerinə yetirərək Vətən torpaqlarının bütövlüyünü bərpa edən zabit və əsgərlərimizə, onların ailə üzvlərinə diqqət ayırmaq, qayğı göstərmək indi hər birimizin müqəddəs borcu olmalıdır. Çünki ön cəbhədə vuruşan igid Vətən oğulları arxa cəbhədə olan ailəsindən nigaran qalmamalıdır.

"Hər bir hərbçimiz bizim üçün doğmadır, əzizdir" deyən Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov gizir Xəyyam Cəfərovun Yuxarı Salahlı kəndində yaşayan anasını ziyarət etmişdir. Hərbçi anası Nəcibə Cəfərovanın evində olan RİH başçısı ordumuzun Qarabağda əldə etdiyi qələbələrdə onun övladının da payı olduğunu deyərək buna görə ananı təbrik etmiş, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Xəyyamın və onun timsalında bütün hərbçilərimizin daha böyük zəfərlər əldə edəcəyinə əminlik ifadə etmişdir. Vətənpərvər övlad böyüdən anaya ürək sözlərini çatdıran rayon rəhbəri verdiyi tərbiyəyə, övladına aşıladığı Vətən sevgisinə görə ona minnətdarlığını bildirmişdir. Hərbçi anasının qayğıları ilə maraqlanan R.Babaşov hərbçilərimizə göstərilən diqqət və qayğının bundan sonra da davamlı olacağını qeyd etmişdir.

Əsgər anası övladı ilə qürur duyduğunu bildirmişdir. Nəcibə xanım oğlunun timsalında bütün hərbçilərimizə böyük zəfərlər qazanmağı və üçrəngli Azərbaycan bayrağının tezliklə Qarabağın hər yerində dalğalanmasını arzulamış, həmin böyük tarixi günün çox yaxında olduğunu dilə gətirmiş, hərbçi anası kimi ona göstərilən qayğıya görə dövlət başçısına və rayon rəhbərliyinə razılığını ifadə etmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Bü gün tarla da cəbhədir

Faşist xislətli ermənilərin davamlı təxribatlarından ən çox zərər çəkən rayonlardan biri də Tərtərdir. Döyüşlərin başladığı gündən rayon ərazisinə minlərlə artilleriya mərmisi və raket atılmışdır. Nəticədə çox sayda evlər dağılmış, məktəb, xəstəxana və uşaq bağçaları yararsız vəziyyətə düşmüş, sosial infrastruktura ciddi zərər dəymişdir. Mülki əhali arasında ölən və yaralananlar vardır.

Amma tökülən qanlara, genişmiqyaslı dağıntılara baxmayaraq, rayon əhalisinin əhvali-ruhiyyəsi yüksəkdir. Çünki uşaqdan-böyüyə, qadından-kişiyə hamı qələbəyə köklənib. Göz yaşı zəiflik, acizlik kimi anlaşılar deyə onu kimsəyə göstərməyib ürəyinə axıdan şəhid anası "Hamımız Vətənə qurban" kəlməsini qürurla dilə gətirir. Evi mərmidən dağılıb viran qalan ailə başçısı tərəddüd etmədən "Təki Vətən var olsun! Evimiz-eşiyimiz, varımız-dövlətimiz Azərbaycan əsgərinin dırnağına qurban" deyir.

Düşmən üzərində 30 ildən bəri həsrətlə gözlədiyimiz qələbəni labüd edən əsas amillərdən biri də məhz "xalq-ordu" birliyinin sarsılmaz xarakter almasıdır. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı bu gün həyatımızın, fəaliyyətimizin əsas hədəfinə çevrilmişdir. İndi arxa cəbhənin ürəyi ordumuzla bir döyünür. Hər kəs cəbhə üçün, qələbə naminə çalışır. Çalışır ki, əmək meydanında qazandığı naliyyətlərlə ölkəmizin iqtisadi gücünü artırmağa şəxsi töhfəsini versin, öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirsin.

Düşmən Tərtərin və tərtərlilərin başına artilleriya mərmilərini, raketləri yağış kimi yağdırsa da, istəyinə çata bilmir. Tərtərlilər döyüş meydanında olduğu kimi, arxa cəbhədə də qəhrəmanlıq nümayiş etdirirlər. Əlləri işdən bir zərrə də soyumur. Böyük zəhmət bahasına bol məhsul yetişdirilmiş ağ örpəkli tarlalarda pambıq yığımı davam edir. Bu il rayonun təsərrüfatlarında 2981 hektar sahədə pambıq əkilmişdir. Şiddətli döyüşlər məhsul yığımının sürətinə təsir göstərsə də, fermerlər nisbətən təhlükəsiz ərazilərdə məhsulu tez və itkisiz yığıb tədarük etməyə çalışırlar.

Habil İbrahimov rayonun qabaqcıl fermerlərindəndir. 200 hektar torpaq sahəsi vardır. Həm əkinçiliklə, həm də heyvandarlıqla məşğul olur. Qazandığı yüksək əmək nailiyyətlərinə görə keçən il "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Bu il məqsədi pambıqçılıqda da, heyvandarlıqda da daha yüksək nəticələr qazanmaqdır:

- Bu gün tarla da bir cəbhədir. Pambıq strateji məhsuldur. Onun bolluğu ölkəmizin iqtisadi qüdrətinə böyük töhfədir. Builki hədəfimiz məhsuldarlığı 50 sentnerə çatdırmaqdır. Hazırda sahələrimizdə pambıqyığan maşınlar işləyir. Birinci üz yığımın nəticəsi 35 sentnerdir. Bu hələlik ilk nəticə kimi pis deyil. Mərmilərin gurultusu heç kəsdə qorxu yaratmır, əlimizi işdən soyutmur. Böyük zəhmət bahasına yetişdirdiyimiz məhsulu son qramınadək yığıb təhvil verəcəyik.

Tərtərdə qələbə əhvali-ruhiyyəsi duyulur. Adamların üzü gülür, eyni açılır. Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsi hər kəsdə xoş ovqat yaradıb. Azərbaycan əsgəri 30 ildən bəri Tərtər çayının qabağını kəsən, on min hektarlarla ərazini suya həsrət qoyan erməni yezidlərini zərərsizləşdirib. Babalarımız "su gələn arxa bir də gələr" deyiblər. İndi Tərtər rayonunun dupduru suyu quru daşlara, qayalara çırpıla-çırpıla həsrətdən sinəsi çat-çat olmuş doğma torpaqlara qovuşur. Sanki qaysaq bağlamış yaraya qadir loğman əliylə məlhəm qoyulur. Suqovuşan bəndindən açılan qapıların suyu Tərtərə yeni həyat gətirir. Bu illər ərzində zülm çəkib Tərtər kəndlisi. Alın təriylə, halal zəhmətiylə əkib-becərib, sonda isə əli boşda qalıb. Becərdiyi məhsul susuzluqdan zay olub. Artıq bunlar acı xatirəyə çevrilməkdədir. Suqovuşan bəndinin paslanmış qapılarını açıb təşnə ürəklərə su verən xilaskar Azərbaycan əsgəri bu gün xalqımızın qürur mənbəyinə çevrilib.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Neftçala pambıqçısı hünər göstərir

### Hamının diqqətinin cəbhədə olduğu bir vaxtda pambığı son qozasınacan yığmaq da hünərdir



Qarabağ uğrunda aparılan Vətən müharibəsində ordumuzun əldə etdiyi qələbələr nəticəsində itirilmiş şəhər və kəndlərimiz bir-birinin ardınca geri alınır. Hər birimizi sonsuz dərəcədə sevindirən bu qələbələr isə dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən hərtərəfli inkişaf konsepsiyası işlənib həyata keçirilməsəydi, ən azından bu səviyyədə olmazdı.

Azərbaycanın inkişaf konsepsiyasının bir qolu kənd təsərrüfatı sahəsini əhatə edir. Bu sahədə ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsi, idxaldan asılılığın minimuma endirilməsi, xaricə valyuta axınının qarşısının alınması, ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları yetişdirməklə onu daha geniş şəkildə dünya bazarına çıxarmağa nail olunması, yeni iş yerləri yaradılması, müasir texnika və texnologiyaların tətbiqinin həyata keçirilməsi, kənd təsərrüfatı üçün yeni kadrların hazırlanması və s. məsələlər nəzərdə tutulur.

Pambıqçılığın inkişafı ilə əlaqədar görülən tədbirlər də aqrar sektorda ixracyönümlü məhsulların istehsalının artımına yönəlmişdir. Bu çərçivədə pambığın satınalma qiymətinin artırılması fermerlərə, torpaq mülkiyyətçilərinə əlavə stimul vermişdir. Nəticədə keçən il ölkə üzrə 300 min ton pambıq istehsal edilmiş, hər hektarın məhsuldarlığı 29,4 sentnerə çatmışdır.

Pambıqçılar 2020-ci ildə də gərgin işləmişlər. Təbiətin yaratdığı çətinliklərə, su çatışmazlığına və pandemiya şəraitinə baxmayaraq, bol məhsul yetişdirilmişdir. Hazırda yığım və emal davam edir.

Neftçala rayonunda pambıq istehsalı, tədarükü və emalı ilə məşğul olan 3 şirkət fəaliyyət göstərir. Onlardan biri "MKT-İK"-nın Neftçala filialıdır. Müəssisə cari ilin əvvəlində 914 fermer və torpaq mülkiyyətçisi ilə müqavilə bağlamışdır. 4 min 162 hektar sahədə yüksək keyfiyyətli məhsul yetişdirmək üçün filial şumdan tutmuş yığıma kimi lazımi kömək göstərmişdir. Eyni zamanda idarənin mütəxəssisləri daim istehsalçıların yanında olmuş, onlara məsləhət və tövsiyələrini vermişlər. Tarlalarda 5-6 dəfə kompleks becərmə aparılmışdır.

Hazırda yetişdirilmiş məhsul yığılır. Bir tərəfdə qız-gəlinlər əl ilə, digər tərəfdə maşınlar məhsul toplayır. Səhər gün çıxandan axşam gün batanadək tarlalar səs-küylü olur. Yığılan məhsul məntəqələrə daşınır, növlər üzrə tayalara vurulur. Məlumat üçün bildirək ki, oktyabr ayının 25-dək "MKT-İK"-nın Neftçala filialı üzrə 14 min ton məhsul yığılmışdır. Bu qədər pambığın 12 min 600 tonu maşınların payına düşür. Yeri gəlmişkən, onu da bildirək ki, torpaq mülkiyyətçiləri pambığın maşınla yığılmasına daha çox üstünlük verirlər. Bu da öz növbəsində məhsulun tez və itkisiz toplanmasına və onun maya dəyərinin aşağı düşməsinə səbəb olur.

Filialda tədarük olunan pambığın emalı ləngidilmir. Bunun üçün hələ yay aylarında hazırlıq işləri aparılıb. Taya yerləri hazırlanıb, pambıqqurudan, çeşidləyici, ayırıcı, presləyici avadanlıqlar saz vəziyyətə gətirilib. Bunun nəticəsidir ki, üç növbədə işləyən mahlıc emalı sexində gün ərzində 1301 ton məhsul istehsal olunur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Neft Fondu ilin əvvəlindən qızıl ehtiyatlarını artırıb

Cari ilin əvvəlindən Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) qızıl ehtiyatları 0,6 ton artıb.

AZƏRTAC Neft Fondunun 2020-cu ilin 9 ayı üzrə investisiya fəaliyyətinin yekunlarına dair hesabatına istinadla xəbər verir ki, bu il sentyabrın 30-na ARDNF-in investisiya portfelində qızılın ümumi miqdarı 101,8 ton olub. İlin əvvəlinə olan məlumata görə isə, Dövlət Neft Fondunun investisiya portfelində qızılın həcmi 101,2 ton idi. Beləliklə də, Neft Fondu cari ildə 0,6 ton qızıl alıb.

Qeyd edək ki, hazırda qızıl investisiyaları Neft Fondunun investisiya portfelinin 14,4 faizini, ABŞ dolları portfelinin isə 6 milyard 186,3 milyon dollarlıq hissəsini təşkil edir.

## Beyləqanda 2230 hektara taxıl səpilib

Bu il taxıl zəmilərindən bol məhsul götürən Beyləqan rayonunun fermerləri və torpaq mülkiyyətçiləri payızlıq səpini davam etdirirlər.

Beyləqan Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, bu günədək 9680 hektar sahədə payızlıq şum qaldırılıb, 1080 hektarda buğda, 1150 hektarda arpa səpilib. Səpin kampaniyasına lazımi qədər traktor, taxılsəpən aqreqat, mala və digər texnika cəlb edilib. Gələn ilin məhsulu üçün 14 min hektarda taxıl səpilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Beyləqan taxılçıları bu il 12 min 989 hektar taxıl sahəsindən 46 min 112,7 ton məhsul əldə ediblər. Məhsulun 40 min 521 tonu buğda, 5591,7 tonu arpadır. Hər hektarın məhsuldarlığı orta hesabla 35,5 sentner, o cümlədən buğda sahələrində 36,5 sentner, arpa sahələrində isə 30,7 sentnerdir.

# Beynəlxalq ictimaiyyət Azərbaycanın haqlı mübarizəsini müdafiə edir



Sentyabrın 27-də başlanan hərbi təxribatlarla əlaqədar Türkiyə parlamentində dörd partiya Azərbaycanı dəstəkləyən və Ermənistanın hücumlarını qınayan birgə açıqlama yaydı. Ona görə də Azərbaycana səfərimizi bu partiyaların üzvlərindən ibarət heyətlə birlikdə gerçəkləşdirib Türkiyə Böyük Millət Məclisinin dəstəyini açıq və qəti şəkildə ifadə etdik. Bu çox böyük sevgi və maraq ilə qarşılandı. Əslində, Azərbaycana bütün səfərlərimizdə bu sevgini və marağı görürük. Bu ölkədə özümüzü evimizdəki kimi hiss edirik. AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop yerli telekanallarının birinə müsahibəsində Azərbaycana səfəri ilə bağlı təəssüratlarını bölüşərkən deyib.

Azərbaycanın və bölgənin çətin günlər keçirdiyini diqqətə çatdıran parlament sədri deyib: “Səfər zamanı nümayəndə heyətimiz Azərbaycan Prezidenti İlham Əliyev, həmçinin bir sıra dövlət və hökumət nümayəndələri ilə görüşdü. Qardaşlarımızı ruh yüksəkliyində və qəti şəkildə görməyimizdən məmnun olduq. Xüsusilə mülki əhaliyə qarşı hücumlar nəticəsində yaşanan acılara və üzüntülərə şərik olduğumuzu ifadə etdik”.

Azərbaycan ilə Türkiyənin qardaş və dost ölkələr olduğunu ifadə edən TBMM-in sədri deyib: “Türkiyə bu dostluq və qardaşlıq səbəbindən Azərbaycanın yanında olduğunu bəyan edir. Ancaq buna səbəb yalnız dostluq və qardaşlıq deyil. Azərbaycan apardığı mübarizədə haqlıdır. Dağlıq Qarabağ bölgəsinin tarix boyu Ermənistana bağlılığı olmayıb. Bu bölgə siyasi baxımdan həmişə Azərbaycana aid olub. Tarixi baxımdan isə bu bölgə Azərbaycan torpağıdır. Ermənistanın işğalçılıq siyasətindən sonra BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə Ermənistanın Azərbaycanın işğal olunmuş torpaqlarını tərk etməsi tələbinə dair çox aydın ifadələr var. Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və ATƏT-in bununla bağlı qərarları da var. Yəni, sadəcə olaraq, Azərbaycanın haqlı olduğunu deyən təkcə Türkiyə deyil. Beynəlxalq təşkilatlar da Azərbaycanın haqlı olduğunu qəbul edir”.

❖ ❖ ❖




İndoneziya parlamentinin nümayəndələr palatasının parlamentlərarası əməkdaşlıq komitəsinin sədri Fadli Zon Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yazılı bəyanatla çıxış edib. AZƏRTAC xəbər verir ki, İndoneziya parlamentinin rəsmi internet səhifəsində yerləşdirilmiş bəyanatda F.Zon Azərbaycanın Dağlıq Qarabağ bölgəsində münaqişənin yenidən alovlanmasının narahatlıq doğurduğunu və çox sayda insanın həlak olması faktını nəzərə alaraq hər iki ölkəni atəşkəs razılaşmasına sadiq qalmağa çağırıb.

F.Zon iki tərəf arasında müvafiq olaraq oktyabrın 10-da və 18-də əldə olunmuş humanitar atəşkəsə toxunaraq razılaşmadan bir neçə saat sonra Ermənistanın Azərbaycanın Gəncə şəhərinə atəş açması nəticəsində 13 mülki şəxsin həlak olması, 50 nəfərin isə yaralanması ilə bağlı təəssüf hissi keçirdiyini əlavə edib. Atəşkəs razılaşmasının pozulmasının iki ölkə arasındakı münaqişənin gələcək həllini təhdid etdiyini bildirən F.Zon münaqişənin beynəlxalq hüquq və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsaslanan dialoq çərçivəsində həllinə çağırıb. Komitə sədri beynəlxalq ictimaiyyəti, xüsusilə BMT-ni atəşkəsin əldə edilməsində fəal olmağa dəvət edib və BMT-nin bununla bağlı kifayət qədər iş görə bilmədiyini təəssüflə qeyd edib.

Eyni zamanda, F.Zon BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrinin və BMT Baş Assambleyasının A/RES/62/243 saylı qətnaməsinin təcili yerinə yetirilməsinin vacibliyini vurğulayıb. O bildirib: “BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri açıq şəkildə erməni silahlı qüvvələrinin Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycanın ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir”. Bununla yanaşı, komitə sədri ATƏT-in münaqişənin həlli istiqamətində vasitəçiliyinin əhəmiyyətinə toxunaraq Minsk qrupu çərçivəsində məhsuldar dialoqun yenidən başlamasının vacibliyini qeyd edib.

F.Zon bir daha münaqişənin beynəlxalq hüququn normalarına, xüsusilə hər bir dövlətin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsipinə uyğun olaraq həll edilməli olduğunu deyib: “Azərbaycan da daxil olmaqla, hər hansı dövlətin suverenliyinə və ərazi bütövlüyünə qarşı təcavüz qəbuledilməz və əsassızdır”.

Xatırladaq ki, bu, İndoneziya parlamentinin nümayəndələr palatasının parlamentlərarası əməkdaşlıq komitəsinin sədri Fadli Zon tərəfindən sentyabrın 27-dən Ermənistanın Azərbaycana qarşı təxribatları ilə bağlı verilmiş sayca ikinci bəyanatdır.

❖ ❖ ❖



Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi Gəncədə Artur Mayakovun həlak olması ilə əlaqədar rəsmi “Twitter” səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verib ki, məlumatda deyilir: “Oktyabrın 17-də raket hücumu nəticəsində yaralanaraq Gəncə şəhər xəstəxanasına gətirilmiş 2007-ci il təvəllüdlü Rusiya vətəndaşı Artur Vasilyeviç Mayakovun oktyabrın 24-də vəfat etməsi barədə Azərbaycanın hakimiyyət orqanları tərəfindən səfirliyə məlumat verilib. Səfirlik Gəncə Şəhər İcra Hakimiyyətinin nümayəndələri, mərhumun qohumları və yaxınları ilə əlaqə saxlayır, onlara lazım olan köməyi göstərir.

A.V.Mayakov oktyabrın 24-də Azərbaycan Respublikasının Gəncə şəhərində dəfn edilib. Dəfn mərasimində Gəncənin rus icması başçısının müavini İ.V.Kalaşnikova və Gəncədəki Aleksandr Nevski məbədinin keşişi Varfolomey Ata iştirak ediblər.

Səfirlik bu kədərli hadisə ilə əlaqədar mərhumun qohumlarına və yaxınlarına başsağlığı verir”.

❖ ❖ ❖



Böyük Britaniyanın Lordlar Palatasının üzvü Lord Kilkluney Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki əhalisinə qarşı törədilən hərbi təcavüzü pisləyən bəyanatla çıxış edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Lord Kilkluney humanitar məqsədlər üçün atəşkəs elan olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə qəsdən edilən raket hücumu nəticəsində 10 mülki şəxsin həlak olmasını və 34 nəfərin ağır yaralanmasını vəhşilik kimi qiymətləndirib.

Bəyanatda bildirilir ki, bu hadisə münaqişə zonasından uzaq məsafədə, hərbi obyektlərin olmadığı bir şəhərdə törədilib. O, Ermənistan tərəfindən törədilən hücumların qəti şəkildə qəbuledilməz olduğunu qeyd edib. Eyni zamanda, Ermənistanın Cenevrə Konvensiyasının kobud şəkildə pozulmasını ehtiva edən bu vəhşi hərəkətlərini qınamağa çağırış edib.

Lord Böyük Britaniya hökumətini bu məsələni təcili olaraq Ermənistan hökuməti qarşısında qaldırmağa, işğalçı ölkəni beynəlxalq humanitar hüquqlarla bağlı öhdəliklərinə və atəşkəsə hörmətlə yanaşmağa çağırıb. Lord Kilkluney Böyük Britaniyanın Bakıdakı səfirindən də Gəncədə baş verən hadisələrə diqqətlə yanaşmasını xahiş edib.

❖ ❖ ❖



Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı səfirliyi Gəncədə Artur Mayakovun həlak olması ilə bağlı özünün rəsmi “Twitter” səhifəsində başsağlığı verib. AZƏRTAC xəbər verib ki, məlumatda deyilir: “Bu il oktyabrın 17-də raket hücumu nəticəsində yaralanmış 2007-ci il təvəllüdlü Rusiya vətəndaşı Artur Mayakov oktyabrın 24-də Gəncə şəhər xəstəxanasında vəfat edib. Səfirlik mərhumun qohumları və yaxınları ilə əlaqə saxlayır və onlara dərin hüznlə başsağlığı verir”.

❖ ❖ ❖




İndoneziya Ülamalar Şurası Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini bəyan edib. AZƏRTAC xəbər verir ki, bu barədə İndoneziyanın tanınmış “news.detik.com” saytı məlumat yayıb.

Məlumatda İndoneziyanın bütün dini təşkilatlarını özündə birləşdirən Ülamalar Şurasının (MUİ) sədr müavini K.H.Muhyiddin Cunaidinin bu bəyanatı Azərbaycanın İndoneziyadakı səfiri Cəlal Mirzəyevlə görüşdə səsləndirdiyi qeyd olunub.

Həmçinin İndoneziyanın münaqişənin BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə uyğun olaraq, Ermənistan silahlı qüvvələrinin işğal altında saxladığı Azərbaycan torpaqlarından tam, qeyd-şərtsiz və dərhal çıxarılması ilə bağlı mövqeyinin Ülamalar Şurası tərəfindən də dəstəkləndiyi vurğulanıb. M.Cunaidin Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarındakı məscidlərdə müxtəlif heyvanlar saxlamasını qınadıqları, bu kimi hərəkətlərin İndoneziya ictimaiyyətində də haqlı narazılığa və qəzəbə səbəb olduğunu söylədiyi bildirilib.

Diqqətə çatdırılıb ki, görüş çərçivəsində Ermənistan ordusunun sentyabrın 27-də başlayan növbəti hərbi təxribatı barədə məlumat verən C.Mirzəyev Ermənistan tərəfindən Dağlıq Qarabağ daxil olmaqla işğal edilən torpaqların Azərbaycan əraziləri olmasının beynəlxalq səviyyədə tanındığını xatırladıb. Qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə baxmayaraq, Ermənistan 30 ilə yaxın müddətdə həmin sənədlərin tələblərini yerinə yetirməyib.

Məlumatda səfirin münaqişə nəticəsində ermənilər tərəfindən bir milyondan çox azərbaycanlının öz ata-baba yurdlarından zorla çıxarılaraq məcburi köçkünlüyə və qaçqınlığa məruz qoyulduğunu bildirdiyi də əksini tapıb. Qeyd edilib ki, döyüşlərin gedişində iki dəfə humanitar atəşkəs elan olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni və digər yaşayış məntəqələrini artilleriya atəşinə məruz qoyub, dinc əhali və münaqişə zonasından uzaq bölgələr hədəfə alınıb.

M.Cunaidi, eyni zamanda, MUİ-nin torpaqlarını işğaldan azad edən Azərbaycanı dəstəklədiyini bildirib.

❖ ❖ ❖




“Almaniyanın “TAZ” xəbər saytında “Millətçilər millətçilərlə görüşürlər” sərlövhəli məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Almaniyanın “AfD” partiyasının Dağlıq Qarabağa nümayəndə heyəti göndərməsindən bəhs olunur. Bildirilir ki, “AfD” partiyası guya xristian Qərbi Dağlıq Qarabağdakı İslam istilasından qorumaq istəyir. Bu mövqe hər zaman “AfD”nin mahiyyətinin tərkib hissəsi olub. Halbuki, xristian Ermənistan ilə müsəlman Azərbaycan arasındakı müharibə dini məzmunda deyil. Belə ki, müharibənin dinlə heç bir əlaqəsi yoxdur. Məsələyə aydınlıq gətirmək üçün tarixi kitablara nəzər salmaq kifayətdir.

Müəllif diqqətə çatdırır ki, Sovet İttifaqının “mirası” olan münaqişə sərhədlər və ərazilər ilə bağlıdır. Andreas Kalbits kimi sağçı millətçilərin Dağlıq Qarabağa səfəri təəccüb doğurmur və bu, onun bölgəyə ilk səfəri deyil. Eyni zamanda, “AfD” partiyası Ermənistanın “Adekvad” qrupu ilə sıx münasibətlər saxlayır. Ermənistan hökuməti isə alman deputatların Dağlıq Qarabağa səfərindən özünün təbliğat məqsədləri üçün istifadə etməyə cəhd göstərir.

❖ ❖ ❖



Ermənistanla Azərbaycan arasında qarşıdurma davam etdiyi bir vaxtda “Le Figaro” qəzeti Azərbaycan Prezidenti ilə ölkəsinin mövqeyini çatdıran müsahibə dərc edir. Kütləvi informasiya vasitələrində Ermənistanın rəyinə əsaslanan şərhləri oxuyur və eşidirik, hər kəsin daha dolğun məlumatlara sahib ola bilməsi üçün isə Azərbaycan tərəfinin mövqeyinin də yayılmasını ədalətli hesab edirəm. AZƏRTAC xəbər verir ki, bu fikirləri Fransa-Azərbaycan parlamentlərarası dostluq qrupunun vitse-prezidenti Jerom Lamber Prezident İlham Əliyevin “Le Figaro” qəzetinə müsahibəsindən sonra özünün “Facebook” səhifəsində paylaşıb.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Jerom Lamber qeyd edib ki, münaqişə 1990-cı illərin əvvəlindən Azərbaycan ərazilərinin böyük bir hissəsinin - Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı 7 rayonun işğal edilməsindən qaynaqlanır. BMT Təhlükəsizlik Şurasının Ermənistanın hərbi yolla işğal etdiyi Azərbaycan ərazilərini dərhal tərk etməsinə dair qətnamələrinə baxmayaraq, 30 ildir işğal davam edir. Əlbəttə ki, Fransa bu qətnamələrə ABŞ, Rusiya və Çin ilə birlikdə səs verib və ölkəmiz beynəlxalq birliyin qərarlarının tətbiqinə nail olmaq üçün vasitəçiliyə cəhd edib. Ancaq indiyə qədər bu vasitəçilik heç bir nəticə verməyib. Azərbaycan ərazilərinin işğalı dünyanın heç bir ölkəsi tərəfindən qəbul edilmir. Ancaq daxili siyasi səbəblərdən bu münaqişənin davam etməsində yalnız Ermənistan maraqlıdır.

Bu işğal illərində çoxsaylı insidentlər oldu. Ancaq Azərbaycanın işğal zonasında və bu zonadan kənarda olan şəhərlərinin bombalanması kimi intensiv səviyyəyə çatmamışdı. Vəziyyətin belə gərginləşməsi narahatedicidir.

Fransız deputat “Facebook” səhifəsində Azərbaycan Prezidentinin “Le Figaro” qəzetində çıxan müsahibəsini paylaşıb.

❖ ❖ ❖




Almaniyalı jurnalist, enerji məsələləri, eləcə də Şərqi Avropa, Mərkəzi Asiya və Cənubi Qafqaz regionları üzrə mütəxəssis Birqit Vetsel özünün internet səhifəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məqalə yerləşdirib.

AZƏRTAC xəbər verir ki, məqalədə münaqişənin bir çox iştirakçılarının (Türkiyə, Rusiya, İran, ABŞ, Böyük Britaniya, Çin) və müxtəlif aspektlərinin olduğu qeyd edilir. Vurğulanır ki, məsələ yalnız Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə nəzarəti yenidən əldə keçirməklə bağlı deyil. Burada söhbət, həmçinin işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlardan yüz minlərlə qaçqının və məcburi köçkünün öz yurdlarına qayıtmasından gedir. Bundan əlavə, münaqişə tərəflərinin hərəsinin öz beynəlxalq tərəfdaşları, müttəfiqləri, o cümlədən neft və qaz boru kəmərləri ilə bağlı əməkdaşlıqları var. Bütün bunlara baxmayaraq, dünya ictimaiyyəti 1994-cü ildən bəri davam edən münaqişənin həllində fəal iştirak etməyib.

❖ ❖ ❖




BBC telekanalı Ermənistanın humanitar atəşkəs barədə razılaşmanı pozaraq Azərbaycanın Gəncə şəhərini raket atəşinə tutması və nəticədə hər iki valideynini, eləcə də bacısını itirmiş üç yaşlı Xədicə ilə bağlı reportaj hazırlayıb. AZƏRTAC xəbər verir ki, “Dağlıq Qarabağ: müharibə nəticəsində valideynlərini itirmiş üç yaşlı körpə” adlı reportajda Gəncə şəhərində yaşayış binasının raket atəşinə tutulması nəticəsində dinc sakinlərin, o cümlədən üç yaşlı Xədicənin valideynlərini və bacısını itirdiyi bildirilir.

Reportajda Ermənistanın raket hücumu nəticəsində dağılmış evlərin görüntüləri, yaxınlarını itirmiş insanların cəsədlərinin dağıntılar altından çıxarıldığı anlar təqdim edilir.

Bu faciə baş verəndən dərhal sonra hadisə yerinə gəlmiş Xədicənin babası Nizami Ağayev gördüklərini belə izah edir: “Hadisə yerinə gələndə gördüm ki, sanki dünya dağılıb. Nə salamat ev var, nə qapı, nə pəncərə. Hər yer dağıntı içərisində idi. Xilasedicilər narahat olmayım deyə mənə tələfat barədə məlumat vermədilər. Sonradan xəbər gəldi ki, Xədicənin atası və anası, həmçinin bacısı bu dəhşətli faciə nəticəsində həlak olublar”.

Reportajda qeyd olunur ki, Xədicənin anası evinin yaxınlığındakı uşaq bağçasında işləyirmiş. Körpənin valideynləri beş ildir ailəli imiş.

Xədicənin nənəsi bu dəhşətli faciə barədə danışarkən qızının arzularının yarımçıq qaldığını, nəvəsi Xədicənin sağ qalmasının isə onlara böyük təsəlli olduğunu bildirib.

Reportajda həmçinin qeyd olunur ki, raket hücumu nəticəsində dağıntı qırıntıları Xədicənin gözlərinə düşdüyü üçün körpə üç gün ərzində gözlərini aça bilməyib.

❖ ❖ ❖



Gürcüstanda hakimiyyətə hansı partiya və ya siyasi hərəkatın gəlməsindən asılı olmayaraq, Azərbaycan ilə əlaqələr mühüm əhəmiyyət kəsb edəcək.

Bu sözləri AZƏRTAC-a müsahibəsində gürcü politoloq Tengiz Txilava söyləyib.

Onun sözlərinə görə, Gürcüstan hakimiyyəti Azərbaycanla münasibətlərə hər zaman çox böyük önəm verir. Bu, başqa cür ola bilməz. Çünki Gürcüstan və Azərbaycan, ilk növbədə, qonşu ölkələrdir, ikinci növbədə isə dost və strateji tərəfdaşlardır.

Politoloq deyib: “Ölkələrimiz bir sıra birgə layihələr və biznes planlar həyata keçirirlər. Mən iqtisadi əlaqələri başqa cür təsəvvür etmirəm. Əminəm ki, Azərbaycanla münasibətlər gələcəkdə də Gürcüstan üçün ən əsas vektorlardan biri olacaq və qarşılıqlı faydalı əlaqələr daha da dərinləşəcək”.

T.Txilava bildirib ki, Azərbaycan ilə Gürcüstan həm də tolerant ölkələrdir. Təəssüf ki, bu gün bəzi qüvvələr Dağlıq Qarabağdakı hərbi əməliyyatları “müsəlmanların xristianlara qarşı təcavüzü” kimi təqdim etməyə cəhd göstərirlər. Bu məqamda Azərbaycan-Gürcüstan münasibətlərinə nəzər salmaq lazımdır. Müsəlman ölkə olan Azərbaycan xristian Gürcüstan dövləti ilə ümumi dil tapıb, dostluq və mehriban qonşuluq əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu, özlüyündə Azərbaycanın hər hansı dini müharibə aparması versiyasının kökündən yalan olduğunu sübut edir.

Pandemiya və hərbi əməliyyatların aparılmasına baxmayaraq, Azərbaycanın Gürcüstana humanitar dəstəyini yüksək qiymətləndirən politoloq deyib: “SOCAR Gürcüstanda humanitar və xeyriyyəçilik fəaliyyətini davam etdirir. Bu, Azərbaycan hakimiyyətinin Gürcüstanla münasibətlərə verdiyi yüksək qiymətin bariz nümunəsidir”.

❖ ❖ ❖




ABŞ-da yaşayan soydaşlarımız Ermənistan ordusunun Azərbaycanın bir sıra şəhər və rayonlarını raket atəşinə tutması nəticəsində mülki şəxslərin və günahsız körpələrin həlak olmasına, yaşayış evləri və mülki obyektlərin dağıdılmasına etiraz olaraq San-Fransiskodakı Embarcadro Plazanın qarşısında aksiya keçiriblər.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, aksiya iştirakçıları cəbhə zonasından uzaqda yerləşən yaşayış məntəqələrini, o cümlədən Gəncə və Mingəçevir şəhərlərini atəşə tutan Ermənistanın faşist siyasətini pisləyib, beynəlxalq ictimaiyyətin diqqətini xüsusilə uşaqların öldürülməsinə cəlb etməyə çalışıblar.

Soydaşlarımız Gəncə terrorunun qurbanı olan günahsız uşaqların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbir ərzində ABŞ-da yaşayan azərbaycanlıların tikdiyi 27 metr uzunluğunda Azərbaycan bayrağı dalğalandırılıb.

Şimali və Cənubi Amerika Mədəniyyət Mərkəzinin təşkil etdiyi aksiyada yüzlərlə soydaşımız, eləcə də ABŞ-dakı türk icmasının nümayəndələri iştirak ediblər.

Azərbaycan, Türkiyə və ABŞ bayraqlarının dalğalandırıldığı aksiyada Azərbaycanın dövlət himni, vətənpərvərlik mahnıları səsləndirilib, “Qarabağ Azərbaycandır!”, “Ermənistanın təcavüzünü dayandırın!”, “Erməni işğalına son!” və sair bu kimi şüarların yazıldığı plakatlar nümayiş etdirilib.

❖ ❖ ❖



Kanadanın Vankuver şəhərindəki azərbaycanlı icmanın təşkilatçılığı və Kanada Azərbaycanlıları Şəbəkəsinin (“Network of Azerbaijani Canadians”) texniki dəstəyi ilə Qarabağ üçün həmrəylik nümayişi və Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərində törətdiyi terror aktlarına etiraz əlaməti olaraq yürüş keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, “Vancouver Public Library” meydanına toplaşan aksiya iştirakçıları Gəncə şəhərində və ölkəmizin digər yaşayış məntəqələrində Ermənistan silahlı qüvvələrinin törətdiyi vandalizm aktları nəticəsində mülki şəxslərin, o cümlədən azyaşlı uşaqların həlak olmasını, mülki obyektlərin dağıdılmasını kəskin şəkildə pisləyiblər.

Aksiyada “Qarabağ Azərbaycandır!”, “Erməni təcavüzünə son”, “Mülki insanlar toxunulmazdır”, “Uşaq ölümünə son qoyun”, “Gəncə üçün dua et”, “Erməni terroruna son” kimi şüarlar səsləndirilib.

Kanadada yaşayan dost xalqların nümayəndələri də öz bayraqları ilə aksiyaya qoşularaq Azərbaycana dəstəklərini nümayiş etdiriblər.

❖ ❖ ❖



Danimarkada yaşayan azərbaycanlılar Kopenhagen şəhər bələdiyyəsinin binası qarşısındakı “Radhuspladsen” meydanında icazəli aksiya keçirib. Aksiya iştirakçıları Gəncə şəhərində və ölkəmizin digər yaşayış məntəqələrində Ermənistan silahlı qüvvələri tərəfindən vandalizm aktlarının törədilməsini, mülki şəxslərin, o cümlədən azyaşlı uşaqların və qadınların qətlə yetirilməsini pisləyiblər.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, soydaşlarımızın təşəbbüsü ilə keçirilən aksiyada türk icmasının nümayəndələri də iştirak ediblər.

Tədbirdə Kopenhagen Universitetinin professoru, Beynəlxalq Başağrıları Cəmiyyətinin rəhbəri Məsud Aşina, Vətən Cəmiyyətinin rəhbəri Səfər Sadiqi, hüquqşünas Emil İgidov, Aytac İmanova, Leyla Hüseynova, Skandinaviya Türk Federasiyaları rəhbəri İlhan Esen, Türkiyənin Danimarkadakı səfiri Uğur Kənan İpək çıxış edərək Qarabağ həqiqətləri, Xocalı soyqırımı, Gəncə terroru barədə danışıb, dünya ictimaiyyətini günahsız uşaqların ölümünə biganə qalmamağa səsləyiblər.

Gəncə şəhərinin raket atəşinə tutulması nəticəsində qətlə yetirilən məsum körpələrin xatirəsini yad etmək üçün meydana rəmzi olaraq uşaq yataqları düzülüb. Yataqların üzərində şamlar yandırılıb, oyuncaqlar və gül dəstələri qoyulub.

Azərbaycan, Türkiyə və Danimarka bayraqlarının dalğalandığı meydanda Azərbaycanın dövlət himni oxunub, müxtəlif dillərdə “Qarabağ Azərbaycandır!”, “Gəncə cəbhə zonası deyil!”, “Erməni terrorçuluğuna son qoy!”, “Uşaq ölümünə son qoy!”, “Biz terrora yox deyirik”, “İşğalçı dövləti dəstəkləməyin!”, “Ermənistan, BMT qətnamələrinə əməl et!” kimi şüarlar səsləndirilib.

❖ ❖ ❖



Lüksemburqda Azərbaycanın Dağlıq Qarabağ bölgəsində torpaqlarımızın azadlığı uğrunda döyüşən əsgərlərimizə dəstək, eləcə də Ermənistanın raket atəşləri nəticəsində Gəncədə həlak olmuş mülki əhalinin xatirəsini yad etmək məqsədilə aksiya keçirilib. AZƏRTAC xəbər verir ki, Lüksemburqda əlverişsiz hava şəraitinə baxmayaraq, burada yaşayan azərbaycanlılar şəhərin Guillaume II mərkəzi meydanına toplaşıblar.

Bütün ailə üzvləri ilə meydana toplaşan azərbaycanlılar Gəncədə həlak olan uşaqların xatirəsinə oyuncaqlar, uşaq ayaqqabıları və gül-çiçək düzərək uşaqların qətlə yetirilməsini diqqətə çatdırıblar.

Azərbaycan, Türkiyə və Lüksemburq bayraqlarının dalğalandığı dinc aksiyada “Mən Gəncəyəm!”, “Gəncə üçün dua et!” kimi şüarları səsləndirilib.

Ətrafdan keçənlər Gəncədə mülki əhalinin, yaşayış mərkəzinin ermənilər tərəfindən raket atəşinə tutulması ilə bağlı məlumatlandırılıblar.

Aksiya iştirakçıları Azərbaycan dövlət himnini və “Sarı gəlin” xalq mahnısını səsləndiriblər.

❖ ❖ ❖



İsveçdəki Azərbaycan diasporu, Dağlıq Qarabağda baş verən toqquşmalar və Ermənistanın dinc Azərbaycan şəhər və kəndlərinə qarşı edilən hücumlar barəsində yerli ictimaiyyəti məlumatlandırmaq üçün Stokholmda səssiz aksiya keçirib. AZƏRTAC xəbər verir ki, aksiyaya toplaşan həmyerlilərimiz, Stokholmun mərkəzindəki Sergel meydanından Azərbaycanın İsveç Krallığındakı səfirliyinin qarşısına kimi səssiz yürüşlə keçərək yerli insanların diqqətini Ermənistan ordusunun Azərbaycanın bir sıra şəhər və rayonlarını raket atəşinə tutması nəticəsində mülki şəxslərin və günahsız körpələrin həlak olmasına cəlb ediblər.

Yürüş iştirakçıları əllərində “Qarabağ Azərbaycandır!”, “Gəncə şəhəri üçün dua et!”, “Erməni terroruna son!” kimi şüarlar yazılan plakatlar qaldıraraq baş verənlərə dünya ictimaiyyətinin diqqət yetirməsi tələb edilib.

Sonra Azərbaycanın İsveç Krallığındakı səfirliyinin qarşısına gələn aksiyaçılar, səfirliyin qarşısında Gəncə hücumunda həlak olanların xatirəsinə güllər və oyuncaqlar düzüblər. Burada diaspor nümayəndələrimiz yerli insanları maraqlandıran sualları cavablandırıb.

❖ ❖ ❖



Ermənistan ordusunun Gəncəyə raket hücumu nəticəsində həlak olan mülki şəxslərin xatirəsi Avstraliyanın Sidney şəhərində yaşayan Azərbaycan və türk icması tərəfindən anılıb. AZƏRTAC xəbər verir ki, Sidneydə yerləşən “Türk evi”nin qarşısında Güney Azərbaycan Demokratik Türk Birliyi və Avstraliya Azərbaycanlıları Assosiasiyası tərəfindən təşkil edilən mərasimdə Ermənistan ordusunun Azərbaycanın cəbhə bölgəsindən uzaqda yerləşən şəhərlərə raket hücumları və bunun nəticəsində mülki şəxslərin həlak olması qəti şəkildə pislənib.

Mərasimə Azərbaycan və Avstraliya bayraqları ilə qatılan iştirakçılar Ermənistanın Gəncə şəhərinə raket hücumu nəticəsində uşaqlar da daxil olmaqla günahsız mülki insanların yuxuda olarkən öldürüldüklərini xatırladaraq bu müharibə cinayətinin təşkilatçılarının beynəlxalq məhkəmə qarşısında məsuliyyətə cəlb olunmasını tələb ediblər.

Gəncədə həyatını itirənlər üçün “Türk evi”nin qarşısındakı guşəyə çələnglər və güllər qoyan tədbir iştirakçıları həlak olanların ruhuna dualar oxuyaraq Azərbaycan Ordusunun işğal altında olan torpaqları tezliklə azad etməsini diləyiblər.

❖ ❖ ❖




Səudiyyə Ərəbistanı Krallığının ingilis dilində nəşr olunan “Arab News” və Bəhreyn Krallığının “The Daily Tribune” qəzetlərində Azərbaycanın Səudiyyə Ərəbistanında səfiri Şahin Abdullayevin “Ermənistanın Azərbaycana qarşı son təcavüz aktları qəbuledilməzdir və sona çatmalıdır” sərlövhəli məqaləsi dərc edilib.

Məqalədə Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-də atəşkəsi kobud şəkildə pozması, cəbhə xətti boyunca Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutaraq bu il üçüncü dəfə Azərbaycana qarşı yeni hərbi təcavüzə başlaması və erməni hərbi birləşmələrinin cəbhəboyu əhalinin sıx yaşadığı əraziləri və mülki obyektləri qəsdən hədəfə almasından bəhs edilir.

Yazıda Ermənistanın gələcək hərbi təcavüzünün qarşısını almaq və mülki yaşayış yerlərinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Silahlı Qüvvələrinin özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq hüquqa tam uyğun olaraq əks-hücum tədbirlərinə başladığı qeyd edilib. Vurğulanıb ki, son iki ildə Ermənistanın yeni hökuməti tərəfindən törədilən bir sıra təxribatlar münaqişənin həlli ilə bağlı danışıqlar prosesinin üstündən xətt çəkib. İşğalçı ölkə atəşkəsi pozmağa davam edib, həmçinin baş nazir Nikol Paşinyanının “Qarabağ Ermənistandır. Nöqtə” kimi avantürist bəyanatı və danışıqların bərpası üçün “yeddi şərt” irəli sürməsi, Ermənistanın “yeni ərazilər üçün yeni müharibə” konsepsiyası prosesləri təhlükəli məcraya yönəldib.

## Biz birlikdə güclüyük!

# Karantin qaydalarına əməl etmək vətəndaşlıq borcudur

*Əvvəli 1-ci səh.*



Azərbaycandan da yan keçməyən qlobal təhlükəyə qarşı mübarizənin əsasında məhz bu üsullar dayanır. İnfeksiya dünyada yayılmağa başladığı ilk günlərdən Azərbaycan dövləti mühüm qabaqlayıcı tədbirlərə start verib. ÜST-nin tövsiyələrini nəzərə alaraq, hələ xəstəlik ölkəmizin sərhədlərinə yaxınlaşmazdan əvvəl hökumət problemin ciddiliyini anlayaraq vətəndaşların sağlamlığının qorunmasına yönəlik addımlar atmağa başlayıb.

Azərbaycanda koronavirusla bağlı vəziyyətin pisləşməməsi üçün dövlət tərəfindən hər cür imkanlar səfərbər edilib, mümkün effektiv və zəruri tədbirlər ardıcıllıqla, planlı şəkildə həyata keçirilib. Birbaşa Azərbaycan Prezidentinin rəhbərliyi və ciddi nəzarəti altında pandemiyaya qarşı həyata keçirilən məqsədyönlü və operativ tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa, sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verib, kütləvi yoluxmanın qarşısını alıb.

### Karantin qaydalarına riayət edilməməsi yoluxmanı artırır

Təəssüf ki, son həftələr bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da COVİD-19-a gündəlik yoluxma və ölüm halları artıb. Düzdür, yumşaldılmalardan sonra yoluxmanın artması gözlənilən idi, mütəxəssislər bunu əvvəldən proqnozlaşdırırdılar. Bunu havaların soyuması, respirator virus infeksiyalarının artması, immunitetin zəifləməsi kimi real, obyektiv faktorlarla əsaslandırırdılar. Amma bəzi insanların karantin qaydalarına ciddi riayət etməməsi də yoluxmanı artıran səbəblər arasında xüsusi vurğulanır.

Etiraf edək ki, bir aydır torpaqlarımızın erməni işğalçılarından azad olunması istiqamətində gedən Vətən müharibəsi koronavirus pandemiyasını unutduraraq arxa plana keçirdi. Cəmiyyətdə təhlükəli virusun yox olması kimi təəssürat, arxayınlıq yarandı. Nəticədə sosial məsafənin gözlənilməməsi, maska və dezinfeksiya vasitələrindən istifadə edilməməsi, dayanacaqlarda, ictimai nəqliyyatda karantin qaydalarına əməl olunmaması halları kütləviləşdi. Bunlar isə öz növbəsində xəstəliyin daha da sürətli yayılmasına zəmin yaratdı. Ona görə də Nazirlər Kabineti yanında Operativ Qərargah xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiq olunmasına qərar verdi.

### Preventiv tədbirlər vasitəsilə özümüzü qorumalıyıq

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) yoluxucu xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyevin sözlərinə görə, yeni növ koronavirus da, mövsümü qrip də yuxarı və aşağı tənəffüs yolları xəstəliyidir. Bunlar fərqli viruslar olsa da, temperatur, öskürək, tənəffüs çatışmazlığı, qızdırma, halsızlıq, boğaz ağrısı kimi kliniki əlamətlərə görə oxşardır və hər iki xəstəlikdə ağciyərin tutulması baş verir. Lakin yeni növ koronavirus üçün xarakterik olan əlamət iybilmə və dadbilmə hissinin itməsidir. Bu iki əlamətin olması koronavirus infeksiyasından şübhələnməyə əsas verir. Ona görə də yalnız klinik əlamətlərə görə dəqiq diaqnoz qoyula bilməz, çünki yoluxma halı laboratoriya şəraitində alınan yaxmanın mikrobioloji analizi nəticəsində təsdiq edilə bilər.

V.Əliyev payız mövsümü tənəffüs yolu infeksiyalarının artmasını mövsümə uyğun geyinməmək, qapalı məkanlardan daha çox istifadə etmək və belə şəraitdə infeksiyanın ötürücülük şəraitinin və təmasların çoxalması ilə əlaqələndirib: "Ona görə də karantin rejimi yumşaldılanda da həmişə qoruyucu tədbirləri zəiflətməmək barədə xəbərdarlıq edirdik. Hansısa bir dərmandan istifadə etməklə koronavirusdan qorunmaq olmaz. Hələlik peyvənd də tam təsdiq edilməyib, ona görə preventiv tədbirlər vasitəsilə özümüzü qorumalıyıq. Maska taxılması, sosial məsafə saxlanılması, antiseptik vasitələrdən istifadə edilməsi və gigiyena qaydalarına əməl edilməsi təkcə COVID-19 üçün deyil, digər respirator infeksiyalar üçün də vacibdir".

V.Əliyev əlavə edib ki, ölkəmiz bir aydır, haqq savaşındadır. Xalqımızın diqqəti əsasən bu savaşa yönəldiyinə görə infeksiyaya qarşı mübarizə bir qədər arxa plana keçib: "Bəzi hallarda bu səbəbdən sayıqlıq hissi bir qədər zəiflədi və bundan istifadə edən koronavirus infeksiyası yayılmaqda davam etdi. Əlbəttə, yalnız tədbirli davranmaqla təhlükəli virusun qarşısını almaq mümkündür. Ona görə də indiki vaxtda qaydalara daha ciddi əməl etmək lazımdır, çünki bu sahədə sayıqlığın itirilməsi orduya, zabit və əsgərlərə də sirayət edə bilər. Bunu nəzərə alaraq qaydalara daha ciddi əməl etmək hər kəsin vətəndaşlıq borcuna çevrilməlidir".

COVID-19-a yoluxma hallarının kütləviləşməsi hazırki müharibə dövründə bütün cəmiyyətimiz, xüsusilə də döyüş meydanında düşmənlə ölüm-dirim savaşına çıxan hərbçilərimiz üçün ciddi təhlükədir. Vətənimizin bu ağır dövründə özümüzü xəstəliklərdən qorumaqla ön cəbhədə döyüşən hərbçiləri də xəstəliklərdən qorumuş olarıq. Unutmayaq ki, hazırda Azərbaycan iki cəbhədə savaş aparır. Gözəgörünən düşmənlə - erməni terrorçuları ilə və gözəgörünməz düşmənlə - koronavirusla. Əsgərlərimiz bizi silahla qoruyur, biz isə onları maska ilə qorumalıyıq. Gözəgörünməz düşmənə qarşı mübarizə silahımızı yerə qoymamalıyıq. Sadə qoruyucu tədbirlərə - maskadan istifadəyə, əl gigiyenasına diqqət və sosial məsafəyə riayət etməklə qalib gəlməliyik.

***Xəyalə MURADLI, "Azərbaycan"***

## Koronavirusa 663 nəfər yoluxub, 283 nəfər isə sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına 663 yeni yoluxma faktı qeydə alınıb, daha 283 nəfər sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 51 min 149 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 41 min 693 nəfər müalicə olunaraq sağalıb, 688 nəfər vəfat edib. Aktiv xəstə sayı 8768 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 308 min 48 test aparılıb. Dünənki test sayı isə 9700-dür.

## Yoluxma hallarının 55,7 faizi paytaxtın payına düşür

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına bölgələr üzrə yoluxma göstəriciləri açıqlanıb.

AZƏRTAC koronavirusinfo.az saytına istinadən xəbər verir ki, ölkəmizdə koronavirusa yoluxma hallarının 55,7 faizi paytaxtın payına düşür.

Bundan əlavə, həmin göstərici Abşeron rayonunda 14,6, Aran rayonlarında 10,4, Gəncə-Qazax bölgəsində 6,5, Lənkəranda 4, Şəki-Zaqatalada 2,7, Quba-Xaçmazda 2,4, Dağlıq Şirvanda 1,5, Yuxarı Qarabağda 1, Naxçıvan Muxtar Respublikasında 0,08 faiz təşkil edir. Ölkə xaricindən idxalolunma halı 0,9 faizdir.

## Şəhid ailələri, əlilliyi olan şəxslər və digər həssas qruplar "Özünüməşğulluğa Dəstək Layihəsi"ndən də yararlana biləcəklər

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin özünüməşğulluq proqramının genişləndirilməsinə dəstək məqsədilə kommersiya banklarının icra etdiyi "Özünüməşğulluğa Dəstək Layihəsi"nə müraciətlərin qəbulu davam edir.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, layihədə aztəminatlı ailələrin üzvləri, məcburi köçkünlər, əlilliyi olan şəxslər, ünvanlı sosial yardım alanlar və həssas qruplardan olan digər şəxslərlə yanaşı, şəhid ailəsi üzvlərinə də üstünlük verilir.

Burada məqsəd aztəminatlı əhali qruplarının kiçik sahibkarlığa çıxışına şərait yaratmaqla gəlir imkanlarının artırılmasıdır.

Layihədən yararlanmaq üçün nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin məşğulluq layihələri üzrə vahid onlayn qeydiyyat sistemi **(https://forms.gle/bY4uBBB8fNPFeYyc9)** olan "Layihələr üzrə müraciət forması"na daxil olaraq qeydiyyatdan keçmək olar. Layihəyə qoşulmaq üçün e-sosial.az portalında "Məşğulluq" altsistemi vasitəsilə də müraciət etmək mümkündür.

Bu il ərzində 1000 nəfər işsiz şəxs üçün bankların dəstəyi ilə kiçik bizneslərin yaradılması nəzərdə tutulub. Onlardan artıq bir hissəsinə banklar tərəfindən aktivlər verilib və bu proses davam edir.

## FHN dəm qazı təhlükəsi ilə əlaqədar əhaliyə müraciət edib

Fövqəladə Hallar Nazirliyi (FHN) dəm qazı təhlükəsi ilə əlaqədar əhaliyə müraciət edib.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, müraciətdə havaların soyuması ilə əlaqədar əhalinin təbii qaza tələbatının artması fonunda qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarının pozulmasının dəm qazı təhlükəsi yaratdığı qeyd olunub. Bildirilib ki, ölümlə nəticələnə bilən bu təhlükə ilə üzləşməmək üçün qaz cihazı saz və standartlara uyğun olmalı, cihazın olduğu məkanın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalı, havaçəkən sistem işləməli, nəfəslik açıq olmalı, hamam otağında havalandırma borusu, qapının aşağısında dəliklər olmalı, tüstü bacaları ildə iki dəfə təmizlənməlidir.

"Yadda saxlayın! Dəm qazı iysizdir, hiss edilmir. Ondan zəhərlənmənin əlamətləri başağrısı, başgicəllənməsi, ürəkbulanması, halsızlıqdır. Dəm qazından zəhərlənmiş insanı təmiz havaya çıxarıb, nəfəs almasını çətinləşdirən geyimlərdən azad etmək, təcili tibbi yardım çağırmaq lazımdır. Unutmayın: qaydalara biganəlik həyatımıza təhlükədir. Təhlükə zamanı 112-yə zəng edin!", - deyə FHN-in müraciətində bildirilib.


## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tenderə dəvət edir

Tender 5 LOT üzrə keçirilir:

LOT 1 - Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-ATS Azad İqtisadi Zona və EATS-491-Sahil ATS-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-XQ) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan mal-materalların açıq tender üsulu ilə satın alınması.

LOT 2 - Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-ATS Azad İqtisadi Zona və EATS-491-Sahil ATS-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-XQ) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan PVC boru və birləşdiricilərin açıq tender üsulu ilə satın alınması.

LOT 3 - Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-ATS Azad İqtisadi Zona və EATS-491-Sahil ATS-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-XQ) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan istismar işləri üçün istifadə olunacaq mal-materialların açıq tender üsulu ilə satın alınması.

LOT 4 - Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-ATS Azad İqtisadi Zona və EATS-491-Sahil ATS-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-XQ) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan Fiber optik, TPP kabelləri və birləşdiricilərin satın alınması.

LOT 5 - Ələt Azad İqtisadi Zonasının yaradılması ilə əlaqədar mövcud rabitə qurğularının köçürülməsi, EATS-431-Ələt-ATS Azad İqtisadi Zona və EATS-491-Sahil ATS-Azad İqtisadi Zona arası fiber optik kabellərin çəkilişinə hazırlanmış layihə-smeta sənədlərinə (12811-XQ) uyğun görüləcək tikinti-quraşdırma işlərinə tələb olunan qum,sement,çınqıl və s. mal-materialların satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
LOT 1 - 700 (yeddi yüz) manat (ƏDV daxil)
LOT 2 - 1100 (bir min yüz) manat (ƏDV daxil)
LOT 3 - 700 (yeddi yüz) manat (ƏDV daxil)
LOT 4 - 900 (doqquz yüz) manat (ƏDV daxil)
LOT 5 - 300 (üç yüz ) manat (ƏDV daxil)

İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına AsanÖdəniş Portalı vasitəsi ilə ödəniş etdikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**hesab: AZ14AZPO91015461200420100157**
**bankın adı: "Azərpoçt" MMC PF 1**
**kodu: 691011**
**bankın VÖENi: 9900037711**
**m/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər 19 noyabr 2020-ci il saat 16:00-dək aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında vergi və sosial müvafiq orqanlarından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçıların müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını 27 noyabr 2020-ci il saat 17:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri 30 noyabr 2020-ci il saat 16:00-da dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tender qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxsi açıq tender elan edir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxsin tabeliyindəki sosial xidmət müəssisələri üçün mətbəə mallarının satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

| | |
|---|---|
| **İştirak haqqı:** | **100 (bir yüz) manat** |
| **Satınalan təşkilat:** | **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində "Sosial Xidmətlər Agentliyi" publik hüquqi şəxsi** |
| **H.Hesabı:** | **AZ88IBAZ38060019447403110206** |
| **VÖEN-i:** | **1405196831** |
| **Bank:** | **Azərbaycan Beynəlxalq Bankının Nərimanov filialı** |
| **Kodu:** | **805540** |
| **VÖEN-i:** | **9900001881** |
| **Müxbir hesab:** | **AZ03NABZ01350100000000002944** |
| **S.W.İ.F.T BİK:** | **IBAZAZ2X** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
*4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (31.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir).*
*5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə).*
*6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (31.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir).*
*7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması.*
*8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması.*
*9. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
*10. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.*
*11. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*
*12. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.11.2020-ci il saat 12:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **26.11.2020-ci il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **27.11.2020-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 27 oktyabr 2020-ci il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına qum doldurma materiallarının və mişar daşının elektron qaydada satın alınması məqsədilə dərc edilmiş tender elanında predmet mexaniki olaraq səhv göstərilmişdir. Həmçinin dövlət satınalmalarının vahid internet Portalında sözügedən tender elanında da predmet "doldurma materiallarının və mişar daşının satın alınması" kimi dərc olunmuşdur.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, "Azərbaycan" qəzetinin 27 oktyabr 2020-ci il tarixli buraxılışında dərc olunmuş elandakı predmet "elektron satınalma vasitəsi ilə doldurma materiallarının və mişar daşının satın alınması" kimi qəbul edilməlidir.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti HVAC (soyutma, isitmə və havalandırma) sistemin layihə, avadanlıq və quraşdırılması işlərinin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 06 noyabr 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Heydər Əliyev prospekti, 152,"Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən 14.07.2020-ci il tarixdə "Ələt azad iqtisadi zonası ərazisində ilkin elektrik işlərinin layihələndirilməsi və aparılması işlərinin satın alınması" məqsədilə elan edilmiş açıq tender üzrə iddiaçıların sayı 3 (üç)-dən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1 maddəsini əsas götürərək tenderin davamından imtina olunmuşdur.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən 14.07.2020-ci il tarixdə "Şəki və Oğuz rayonları ərazisində yaradılacaq aqroparkın suvarma suyu ilə təmin edilməsi üçün elektrik təchizatı (Şəki ərazisi üzrə) işlərinin satın alınması" məqsədilə elan edilmiş açıq tender üzrə iddiaçıların sayı 3 (üç)-dən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1 maddəsini əsas götürərək tenderin davamından imtina olunmuşdur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Səbail rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi tərəfindən 25.08.2020-ci il tarixdə "Nəqliyyat vasitələri üçün müxtəlif ehtiyat hissələrinin" elektron satın alınması ilə bağlı elan olunmuş açıq tender poseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.2 bəndinə uyğun olaraq ləğv edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Səbail rayon Mənzil-Kommunal Təsərrüfat Birliyi tərəfindən 25.08.2020-ci il tarixdə "Xüsusi yay geyim formalarının" elektron satın alınması ilə bağlı elan olunmuş açıq tender poseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.2 bəndinə uyğun olaraq ləğv edilmişdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Quba şəhərində Soyqırımı Memorial Kompleksi avadanlıqların cari təmiri (222110), sərginin təşkili üçün təbliğat tipli əşya və materialların hazırlanması və qaz balonlarının doldurulması (222920) işlərinin satın alınması üzrə kotirovka sorğusu elan edir

Maraqlanan təşkilatlar (023)33-5-37-07, 055 410-17-12 telefon nömrələri ilə əlaqə saxlaya bilərlər.
Əlaqələndirici şəxs - Ağayev Ayaz Əlisafa oğlu.
Ünvan: Quba şəhəri, N.Nərimanov, 1A; **e-mail:office@soyqirim.az**

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

LOT-1 "Bakı Metropoliteni" QSC-nin tunellərində korroziya əleyhinə mühafizə üzlüklərinin çəkilməsi zamanı texniki nəzarət xidmətinin satın alınması

| | |
|---|---|
| **İştirak haqqı** | **- 200 manat** |
| **Hesabın adı:** | **"BAKI METROPOLITENI" QSC** |
| **Hesab nömrəsi (IBAN):** | **AZ98AZRT38050019440010268002 AZN** |
| **VÖEN** | **1402871431** |
| **Bankın adı:** | **AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)** |
| **Kod:** | **501361** |
| **VÖEN:** | **9900006111** |
| **Müxbir hesabı:** | **AZ02NABZ01350100000000022944** |
| **SWIFT BIK:** | **AZRTAZ22** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18 noyabr 2020-ci il saat 11:30-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **26 noyabr 2020-ci il saat 11:30-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **27 noyabr 2020-ci il saat 11:30-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıq tenderə dəvət edir

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən maşın və avadanlıqların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı : LOT üzrə 100 (bir yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank : Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**HHESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İstirak haqqı heç bir halda qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*- tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər taqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatları);*
*- satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
*- mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
*- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
*- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.11.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **26.11.2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **27.11.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu (DSMF) Publik Hüquqi Şəxsi *açıq tenderə dəvət edir*

Fondun Aparatı və struktur bölmələrdə istifadə olunacaq mikro avtobusların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

| | |
|---|---|
| **İştirak haqqı:** | **LOT üzrə 300 (üç yüz) manat** |
| **VÖEN:** | **1300050781** |
| **Bank:** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **H/hesabı:** | **AZ46CTRE00000000000007018504** |
| **Müxbir Hesabı:** | **AZ41NABZ01360100000000003944** |
| **VÖEN:** | **1401555071** |
| **Kod:** | **210005** |
| **SWIFT** | **CTREAZ22** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*- tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
*- satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
*- mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
*- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
*- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
*- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **17.11.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini 2**5.11.2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **26.11.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Ofis avadanlıqlarının satın alınması məqsədilə müsabiqə elan edir

İştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 2020-ci il 06 noyabr saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti xidmətin Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi, 16 ünvanında yerləşən inzibati binasında cari təmir işlərinin yerinə yetirilməsinin təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şəxslər (+994 12) 403 87 91 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 28 oktyabr 2020-ci il saat 09:00-dan 3 noyabr 2020-ci il saat 18:00-a qədər qəbul olunur.

**Ünvan: AZ1073, Bakı şəhəri, Yasamal rayonu, Akademik Lev Landau küçəsi, 16.**

***Tender komissiyası***

## "Dövlət satınalmaları haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunlarına uyğun olaraq, Sahibkarlığın İnkişafı Fondu əməkdaşlarının tibbi sığortalanması xidmətinin satın alınması üçün sığorta şirkətinin seçilməsi üzrə kotirovka sorğusu elan edir

İddiaçılar satınalma prosedurunun predmetinə dair hazırlanmış əsas şərtlər toplusunu Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Təkliflər 2020-ci il 30 oktyabr saat 12:00-a qədər qəbul olunur.

Ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxs Əyyub Abdullayevə müraciət edə bilərlər.

**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, A.M.Şərifzadə küçəsi, 172.**
**Telefon: (012) 310 23 02; Fax: (012) 4323717; e-mail: info@edf.gov.az.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Polad burazların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 2020-ci il 03 noyabr saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı

**RAUF ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin üzvü, sədr müavini Sənan Tapdıqova atası

**NİZAMİ TAPDIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7475
Sifariş 2534
Qiyməti 40 qəpik